Fərman Məmmədov
Fikrət İbiyev

# Microsoft PowerPoint 2010

**FƏRMAN MƏMMƏDOV**
**FİKRƏT İBİYEV**

# MS PowerPoint 2010

Ali məktəblər üçün dərs vəsaiti

Azərbaycan Dillər Universitetinin elmi şurasının 27 dekabr 2017-ci il tarixli (protokol №14) qərarilə çap olunmuşdur

**BAKI – 2017**

**Məmmədov F.O., İbiyev F.T.**
MS PowerPoint 2010. Dərs vəsaiti, Bakı, 2017, 144 s.

**Elmi redaktor:** Azərbaycan Dillər Universitetinin
İnformasiya texnologiyaları kafedrasının
**dosenti H.M.Quliyev**

**Rəyçilər:** Bakı Slavyan Universitetinin Riyaziyyat və
informatika kafedrasının müdiri
**dos. R.Ə.Eyyubov**

Azərbaycan Dillər Universitetinin
İnformasiya texnologiyaları kafedrasının
**dosenti G.Y.Məlikov**

Dərs vəsaiti ”İnformatika” kursunun bölmələrindən birinə - Microsoft PowerPoint 2010 proqramına həsr olunmuşdur. Kitabda PowerPoint təqdimatlarının yaradılması və işlədilməsi qaydalarına baxılır. Dərs vəsaitində baxılan mövzuların çoxsaylı illüstrasiyalar və dialoq pəncərələrilə müşayiət edilməsi şərh olunan materialın daha əyani və asan başa düşülən olmasını təmin edir. Kitabda Microsoft PowerPoint 2010 haqqında ümumi məlumat verilir, lent interfeysinin elementləri ardıcıl şərh olunur, həmçinin müxtəlif tipli və müxtəlif strukturlu təqdimatların yaradılma qaydaları göstərilir.

Dərs vəsaiti ADU-nun tələbələri üçün nəzərdə tutulmuşdur. Kitabdan həmçinin, magistrlər, müəllimlər və kompüterdə işləməyi müstəqil öyrənmək istəyənlər də istifadə edə bilərlər.

© Məmmədov F.O., İbiyev F.T.

# Mündəricat

**Müqəddimə........................................................................5**
**Fəsil 1. PowerPoint 2010 proqramının interfeysi ......................8**
§1.1. PowerPoint 2010 proqramının icrası və pəncərə elementləri........................................................8
§1.2. File menyusu ...........................................................14
**Fəsil 2. Panellər lentinin strukturu ..........................................17**
§2.1. Home (Ev) paneli ........................................................18
§2.2. Insert (Yerləşdirmək) paneli .......................................23
§2.3. Design (Dizayn) paneli ................................................31
§2.4. Transitions (Keçidlər) paneli ......................................35
§2.5. Animation (Animasiyalar) paneli .................................39
§2.6. Slide Show (Slaydların nümayişi) paneli...................48
§2.7. Review (Resenziya) paneli ..........................................59
§2.8. View (Görünüş) paneli ................................................63
**Fəsil 3. Təqdimatın yaradılması və saxlanması .......................78**
§3.1. Təqdimatın yaradılması ...............................................78
§3.2. Boş səhifədə təqdimatın yaradılması...........................80
§3.3. Mövcud sənəd əsasında təqdimatın yaradılması ........ 88
§3.4.Temalar və slayd nümunələri əsasında təqdimatın yaradılması.................................................89
§3.5. Şablonlar əsasında təqdimatın yaradılması..................93
§3.6. Slaydların nümayiş vaxtının sazlanması.................... 101
§3.7.Təqdimatın saxlanılması ............................................103
§3.8.Təqdimatın çapı ...................................................... 106
**Fəsil 4. Səs və videoların tətbiqi ........................................... 109**
§4.1. Səs faylının təqdimat slaydlarına əlavə edilməsi ..... 109
§4.2. Video-faylın təqdimat slaydlarına əlavə edilməsi .... 120
**Fəsil 5. Animasiyalarla iş...........................................................127**
§5.1. PowerPoint 2010 proqramında animasiyalar ........... 127
§5.2. Animasiyaların tətbiqi............................................... 128
§5.3. Animasiyaların sazlanması........................................ 132

# Müqəddimə

MS PowerPoint 2010 proqramı informasiyanı kompleks şəkildə təqdim etmək üçün nəzərdə tutulmuş ən universal vasitədir. Belə ki, mətnlərin, şəkillərin, cədvəl və sxemlərin, diaqramların, qrafiklərin, səs və video görüntülərin eyni vaxtda yer aldığı sənədlər təqdim olunarkən təsəvvürlər daha aydın və nəticə daha effektli olur. Yəni hər hansı obyektin strukturunu izah edərkən yalnız mətndən istifadə etmək effektli olmur. Odur ki, informasiyanın müxtəlif təsvir formalarını bir sənəddə birləşdirməyə imkan verən *elektron təqdimatlardan* istifadə edilir.

Müasir dövrdə elektron təqdimatların istifadəsi çox geniş yayılmışdır və praktiki olaraq hər gün rast gəlinir. Belə ki, təhsil sahəsində, işgüzar görüşlərdə, reklamlarda, müxtəlif iclaslar və konfranslarda elektron təqdimatların tətbiq olunması artıq bir normaya çevrilmişdir.

Hər bir mütəxəssis öz fəaliyyət sahəsilə bağlı maraqlı bir elektron təqdimat yaradarkən çıxışını qısaca olaraq ora daxil edə bilər və bu zaman öz sözlərini xüsusi illüstrasiyalar, qrafiklər, sxemlər, cədvəllər və diaqramlarla müşayiət edər, eləcə də, zəruri audio- və ya video-fayllar tətbiq edə bilər. Həmçinin bu zaman zərurət yaranarsa xüsusi effekt yaratmaq məqsədilə musiqilə müşayiət də əlavə etmək olar. Adı çəkilən elementlər bir faylda birləşir və nümayiş ardıcıllığı təyin edilir. Yaradılmış fayla ekranda baxmaq olar, həmçinin böyük auditoriyalarda işləyərkən proyektordan istifadə etmək olar.

PowerPoint proqramı ən müxtəlif effektlərin köməyilə informasiyaya daha maraqlı görünüş verərək onu canlandırmağa imkan verir. Belə ki, PowerPoint proqramında yaradılmış təqdimat bir-birini əvəz edən və *slaydlar* adlanan kadrlardan ibarətdir. Hər bir slaydda müxtəlif tipli informasiya

yerləşir: mətn, şəkil, audio-video fayllar və s. Bu isə təqdimatın nümayişinə tamaşaçıların daha maraqla cəlb olunmasına səbəb olur və onlarda böyük təəssüratlar yaradır.

Beləliklə, MS PowerPoint 2010 çox güclü və eyni zamanda mənimsənilməsi kifayət qədər sadə olan elektron təqdimat proqramıdır. İlk baxışdan bu proqram əvvəlki versiyalardan o qədər də fərqlənmir. Heç şübhəsiz ki, bu proqramın ən mühüm və diqqət çərən cəhəti ondan ibarətdir ki, onun əsas alətlər panelləri və menyu interfeysi MS Office 2010 paketinə daxil olan digər proqramların interfeysinə çox yaxındır.

MS PowerPoint 2010 proqramına həsr olunmuş bu kitab Azərbaycan Dillər Universitetində tədris olunan "İnformatika" fənninin proqramına uyğun hazırlanmışdır.

Kitab beş fəsildən ibarətdir. Birinci fəsildə MS PowerPoint 2010 proqramının interfeys elementlərinə baxılır. Belə ki, proqramın pəncərə elementləri və Fayl menyusunun strukturu izah olunur.

Adətən kompüter istifadəçiləri MS Office 2010 proqramlarilə işləyərkən öz işlərini əsasən panellər lenti üzərində qururlar. Odur ki, ikinci fəsil bütünlüklə panellər lentinə həsr edilmişdir. Yəni bu fəsildə PowerPoint pəncərəsində əks olunan bütün panellərin strukturu, həmçinin ayrı-ayrı qruplar üzrə onların bütün elementləri şərh olunur. O cümlədən, digər Office 2010 proqramları pəncərəsində olmayan və yalnız MS PowerPoint 2010 proqramına aid olan panellərə xüsusi diqqət yetirilir, bu panellərin elementləri, eləcə də bu elementlərin funksiyaları və tətbiqləri daha ətraflı izah olunur.

Üçüncü fəsil elektron təqdimatların yaradılmasına həsr edilmişdir. Belə ki, bu fəsilə təqdimatların mümkün yaradılma

üsulları, saxlanılması, çapı və onların sazlanmasilə bağlı materiallar daxil edilmişdir.

Dördüncü fəsildə səs və video-faylların tətbiqləri öz əksini tapmışdır.

Nəhayət, beşinci fəsildə elektron təqdimatların yaradılmasında mühüm addımlardan olan animasiyaların tətbiqlərinə yer verilmişdir.

Kitabda ayrı-ayrı mövzular müəyyən praktiki misallar və müvafiq dialoq pəncərələrindən istifadə etməklə şərh olunur ki, bu da dərs vəsaitinin daha oxunaqlı, daha tez başa düşülən olması və daha yaxşı nənimsənilməsini təmin edir.

Sonda bizə göndərəcəkləri qeyd və təkliflərinə görə oxuculara əvvəlcədən təşəkkürümüzü bildiririk.

***fomamedov50@mail.ru***
***ibiyev@rambler.ru*** **Müəlliflər**

# Fəsil 1. PowerPoint 2010 proqramının interfeysi

## §1.1. PowerPoint 2010 proqramının icrası və pəncərə elementləri

MS PowerPoint 2010 proqramı müxtəlif üsullarla icra oluna bilər:

- **Start ⇒ All Programs ⇒ Microsoft Office ⇒ Microsoft PowerPoint 2010** əmri icra olunur;
- Tapşırıqlar paneli üzərində bərkidilmiş elementlər siyahısından PowerPoint 2010 düyməsi (əgər varsa) seçilir;
- İş stolunda PowerPoint 2010 proqramının etiketi (əgər varsa) və ya PowerPoint 2010 proqramında yaradılmış faylın piktoqramı (əgər varsa) üzərində mausun sol düyməsi ikiqat basılır və s.

PowerPoint 2010 proqramı icra olunarkən onun pəncərəsi (şəkil 1.1) açılır. Bu pəncərənin əsas elementlərinə baxaq.

**Cəld giriş paneli.** Bu panel üzərində tez-tez müraciət olunan əmrlər (düymələr) yerləşir: **Save (Saxlamaq/ Сохранить), Undo (İmtina etmək/Отменить)** və **Repeat (Təkrar etmək/Повторить).** Başqa sözlə desək istənilən iş rejimdə lazım ola biləcək ən əsas əmrlər (düymələr) bu panel üzərində yerləşir. Bununla yanaşı istənilən əmri bu panel üzərinə əlavə etmək və ya buradan lazımsız əmri ləğv etmək olar. Bunun üçün cəld giriş panelinin sağındakı düymə ilə açılan menyudan istifadə edilir.

**Başlıq sətri.** Bu sətirdə faylın və proqramın adı yerləşir.

**Panellər lenti.** Word və Excel proqramlarında olduğu kimi PowerPoint proqramında da əsas interfeys tamamilə yenilənmişdir. Belə ki, proqramın bütün əsas imkanları əvvəlki kimi qalmaqla bütün əmrlərə müraciət qaydası dəyişdirilmişdir. Görünən odur ki, artıq işin istənilən mərhələsində zəruri olan bütün əmrlər əl altındadır və eyni




**Şək. 1.1. PowerPoint proqramının pəncərəsi**

zamanda ekranda lazımsız heç nə yoxdur. Yəni əvvəlki versiyalardan məlum olan menyu sətri və standart alətlər panelinin yerində bütün pəncərə boyu üzərində çoxlu sayda düymələr (əmrlər) olan enli zolaq yerləşir. Bu zolaq *lent (panellər lenti)* adlanır. Lent üzərindəki çoxsaylı düymələr (əmrlər) funksiyalarından asılı olaraq müəyyən panellər arasında bölünmüş və qruplarla yerləşir. Yəni bu panellər

lentin hissələridir. Odur ki, həmin *lentə* çox zaman *panellər lenti* deyilir. Beləliklə, lentin hissələri olan panellər üzərində slaydlarla bağlı bütün mümkün əməliyyatların aparılması üçün nəzərdə tutulmuş əmrlər (düymələr) yerləşir (şəkil 1.1).

**Slaydlar oblastı.** Bilavasitə panellər lentindən aşağıda, mərkəzdə yerləşən hissə PowerPoint proqramı pəncərəsinin **slaydlar oblastıdır**. Slaydların yaradılması və redaktəsilə bağlı bütün əməliyyatlar burada yerinə yetirilir. Odur ki, PowerPoint proqramı pəncərəsinin bu həssəsinə slaydların **redaktə oblastı** da deyirlər. Yəni açılan, yaradılan və redaktə olunan slaydlar pəncərənin bu hissəsində əks olunur.

Slaydlar oblastının solunda **eskizlər paneli** və ya sadəcə **slaydlar paneli** yerləşir. Normal görünüş rejimində işləyərkən PowerPoint pəncərəsinin solunda yerləşən eskizlər panelinin məzmunu iki müxtəlif variantda əks oluna bilər: **Slides (Slaydlar /Слайды)** və **Outline (Struktur/ Структура).** Yəni bu panel üzərindəki **Slides (Slaydlar /Слайды)** düyməsi basıldıqda cari təqdimatın bütün slaydlarının kopyaları pəncərənin solunda kiçik eskizlər şəklində əks olunur. Bu isə kiçik eskizlər şəklində görünən slaydların nömrələnmə və sıralanma ardıcıllığına baxmağa, eləcə də onlardan istənilən birinə tez keçməyə, slaydı ləğv etməyə və ya yeni slayd yaratmağa imkan verir. Həmin slaydlardan istənilən biri üzərində mausun sol düyməsi basıldıqda o slayd redaktə oblastında əks olunur. Bu panel üzərində slayddan-slayda çox asanlıqla keçmək və eləcə də onların bir-birinə nəzərən yerləşmə vəziyyətini dəyişmək olar. Bunun üçün eskizlərdən hər hansı biri üzərində mausun sol düyməsi basılı saxlanılmaqla həmin eskiz vertikal istiqamətdə başqa mövqeyə aşağı və ya yuxarı sürüşdürülür.

Bir neçə slaydın yerini dəyişmək üçün onlar əvvəlcə Ctrl düyməsi basılı saxlanmaqla seçilir. Adətən PowerPoint proqram pəncərəsi açılarkən susmaya görə slaydların eskizlər şəklində görünüş rejimi aktiv olur.

Eskizlər paneli üzərindəki **Outline (Struktur/ Структура)** düyməsi basıldıqda cari təqdimatın bütün slaydlarının başlıqları pəncərənin solunda struktur rejimində əks olunur. Slaydlar rejimilə bağlı yuxarıda deyilən əməliyyatlar **Outline (Struktur/ Структура)** rejimində də mümkündür. Eyni zamanda birbaşa bu paneldə əks olunan struktur elementləri üzərində düzəlişlər etmək olar. Bunun üçün zəruri element üzərində mausun sol düyməsi basılır və yeni mətn daxil edilir.

PowerPoint pəncərəsində yalnız slaydlar oblastının əks olunması üçün eskizlər panelini bağlamaq lazımdır. Bunun üçün panelin yuxarı sağ küncündəki müvafiq düymə  basılır. Eskizlər panelinə yenidən qayıtmaq üçün aşağıdakı addımlar icra olunur:

**1.** Mausun göstəricisi PowerPoint pəncərəsinin sol sərhədində elə saxlanılır ki, göstərici iki istiqamətli ox görkəmini alır;

**2.** Mausun sol düyməsi basılı saxlanılmaqla eskizlər panelini məhdudlaşdıran xətt sağa doğru sürüşdürülür.

**Slayd qeydləri.** Bu sətirdən ayrılıqda hər bir slayd haqqında zəruri qeydlər daxil edilir. Yadda saxlamaq lazımdır ki, bu qeydlərə təqdimatın **Notes Page (Qeydlər səhifəsi/Страницы заметок)** görünüş rejimində baxmaq və burada həmin qeydlərə əlavələr və ya düzəlişlər etmək olar.

**Vəziyyət sətri.** Sənədin aşağı sol küncündə yerləşir. Burada cari slayd haqqında məlumatlar əks olunur, məs.,

slaydın nömrəsi, tema, dil. Lakin bu məlumatların məzmunu təqdimatların görünüş rejimindən asılı olaraq dəyişir.

**Miqyas tənzimləyicisi.** Sənədin aşağı sağ küncündə yerləşir. Bunun vasitəsilə cari slaydın miqyasını artırmaq və ya azaltmaq olar.

**Slaydı cari pəncərəyə yerləşdirmək düyməsi (Fit Slide to current window).** Bu düymə vasitəsilə slayd cari pəncərəyə elə yerləşdirilir ki, ekranda bütünlüklə görünür və əlavə hərəkətə ehtiyac qalmır.

**Slaydın görünüş rejimləri.** Bu rejimlərin birindən digərinə keçdikcə ekranda slaydın görünüşləri dəyişir: adi redaktə rejimi, slayd nizamlayıcısı, ayrıca pəncərədə nümayiş rejimi və slaydların nümayişi. Bu rejimlər **View (Görünüş/ Вид)** paneli üzərində yerləşən birinci qrupun müvafiq düymələrilə seçilir. Odur ki, slaydların ümumilikdə görünüş rejimləri – **Normal (Adi/Обычный), Slide Sorter (Slayd nizamlayıcısı/ Сортировщик слайдов), Notes Page (Qeydlər səhifəsi/Страницы заметок)** və **Reading View (Oxumaq rejimi / Режим чтения)** aşağıda **View (Görünüş/ Вид)** panelinin elementləri sırasında şərh olunur. Bu görünüş rejimlərinin bəzilərinə keçmək üçün həm də vəziyyət sətrinin sağında yerləşən müvafiq düymələrdən istifadə etmək olar. Eyni zamanda vəziyyət sətrinin sağında yerləşən  düyməsindən istifadə etməklə **Slide Show (Slaydların nümayişi /Показ слайдов)** rejiminə keçmək olar. Bu rejimdə cari slayddan başlayaraq hər bir slayd geniş ekranda bütün auditoriyanın görə biləcəyi şəkildə açılır. Bu halda slaydlar üzərində düzəlişlərin edilməsi mümkün deyildir. Bu rejimdən çıxmaq üçün kontekst menyu açılır və oradan **End Show (Nümayişi başa çatdır/ Завершить Показ слайдов)** əmri seçilir və ya klaviaturadan **Esc**

düyməsi basılır.

Təqdimatın yaradılmasının başlanğıc mərhələsində icra olunan bütün əsas əməliyyatlar **Normal (Adi, Обычный)** görünüş rejimində icra olunur. Yuxarıda qeyd etdiyimiz kimi bu rejimdə PowerPoint pəncərəsinin panellər lentindən aşağıda yerləşən işçi oblastı dörd hissəyə bölünür: slaydların redaktə oblastı, qeydlər sətri- **Click to add notes (Slayda qeydlər/ Заметки к слайду)**, eskizlər paneli üzərində əks olunan slayd eskizləri - **Slides (Slaydlar/ Слайды)** və slayd strukturu - **Outline (Struktur/ Структура)**.

PowerPoint proqramında yaradılmış təqdimat müxtəlif növ informasiyaları - şəkillər, diaqramlar, sxemlər, səs faylları və s. özündə birləşdirən slaydlar yığımından ibarətdir. Yəni ayrı-ayrı slaydlar təqdimatın konkret səhifələridir. Beləliklə, PowerPoint proqramında slayd əsas elementdir. PowerPoint proqramı pəncərəsində yeni sənəd açarkən redaktə oblastında titul slaydı görünür. Onun üzərində adətən bütün təqdimatlar haqqında ümumi məlumat yerləşir: müəllifin adı, slaydın yaranma tarixi və yeri və s. Verilənlər **Click to add title (Slaydın başlığı/Заголовок слайда)** və **Click to add subtitle (Slaydın alt başlığı/Подзаголовок слайда)** sahələrindən daxil edilir. Bunlar barəsində aşağıda verilir.

PowerPoint proqramı pəncərəsində slaydlar üzrə rahat hərəkət etmək üçün müxtəlif üsullar nəzərdə tutulur:

- Slaydları ardıcıl vərəqləmək üçün pəncərənin sağında yerləşən **vertikal hərəkət zolağından** istifadə edilir;
- Həmçinin, bu məqsədlə hərəkət zolağında yerləşən ikiqat ox şəklindəki **Next Slide (Növbəti slayd/ Следующий слайд)** və ya **Previous Slide (Əvvəlki**

**slayd/ Предыдущий слайд)** düyməsindən istifadə edilir.

Təqdimatın birinci slaydına tez qayıtmaq üçün **Home (Ev)** düyməsi və axırıncı slayda tez keçmək üçün isə **End (Son)** düyməsi basılır.

## §1.2. File menyusu

Panellərin adlarından solda qırmızı rənglə əks olunan Fayl düyməsi yerləşir. Bu düymə eyni adlı menyunu- File menyusunu açmaq üçündür. File menyusu (şəkil 1.2) PowerPoint proqramında yaradılmış fayllarla bağlı standart əməliyyatların icrası üçün istifadə olunan əmrlərdən ibarətdir. Bu əmrlər MS Office 2010 proqramlarının hamısında istifadə edilən eyni standart əmrlərdir. Bu əmrlər istifadəçiyə PowerPoint təqdimat faylları ilə işləyərkən bir sıra imkanlar verir. O cümlədən:



**Şək. 1.2. File menyusu**

1. **Save (Saxlamaq/ Сохранить)** və ya **Save As (Necə saxlamaq/ Сохранить как)** əmri vasitəsilə hazır təqdimat fayllarını diskdə saxlamaq olar. Fayl yeni yaradılırsa bu əmrlərin biri seçilən kimi **Save As (Necə saxlamaq/ Сохранить как)** dialoq pəncərəsi açılır. Həmin pəncərədən zəruri saxlanma parametrləri (faylın adı, saxlanma yeri, tipi və s.) təyin edilir və **Save** düyməsi basılır. Yadda saxlamaq lazımdır ki, təqdimat faylı yeni yaradılmırsa, **Save (Saxlamaq)** və **Save As (Necə saxlamaq)** əmri fərqlidir. Yəni bu halda **Save As (Necə saxlamaq)** əmri seçildikdə

göstərilən dialoq pəncərəsi açılır, **Save (Saxlamaq)** əmri seçildikdə isə heç bir pəncərə açılmır və fayl öz adı ilə öz yerində saxlanılır.

**2. Open (Açmaq/Открыть)** əmri müvafiq dialoq pəncərəsini açır. Həmin dialoq pəncərəsində zəruri faylı seçməklə açmaq olar. Menyunun **Close (Bağlamaq/ Закрыть)** əmri təqdimat faylını bağlamaq üçündür;

**3. Info (Məlumat/Сведения)** əmrilə açılan pəncərə əlavəsində təqdimat faylları ilə bağlı ümumi məlumatlar əldə etmək olar: kim tərəfindən və nə vaxt yaradılıb, ölçüsü, slaydların sayı, yaradılma və sonuncu düzəliş tarixi və s.;

**4. Recent (Sonuncular/Последние)** əmrilə açılan pəncərə əlavəsində son vaxtlar üzərində işlər aparılmış təqdimatlar əks olunur;

**5. New (Yaratmaq/Создать)** əmri ilə açılan pəncərə əlavəsində təklif olunmuş hazır şablonlardan istifadə etməklə yeni təqdimatlar yaratmaq olar;

**6. Print (Çap/Печать)** əmri təqdimatların çap olunmasında istifadə edilir. Bu əmr seçildikdə ekranın orta hissəsində çap əməliyyatının sazlanması üçün istifadə edilən parametrlər, sağ tərəfdə isə sənədin çapdan əvvəlki görünüşü əks olunur. Odur ki, ekranda əks olunmuş çap parametrləri tələblərə uyğun olaraq sazlanmalı, yəni zəruri çap parametrləri (nüsxələrin sayı, hansı slaydların və ya sənədin hansı hissəsinin çap olunacağı, çap vərəqinin oryientasiyası, çap rəngi və s.) təyin edilməlidir. Yalnız bundan sonra parametrlərin yuxarısında yerləşən Print düyməsi basılır və sənəd çapa verilir;

**7. Save and send (Saxlamaq və göndərmək/ Сохранить и отправить)** əmri adından da göründüyü kimi yaradılmış təqdimatı müxtəlif parametrlərlə saxlamağa,

həmçinin göndərməyə imkan verir. Belə ki, bu əmr icra olunduqda açılan müvafiq pəncərə əlavəsində müxtəlif saxlanma parametrləri əks olunur. Odur ki, təqdimatın saxlanması üçün əvvəlcə bu parametrlərdən zəruri olanlar seçilməlidir.

**8. Help (Kömək)** əmri sorğu materiallarına müraciət etmək, **Options (Parametrlər)** əmri PowerPoint 2010 proqramının parametrlərinə baxmaq və **Exit (Çıxış)** əmri proqramla işi başa çatdırmaq üçün nəzərdə tutulur.

# Fəsil 2. Panellər lentinin strukturu

Panellər lenti (şəkil 2.1) özündə səkkiz paneli birləşdirir: **Home (Ev/ Главная), Insert (Yerləşdirmək/ Вставка), Design (Dizayn/Дизайн), Transitions (Keçidlər/ Переходы), Animations (Animasiyalar / Анимация), Slide Show (Slaydların nümayişi/Показ слайдов), Review(Resenziya/ Рецензирование), View (Görünüş/ Вид).** Başqa sözlə desək, bu panellər, lenti əmələ




**Şək. 2.1. PowerPoint pəncərəsində panellər lenti**

gətirir, yəni onun hissələridir. Panellər üzərində yerləşən bütün əmrlər (düymələr) funksiyalarından asılı olaraq konkret adı olan qruplarla əks olunur. Bu qruplardan bəzilərinin adının sağında  düyməsi yerləşir ki, bunun üzərində mausun sol düyməsi basıldıqda bir sıra əlavə əməliyyatların aparılmasına imkan verən dialoq pəncərəsi açılır.

# §2.1. Home (Ev) paneli

**Home (Ev)** paneli üzərindəki əmrlər təqdimatların yaradılması və redaktəsinin ilkin mərhələsində istifadə olunan əmrlərdir. Odur ki, PowerPoint 2010 proqramı icra olunarkən bu proqramın pəncərəsində avtomatik olaraq susmaya görə **Home (Ev)** paneli (şəkil 1.1) aktiv olur.




**Şək. 2.2. Slayds düymələr qrupu**

**Home (Ev)** panelinin elementləri 6 müxtəlif qrupda yerləşir. Bu qruplara daxil olan elementlər (şəkil 2.1) vasitəsilə yeni təqdimatlar yaratmaq, onlar üzərində cürbəcür əməliyyatlar aparmaq və onları nümayiş etdirmək olar. Yəni **Home (Ev)** panelində slaydlar üzərində buferlə bağlı əməliyyatların icrası, şriftlər və mətnlər, avto-fiqurlar və onların stilləri, effektlər və rənglərin idarə olunması üçün nəzərdə tutulmuş əmrlər (düymələr) yerləşir. Burada həmçinin yeni slaydların yaradılması və əlavə edilməsi, slayd strukturunun seçilməsi və dəyişdirilməsi, şriftlərin və abzas parametrlərinin seçilməsi, slaydda mətn axtarışı əmrləri əks olunur.




**Şək. 2.3. Titul slaydının maketi**

**Slides (Slaydlar/ Слайды)** qrupunun elementləri (şəkil 2.2) yeni slayd yaratmağa, eləcə də təqdimata müəyyən strukturlu slayd əlavə etməyə imkan verir. Təqdimata yeni slayd daxil edərkən avtomatik olaraq ona yeni maket tətbiq olunur. Yəni slaydın daxil edilməsindən əvvəl onun maketini seçmək olar. **Slides (Slaydlar/ Слайды)** qrupunun **New slide (Yeni slayd/Создать слайд)**

düyməsi basıldıqda yeni *titul* slaydının strukturu- maketi PowerPoint 2010 proqramı pəncərəsində əks olunur (şəkil 2.3). Lakin istənilən başqa strukturlu yeni bir slayd yaratmaq üçün **New slide (Yeni slayd/ Создать слайд)** düyməsinin adı (və ya adın yanındakı ox işarəsi) üzərində mausun sol




**Şək. 2.4. Slayd maketlərinin siyahısı**

düyməsi basılır. Bu halda müxtəlif slayd strukturlarının (maketlərin) siyahısı ekrana çıxır (şəkil 2.4). Maket slayd elementlərinin tərtibatını müəyyən edir, yəni başlıqlar, alt başlıqlar, siyahılar, rəsmlər, cədvəllər, diaqramlar, video-fraqmentlər və avto-fiqurların (bunlar slayd obyektləridir) slayda yerləşdiriləcəyini bildirir. Maketdə bu obyektlərin yeri nöqtələrlə cızılmış müvafiq ölçüdə düzbucaqlı oblastlarla əks olunur. Bu siyahıda əks olunan hər bir maketin adı konkret

slaydın mahiyyətindən xəbər verir. Maket seçmək üçün onun üzərində mausun sol düyməsi basılır.

Maketlərin bəzilərində əks olunan rəngli şəkil eskizləri (cədvəl, diaqram, SmartArt obyekti, faylda saxlanılan rəsm, şəkil və ya video-fayl) müvafiq obyektlərin slayda daxil edilməsi üçündür. Belə ki, bu kiçik eskizlərlə təsvir edilən obyektlərin hər hansı birini slayda daxil etmək üçün onun üzərində mausun sol düyməsi basılır.

Ardıcıl yaradılmış bir neçə slayddan hər hansı birinin maketini-strukturunu dəyişmək olar. Bunun üçün PowerPoint pəncərəsinin solunda əks olunan eskizlər siyahısından həmin salyd seçilir, **Slides (Slaydlar/ Слайды)** qrupunun **Layout (Maket/Maket)** düyməsi basılır və açılan siyahıdan yeni maket təyin edilir. Slaydın maketini-strukturunu dəyişmək üçün həm də onun kontekst menyusundan **Layout (Maket)** əmrini seçmək olar.

Slayda yerləşdirilmiş obyektlərlə işləyərkən onların maketə uyğun yerini dəyişdirmək, sitifadəsiz qalmış düzbucaqlı oblastları ləğv etmək, düzbucaqlı oblastların ölçüsünü dəyişməklə slayda maketdə nəzərdə tutulmayan (müvafiq işarəsi olmayan) obyektlər yerləşdirmək, həmçinin slayda daxil edilmiş mətnlərin formatını (şrift ölçüsü, tipi, rəngi və s.) dəyişdirmək olar. Lakin bütün bunlardan bir andaca imtina etmək və slayd maketinin ilkin variantına qayıtmaq mümkündür. Bunun üçün **Slides (Slaydlar/ Слайды)** qrupunun **Reset (Bərpa etmək/ Восстановить)** düyməsi basılır. Bu zaman bütün ləğv edilmiş düzbucaqlı oblastlar yenidən slaydda bərpa olunur, yeri dəyişdirilmişlər isə öz əvvəlki yerini tutur. Lakin bu halda düzbucaqlı oblastlardan istifadə etmədən slayda yerləşdirilmiş obyektlər toxunulmaz qalır. Həmçinin mətnin formatlaşdırılması ilə

bağlı bütün dəyişikliklərdən imtina olunur və susmaya görə nəzərdə tutulmuş variant bərpa edilir.

**Slides (Slaydlar/Слайды)** qrupunun **Section (Bölmə/ Раздел)** düyməsi slayd bölmələrilə işləmək üçün nəzərdə tutulur. Bəzən külli miqdarda başlıqlar və slayd nömrələri olan çox böyük təqdimatlarla işləməli oluruq. Təbiidir ki, bu cür təqdimatlarda slaydlar üzrə hərəkət praktiki olaraq çətinləşir, yəni konkret halda təqdimatın hansı hissəsinin əks olunduğunu müəyyən etmək çox mürəkkəb olur. Odur ki, belə hallarda çoxsaylı slaydlar ardıcıllığını qruplara parçalayaraq bölmələr yaradır və bu bölmələri adlandırırlar. PowerPoint 2010 proqramında slaydları bölmələr üzrə nizamlamaq (qovluq daxilində faylların nizamlandığı kimi) mümkündür. Adlandırılmış bölmələr slaydlar qrupunu izləməyə imkan verir. Bundan başqa bölmələri istifadəçi öz həmkarları üçün təyin edə bilər ki, bu da təqdimat üzərində birgə iş zamanı hansı slaydlara kimin cavab verdiyinin dəqiq bilinməsi üçün vacibdir.

Bölmələrə **Slide Sorter (Slaydların nizamlayıcısı)** rejimində və **Normal (Adi)** rejimdə baxmaq olar. Lakin slaydların müəyyən məntiqi kateqoriya üzrə təşkili və nizamlanması zamanı **Slide Sorter (Slaydların nizamlayıcısı)** rejimi daha sərfəli ola bilər.

**Home (Ev)** panelinin digər elementləri demək olar ki, eynilə Word proqramında olduğu kimidir. Belə ki, bu elementlər istifadəçiyə aşağıdakı imkanları verir:

- **Home (Ev)** paneli üzərində yerləşən **Clipboard (Mübadilə buferi/ Буфер обмена)** qrupunun elementləri bufer əməliyyatlarının icrası üçündür. Yəni **Clipboard (Mübadilə buferi)** düymələr qrupunun elementləri seçilmiş slayd obyektlərini kopyalamaq, kəsmək və mübadilə

buferindən bu və ya digər slayda yerləşdirmək üçün istifadə edilir. Həmçinin slaydın istənilən mətn elementinin formatını hər hansı nümunə formatına uyğun formatlaşdırmaq olar. Bunun üçün **Clipboard (Mübadilə buferi/ Буфер обмена)** düymələr qrupunun **Format Painter (Nümunəyə uyğun format /Формат по образцу)** düyməsindən istifadə edilir. Bu əməliyyat belə icra olunur:

**I.** Mausun göstəricisi slaydın nümunə mətni üzərində saxlanılır;

**II. Format Painter (Nümunəyə uyğun format /Формат по образцу)** düyməsi üzərində mausun sol düyməsi basılır;

**III.** Mətnin zəruri hissəsi seçilir.

Yadda saxlamaq lazımdır ki, slaydın bir neçə mətn elementini (müxtəlif mətn hissələrini) nümunə formatına uyğun formatlaşdırmaq üçün **II** addımda mausun sol düyməsi ikiqat basılır və **III** addımda mətnin zəruri hissələri ardıcıl seçilir.

➢ **Font (Şrift/Шрифт) və Paragraph (Abzas/Абзац)** qruplarına daxil olan elementlərin köməyilə slayd başlıqları və abzaslar üçün zəruri şrift seçmək, şriftlərin ölçüsünü, rəngini və registrini dəyişmək, mətni düzləndirmək, ona nömrələnmiş siyahı görkəmi vermək və ya onu sütunlara ayırmaq olar və s.;

➢ **Drawing (Rəsm/Рисование)** qrupunun elementləri vasitəsilə slayda müxtəlif fiqurlar yerləşdirmək (şəkil 2.5) və onları formatlaşdırmaq olar. Bu fiqurlar qrupun **Shapes (Fiqurlar)** düyməsilə açılan siyahıdan seçilərək slayda yerləşdirilir. Bunlar təqdimatın nümayişi zamanı mühazirəçinin nitqinə bir əyanilik verir və onu daha maraqlı edir. Qrupdakı **Quick Styles (Ekspres stillər/ Экспресс-**

**стили)** düyməsinin köməyilə fiqurlar üçün canlı təsəvvür rejimində cəld şəkildə müəyyən rəngli stillər seçmək olar. Həmçinin bu qrupun **Shape Outline (Fiqurun sərhəd xətti), Shape Fill (Fiqurun rənglə doldurulması), Shape Effects (Fiqur effektləri)** düymələri müvafiq olaraq fiqurun kənar sərhəd xəttini çəkmək, fiqura müəyyən naxışlar və ya rəng vermək, zəruri kölgə və ya digər effektlər tətbiq etmək üçün nəzərdə tutulur. Qrupun **Arrange (Nizamlamaq/ Упорядочить)** düyməsi bir neçə fiquru, bir ümumi qrafiki obyekt halında birləşdirmək (qruplaşdırmaq), bir qrupdakı fiqurların bir-birinə nəzərən yerləşmə vəziyyətini dəyişmək, onları müəyyən bucaq altında döndərmək və s. əməliyyatların icrasına imkan verir.




**Şək. 2.5. Drawing (Rəsm) qrupu**

- **Editing (Redaktə)** qrupunun elementləri təqdimat daxilində zəruri slaydı tapmaq (həmin slayda aid müəyyən söz və ya söz birləşməsini daxil etməklə), həmçinin slaydın mətni üzərində müəyyən axtarış və əvəzetmə əməliyyatını icra etmək, eləcə də seçmə əməliyyatları aparmaq olar. Bu əməliyyatlar müvafiq olaraq **Find (Tapmaq), Replace (Əvəz etmək)** və **Select (Seçmək)** düymələrinin köməyilə icra olunur.

## §2.2. Insert (Yerləşdirmək) paneli

Bütün zəruri obyektlərin təqdimata yerləşdirilməsində istifadə edilən əmrlər (düymələr) **Insert (Yerləşdirmək /Вставка)** paneli (şəkil 2.6) üzərində yerləşir. Bu obyektlər təqdimatın məzmununa, başqa sözlə desək, mühazirəçinin

şifahi nitqinə əyanilik verir, həmçinin dinləyicilərdə şərh olunan mövzu ilə bağlı daha ətraflı və dolğun təsəvvür yaranmasına səbəb olur.

**Insert (Yerləşdirmək)** paneli üzərindəki elementlər yeddi qrupda əks olunur (şəkil 2.6). Bu elementlər təqdimata slaydlar, cədvəllər, təsvirlər, SmartArt qrafiki obyektləri, diaqramlar, fiqurlar, hiperəlaqələr, filmlər, səslər, başqa




**Şək. 2.6. Insert (Yerləşdirmək) paneli**

proqram faylları və obyektləri, xüsusi simvollar, audio-fayllar və video-fayllar yerləşdirmək üçün nəzərdə tutulur.

Word proqramında olduğu kimi müxtəlif üsullarla (**Table-Cədvəl** düyməsindən istifadə edərək sətir və sütunların sayını daxil etməklə, cədvəli qələmlə çəkərək, Excel proqramından istifadə etməklə) slaydlara cədvəl yerləşdirmək olar.

**Images (Təsvirlər/изображения)** qrupunun elementlərindən istifadə etməklə slayda müxtəlif təsvirlər: faylda saxlanılan şəkillər, ekranın şəkli, fotoşəkillər yerləşdirmək olar. Bunun üçün zəruri şəkil tapılaraq seçilir və açılmış pəncərənin aşağı sağ küncündə yerləşən **Insert**

düyməsi basılır. Eləcə də **Photo Album (Fotoalbom/ Фотоальбом)** düyməsindən istifadə etməklə istifadəçi öz fotoalbomunu yarada bilər. Belə ki, bu düymə ilə açılan dialoq pəncərəsindən bərk diskdə saxlanılan vacib təsvirləri seçmək və onları zəruri ardıcıllıqla yerləşdirmək, eləcə də müəyyən qeydlər əlavə etmək, həmçinin imza yerləşdirmək və digər sazlama işləri aparmaq olar.

**Illustrations (İllüstrasiyalar/Иллюстрация)** qrupu elementlərinin köməyilə təqdimata hazır fiqurlar, SmartArt fiqurları və ya diaqramlar yerləşdirmək olar.

PowerPoint 2010 proqramı cari slaydın müxtəlif obyektlərinə, təqdimat daxilindəki digər slaydlara, veb-səhifələrə, başqa proqram fayllarına keçidlər üçün əlaqələr yaratmağa, eləcə də slaydın müəyyən bir obyekti üzərində mausun sol düyməsi basıldıqda əvvəlcədən nəzərdə tutulmuş əməliyyatın icrasına keçid etməyə imkan verir. Bunun üçün **Insert (Yerləşdirmək/Вставка)** panelinin **Links (Əlaqələr/ Ссылки)** qrupundan istifadə edilir. Bu qrup iki düymədən ibarətdir: **Hyperlink (Hiperəlaqə/ Гиперссылка)** və **Action (Əməliyyat/ Действие).**

Hiperəlaqə eyni təqdimat daxilində bir slaydla digər slayd arasında və ya başqa bir təqdimatın slaydı ilə, elektron poçt ünvanı ilə, veb-səhifələrlə və ya fayllarla əlaqə yaradır. Slayda hiperəlaqə yerləşdirmək üçün cari slaydın istənilən obyekti istifadə oluna bilər. Belə ki, sonralar bu obyekt üzərində mausun sol düyməsi basıldıqda başqa bir obyektə müraciət olunacaq. Adətən hiperəlaqə yaratmaq üçün belə obyektlərdən biri - mətn fraqmenti və ya şəkil seçilir. Bundan sonra **Links (Əlaqələr)** qrupunun **Hyperlink (Hiperəlaqə)** düyməsi basılır. Nəticədə **Insert Hyperlink (Hiperəlaqə yerləşdirmək/ Вставка гиперссылки)** adlı

dialoq pəncərəsi açılır (şəkil 2.6$_1$). açılır. Bu pəncərənin solunda yerləşən Link to: (Əlaqələndir /Связать с) sütununda əks olunmuş düymələr sənədə müxtəlif hiperəlaqələr yerləşdirməyə imkan verir:




**Şək. 2.6$_1$. Insert Hyperlink dialoq pəncərəsi**

- **Existing File or Web page (Fayl və ya Veb-səhifə ilə /Файлом, веб-страницей)** -başqa proqram faylına və ya veb səhifəyə keçid üçün hiperəlaqə yaratmağa imkan verir.
- **Place in This Document (Bu sənədin müəyyən yerilə/Местом в документе) –** PowerPoint təqdimatının bir hissəsini digər hissəsilə əlaqələndirən hiperəlaqə yaratmağa imkan verir.
- **Create new Document (Yeni sənədlə/Новым документом –** yeni sənəd yaradaraq həmin sənədi əlaqələndirmək mümkün olur.
- **E-mail Address(Elektron poçtla/Электронной почтой-** elektron poçtu ilə əlaqə yaratmağa imkan verir.

Beləliklə, əlaqə yaratmaq üçün bu göstərilən variantlardan biri seçilə bilər.

Həmçinin bunlardan birincisi - **Existing File or Web page (Fayl və ya Veb-səhifə ilə /Файлом, веб-страницей)** üzərində mausun sol düyməsi basıldıqda ikinci sütunda əks olunan düymələr (şəkil $2.6_1$) hiperəlaqə yerləşdirmək üçün daha əlavə imkanlar verir. Həmin sütun elementləri vasitəsilə slayda hiperəlaqə yerləşdirmək üçün cari qovluqdan istənilən səhifəni, yeni baxılmış veb səhifələrdən birini və ya son vaxtlar baxılmış fayllardan birini seçmək olar.




**Şək. $2.6_2$. Əlaqə üçün slaydlar siyahısı**

Eləcə də **Place in This Document (Bu sənəddəki yerlə/ Местом в документе)** düyməsi basıldıqda bir slayddan digərinə keçid üçün slaydlar siyahısı üzə çıxır (şəkil $2.6_2$): First Slide (Birinci slayd/ Первый слайд), Last Slide (Sonuncu slayd/ Последний слайд), Next Slide (Növbəti slayd/Следующий слайд), Previous Slide (Əvvəlki slayd/ Предыдущий слайд) və s. Bu siyahıdan müəyyən keçid ediləcək yer seçilir və OK düyməsi basılır.

Yadda saxlamaq lazımdır ki, Word-sənədlərdən fərqli olaraq PowerPoint təqdimatında yerləşdirilmiş hiperəlaqə

üzərində mausun sol düyməsi basıldıqda heç nə baş vermir. Belə ki, PowerPoint təqdimatlarında hiperəlaqələr yalnız təqdimatın redaktə olunma (Normal- adi) və təqdimatın nümayiş (Slide Show) rejimində işləyir. Odur ki, hiperəlaqənin işləməsini aşağıdakı iki üsulla yoxlamaq olar:

**Birinci üsul.** Təqdimatın redaktə rejimində (Normal görünüş rejimi) hiperəlaqənin kontekst menyusu açılır və bu menyunun **Open Hyperlink (Hiperəlaqəni aç/Открыть гиперссылку)** əmri seçilir.

**İkinci üsul. Slide Show (Slayd nümayişi)** paneli açılır və aşağıdakı addımlar icra olunur:

- **Start Slide Show** qrupundan nümayiş rejimlərinin biri məs., **From Beginning (Başlanğıcdan /С начала)** və ya **From Current Slide (Cari slayddan/С текущего слайда)** düyməsi basılır. Nəticədə slaydların nümayişi ardıcıl göstərilir;
- Nümayiş prosesində hər hansı slayd üzərində hiperəlaqə görünən kimi onun üzərində mausun sol düyməsi basılır. Bu zaman həmin hiperəlaqənin təyin etdiyi slaydın nümayişi başlanır.

**Links (Əlaqələr)** qrupunun **Action (Əməliyyat/ Действие)** düyməsi slayd üzərində elə əlaqə yaratmağa imkan verir ki, onun üzərində mausun sol düyməsi basıldıqda və ya mausun göstəricisi bu düymə üzərinə gətirildikdə müəyyən bir əməliyyat icra olunur. Belə bir əməliyyatın əvvəlcədən nəzərdə tutulması üçün müəyyən addımlar icra olunmalıdır:

- Cari slayd üzərində müəyyən bir obyekt - mətn fraqmenti və ya şəkil seçilir.
- **Links (Əlaqələr)** qrupunun **Action (Əməliyyat/ Действие)** düyməsi basılır. Bu halda **Action Settings**

**(Əməliyyatın sazlanması/ Настройка действия)** dialoq pəncərəsi açılır (şəkil 2.7).




**Şək. 2.7. Əməliyatın sazlanma pəncərəsi**

- Sazlanan əməliyyat sonralar obyekt üzərində mausun sol düyməsi basıldıqda və ya mausun göstəricisi obyekt üzərinə gətirildikdə icra oluna bilər. Odur ki, bu dialoq pəncərəsində müvafiq olaraq **Mouse Click (Mausun düyməsi)** və ya **Mause Over (Göstərici sürüşdürülür)** əlavəsi açılır.
- Hiperəlaqə yaratmaq üçün **Hyperlink to (Hiperəlaqə ilə keç/ Перейти по гиперссылки)** rejimi seçilir və müvafiq siyahıdan əlaqə obyekti (məs, növbəti slayd, əvvəlki slayd, axırıncı slayd və ya PowerPoint proqramının başqa bir slaydı) göstərilir.

- Başqa bir proqram faylına (məs., MS Word 2010 və ya MS Excel 2010 proqramında yaradılmış fayla) keçmək üçün **Hyperlink to** sətrində açılan siyahıdan **Other file (Başqa fayl/ Другой файл)** variantı seçilir.
- Müəyyən bir proqramı icra etmək üçün **Run proqram (Proqramın icrası/ Запуск программы)** bəndi seçilir və **Browse (Xülasə/ Обзор)** düyməsilə açılan siyahıdan icra olunacaq proqram təyin edilir.
- Makros icra etmək üçün əvvəlcə **Run macro (Makrosun icrası/Запуск макроса)** bəndi və bunun ardınca zəruri makros təyin edilir. Lakin bu hal yalnız slaydda makros yaradılmış olduqda mümkündür.
- Səsləndirmə əməliyyatı üçün əvvəlcə **Play Sound (Səs/Звук)** rejimi, bunun ardınca da müvafiq siyahıdan zəruri səs seçilir.

Bu göstərilən addımlarla nəzərdə tutulan əməliyyat sazlandıqdan sonra təqdimatın nümayişi zamanı slayd obyekti (yuxarıda seçilən) üzərində mausun sol düyməsi basıldıqda və ya mausun göstəricisi həmin obyekt üzərinə gətirildikdə aşağıdakı əməliyyatlardan biri icra olunur: növbəti slayda keçid, əvvəlki slayda keçid, birinci və ya axırıncı slayda keçid, sonuncu baxılmış slayda keçid, müəyyən nömrəli slayda və ya MS PowerPoint 2010 proqramının başqa təqdimatına keçid, yaxud veb-səhifəyə keçid, həmçinin zəruri proqramın icrası, makrosun icrası, audio-klipin səsləndirilməsi.

**Text (Mətn)** qrupunun elementləri vasitəsilə slaydlara mətn qutusu, səhifə başlıqları, WordArt elementləri, tarix və vaxt, slayd nömrələri və başqa proqram obyektləri yerləşdirilə bilər.

**Media (Media)** qrupuna daxil olan **Video (Video/Видео)**

və **Audio (Audio/ Звук)** düymələrinin köməyilə slaydlara multimediya obyektləri (**Audio** və **Video** fayllar, kliplər, filmlər və s.) yerləşdirmək olar.

## §2.3. Design (Dizayn) paneli

Adətən təqdimatın ilk kadrı üçün ağ rəngli səhifə o qədər də yaxşı fon hesab edilmir. Odur ki, slaydın əsası hazır olan kimi onun xarici görünüşünə bəzək vermək, o cümlədən, fon rəsmi seçmək, yazıların görünüşünü dəyişmək, şəkilləri formatlaşdırmaq və s. əməliyyatlar icra olunur. Bu məqsədlə **Design (Dizayn)** panelinin (şəkil 2.8) elementlərindən istifadə edilir.




**Şək. 2.8. Design (Dizayn) paneli**

**Design (Dizayn)** panelinin elementləri üç müxtəlif qrupda əks olunur. Bu elementlər slaydlar üçün fon naxışlarının verilməsi, rənglər, şriftlər və xüsusi effektlərin tətbiq edilməsində, həmçinin səhifə parametrlərinin sazlanmasında istifadə olunur. **Design (Dizayn)** panelinin elementləri standart stillər yığımından istifadə etməklə təqdimata maraqlı dizayn tərtibatı verməkdə istifadəçiyə kömək edir. Təqdimatın xarici görünüşünün sazlaması üçün zəruri olan bütün elementləri bu panel üzərində tapmaq olar. Bu elementlər səhifələrin oriyentasiyasını və təqdimat temalarını seçməyə, slaydların fonunu tərtib etməyə və slayd obyektlərini nizamlamağa, həmçinin slaydın ümumi

görünüşünü, fon rəsmi və fon naxışlarını, şriftləri və rəng sxemlərini seçməyə imkan verir.

**Page Setup (Səhifə parametrləri/Параметры страницы)** qrupunun (şəkil $2.8_1$) eyni adlı düyməsinin köməyilə təqdimat çapa hazırlanarkən slaydın ölçüsü seçilir və kənar boşluqların ölçüləri sazlanır. Həmçinin **Slide Orientation (Slaydın orientasiyası / Ориентация слайда)** düyməsi vasitəsilə slaydın çap vərəqində yerləşmə vəziyyəti əvvəlcədən təyin edilir (şəkil $2.8_2$).




**Şək. $2.8_1$. Səhifə parametrləri**




**Şək. $2.8_2$. Page setup (Səhifə parametrləri) dialoq pəncərəsi**

**Themes (Temalar /Темы)** qrupu (şəkil 2.9) cari slaydda rəng həllərinin müxtəlif variantlarını istifadəçiyə təklif edir. Belə ki, mausun göstəricisini istənilən tema üzərinə gətirərək bir anlıq saxlayan kimi cari slaydın bu temaya uyğun necə göründüyünün şahidi oluruq.




**Şək. 2.9. Temalar qrupu**

**Themes (Temalar /Темы)** qrupunun elementləri vasitəsilə təqdimat üçün hazır **PowerPoint** temalarından

uyğun gələnini seçmək olar. Odur ki, bu və ya digər temanı yoxlamaq üçün mausun göstəricisi müvafiq variant (tema eskizi) üzərinə gətirilir və bu zaman slaydın xarici görünüşü canlı təsəvvür rejimində bir andaca dəyişir. Yəni yeni temanın təyin edilməsi avtomatik olaraq bütün slayd obyektlərinin - başlıqlar, cədvəllər, diaqramlar, fiqurlar və s. obyektlərin dəyişməsinə səbəb olur. Bu halda rənglər, ümumi fon, obyektlərin rəngi, mətn şrifti və s. elementlərin kombinasiyası yeni təyin edilmiş bir stillə dəstəklənir.



**Şək. 2.9$_1$. Fon qrupu**

Hazır temalar istifadəçini qane etmədikdə temanı dəyişmək və ya yeni tema yaratmaq olar. Bunun üçün **Themes (Temalar)** qrupunun ***Rənglər, Şriftlər, Effektlər*** düymələri işlədilir. PowerPoint proqramında nəzərdə tutulmuş standart temalar istifadəçinin özünün yaratmaq istədiyi yeni tema üçün əsas kimi götürülə bilər. Bunun üçün **Themes (Temalar)** qrupundan temanı seçərək mövcud rəngləri, şriftləri, effektləri, fon stillərini və s. dəyişmək və ya **Colors (Rənglər / Цвета), Fonts (Şriftlər/ Шрифты), Effects (Effektlər/ Эффекты), Background Styles (Fon stili/ Стили фона)** parametrlərinin yeni qiymətlərini vermək lazımdır. Beləliklə, **Background (Fon / Фон)** qrupunun **Background Styles (Fon stili/Стили фона)** (şəkil 2.9$_1$) düyməsilə açılan rənglərdən (şəkil 2.9$_2$) slayd üçün



**Şək. 2.9$_2$. Slayd fonu üçün rənglər**

müstəqil fon rəngi seçmək olar. **Themes (Temalar)** qrupundakı **Colors (Rənglər)** düyməsilə açılan standart




**Şək. 2.10. Fon formatı dialoq pəncərəsi**

rənglər siyahısından slayda standart fon rəngi vermək olar. Slayda fon rəsmi yerləşdirmək üçün isə **Background Styles (Fon stili/ Стили фона)** düyməsilə (şəkil $2.9_2$) açılan pəncərədən **Format Background (Fon formatı /Формат фона)** əmri seçilir. Bu halda açılan eyni adlı dialoq pəncərəsindən (şəkil 2.10) bütün zəruri elementləri tapmaq olar. O cümlədən, pəncərədə slayd fonunun doldurulma tipləri- bütöv bir rənglə, qradiyent




**Şək. $2.10_1$. Tema eskizləri siyahısı**

(rəngli kombinasiyalar), PowerPoint kitabxanasından standart naxışlar və s. təklif olunur. Slaydın fonu üçün şəkil və ya tekstura naxışları seçdikdə elə bu pəncərədən onların parlaqlığı, şəffaflığı və kontrastını dəyişmək, hətta onları yenidən rəngləmək olar. Bütün bunlardan sonra yerinə yetirilmiş sazlanmanı yeni tema kimi temalar siyahısında saxlamaq mümkündür. Bunun üçün tema eskizləri siyahısının aşağısında (şəkil $2.10_1$) yerləşən **Save Current Theme (Cari temanı saxla/ Сохранить текущую тему)** əmri seçilir.

## §2.4. Transitions (Keçidlər) paneli

Adətən təqdimatın nümayişi prosesində müəyyən saniyə ərzində bir slayd ekrandan gedir və onun yerini növbəti slayd tutur. Power Point proqramı bu halda yaranan




**Şək. 2.11. Transitions (Keçidlər) paneli**

slaydlararası fasilənin (çox kiçik olsa da) xüsusi effektlə idarə olunmasına imkan verir. Yəni bu effektlərin hesabına praktiki olaraq slaydlararası fasilə yox olur. Belə ki, slaydlar sanki informasiyanın kəsilməz olduğu təsəvvürünü yaradaraq rəvan şəkildə bir-birinin ardınca axın edirlər. Bu effektlər keçid effektləri adlanır.

Power Point proqramında müxtəlif tipli keçid effektləri var. Keçid effektlərilə işləmək üçün nəzərdə tutulan bütün elementlər lentin **Transition (Keçidlər/ Переходы)** paneli üzərində yerləşir. Bu panelin elementləri (şəkil 2.11) slaydlar

arasındakı keçidləri quraşdırmağa, səs kolleksiyasından zəruri səsi təyin etməyə, slaydların növbələşmə ardıcıllığını




**Şək. 2.12. Transition to This Slide (Bu slayda keçid)**

verməyə, hər bir slaydın nümayiş vaxtını göstərməyə imkan verir. Bu əməliyyatlar panel üzərindəki üç müxtəlif qrupda yerləşən düymələrlə icra olunur.

**Transition to This Slide (Bu slayda keçid/ Переход к этому слайду)** qrupunda (şəkil 2.12) bir-birindən fərqli xeyli sayda keçid effektləri var. Yəni nümayiş prosesində




**Şək. 2.13. Keçid effektlərinin siyahısı**

slayddan-slayda keçidlər müxtəlif hərəkət formaları ilə və ya fərqli trayektoriyalarla və s. baş verə bilər. Məsələn,əvvəlki slayd öz yerini növbəti slayda verərəkyavaş - yavaş "əriyər", kadrlar bir - birini aşağı tərəfə sürüşməklə və

ya ekranda müəyyən bir fiqur cızmaqla (kub, ellips, açılan pəncərə, saat əqrəbi və s.) əvəz edə bilər. Məsələn, əvvəlki slayd öz yerini növbəti slayda verərək yavaş - yavaş "əriyər", kadrlar bir - birini aşağı tərəfə sürüşməklə və ya ekranda müəyyən bir fiqur cızmaqla (kub, ellips, açılan pəncərə, saat əqrəbi və s.) əvəz edə bilər. Diqqət çəkən belə fərqli keçid effektlərinin tətbiq olunması təqdimatın nümayişinin daha maraqlı və cəlbedici olmasını təmin edir. Bütün mövcud olan keçid effektləri kolleksiyasının hamısına baxmaq üçün qrup elementlərinin sağında yerləşən aşağı yönələn ox  düyməsi basılır. Bu düymə basıldıqda keçid effektlərinin siyahısı (şəkil 2.13) açılır. Həmin siyahıdan seçilən keçid effekti bir qayda olaraq cari slayda tətbiq edilir. Lakin **Apply To All (Hamısına tətbiq et/Применить ко всем)** düyməsindən istifadə etməklə cari effekti bütün slaydlara tətbiq etmək olar.




**Şək. 2.14. Effekt parametrləri**

Qrupdakı **Effect Options (Effekt parametrləri/ Параметры эффектов)** düyməsi seçilmiş effektin parametrlərinə baxmaq və onları quraşdırmaq üçün nəzərdə tutulur. Belə ki, hər bir keçid effekti üçün əlavə parametrlər vermək olar. **Effect Options (Effekt parametrləri**) düyməsi basıldıqda seçilmiş effekt üçün parametrlər siyahısı açılır (şəkil 2.14). Lakin seçilmiş effektdən asılı olaraq parametrlər siyahısının məzmunu fərqli olur. Məsələn, bizim misalda açılmış siyahıdan müxtəlif istiqamətlərdə dönmə variantlarından (şkil 2.14) biri seçilə bilər.

**Timing (Slaydların nümayiş vaxtı/ Время показа слайдов)** qrupunun elementləri (şəkil 2.15) slaydların nümayiş vaxtını sazlamaq üçün istifadə edilir. O cümlədən, **Sound (Səs/Звук)** siyahısından slayda səs faylı qoşmaq olar. Belə ki, mausun göstəricisi **Sound (Səs/Звук)** sətrində açılan qiymətlərin biri üzərinə gətirilən kimi müvafiq səs eşidilir. Beləliklə, nümayiş olunan slaydda keçid effektinin səslə müşayiət olunmasını təmin etmək olar. Bunun üçün:

- Zəruri slayd seçilir.
- **Timing (Slaydların nümayiş vaxtı / Время показа слайдов)** qrupunda **Sound (Səs/Звук)** siyahısında açılan elementlərdən biri üzərində mausun sol düyməsi basılır.



**Şək. 2.15. Slaydların nümayiş vaxtı**

Bu qrupdan slaydların bir-birini əvəzləmə sürəti nizamlanır. Belə ki, **Duration (Müddət/ Длительность)** parametri keçid effektinin nə müddət davam edəcəyini sazlamaq üçündür. Bu məqsədlə əvvəlcə zəruri slayd seçilir və sonra müvafiq sətirdən nəzərdə tutulan qiymət daxil edilir və ya  və  düymələrindən istifadə edərək cari qiymət artırılır və ya azaldılır.

**Apply To All (Hamısına tətbiq et)** düyməsi basıldıqda təyin edilmiş nümayiş müddəti bütün slaydlara tətbiq edilir.

Təqdimatın nümayişi prosesində slaydların bir-birini əvəz etməsi qaydasını vermək olar. Bunun üçün iki variant var. Məsələn, **On Mouse Click (Mausun düyməsilə/По щелчку)** rejimini seçmək mümkündür. Bu halda nümayiş prosesində növbəti slayda keçid yalnız mausun düyməsi basıldıqda mümkün olur. Lakin **After (Sonra/После)** rejimi

seçildikdə və həm də zaman intervalı daxil edildikdə nümayiş zamanı slayddan slayda keçid avtomatik baş verir.

**Preview (Öncə görünüş/Просмотр)** qrupu eyni adlı bir düymədən ibarətdir. Bu düymə seçilmiş keçid effektinə baxmaq üçün istifadə edilir. Yəni cari slayd üçün təyin edilmiş keçid effektinə baxmaq üçün **Preview (Öncə görünüş)** düyməsi basılır. Bu funksiya slaydın işçi oblastında səs və keçid effekti tətbiq edilmiş slaydı nümayiş etdirməyə imkan verir.

---



***Qeyd: Slayda müəyyən keçid effekti və ya başqa bir animasiya effekti verildikdə pəncərənin solunda yerləşən eskizlər panelində slaydın nömrəsinin aşağısında hərəkət edən ulduzu xatırladan kiçik işarə - Play Animations (Animasiya effektlərini səsləndirmək/ Воспроизвести эффекты анимации) işarəsi əks olunur. Bu işarə üzərində mausun sol düyməsi basıldıqda həmin slayda tətbiq edilmiş bütün effektlərə işçi oblastda baxmaq mümkün olur.***

## §2.5. Animations (Animasiyalar) paneli

**Animations (Animasiyalar/Анимация)** paneli üzərində yerləşən elementlər (şəkil 2.16) təqdimatın daha canlı və zəngin olmasına imkan verir. Panel slaydlararası




**Şək. 2.16. Animations (Animasiyalar) paneli**

keçidlərin təşkil olunmasına xidmət edir. Belə ki, bu panel üzərində animasiya effektləri və səslərin, keçid effektləri və

zaman intervallarının əlavə edilməsi üçün nəzərdə tutulmuş elementlər var. Eyni zamanda bu elementlər animasiya effektləri və slaydlararası keçidlərin sazlanmasını təmin edir. PowerPoint proqramında təqdimatların nümayişi prosesində slaydların məzmununun ekrana çıxma formaları tamamilə fərqli variantlarda ola bilir. Bu fərqlilik PowerPoint proqramında nəzərdə tutulmuş animasiya sxemlərilə təmin edilir. Animasiya sxemləri PowerPoint proqramında quraşdırılmış qaydalar, yəni təqdimatın nümayişi zamanı slaydın məzmununun ekranda müəyyən formada görünməsini təmin edən üsullardır.

**Animations (Animasiyalar/Анимация)** paneli üzərində yerləşən elementlər dörd qrupda əks olunur: **Preview (Öncə görünüş/ Просмотр), Animation (Animasiya/Анимация), Advanced Animation (Əlavə animasiya/Расширенная анимация), Timing (Slaydların nümayiş vaxtı/ Время показа слайдов).**

**Preview (Öncə görünüş / Просмотр)** qrupu eyni adlı bir düymədən ibarətdir. Belə ki, **Preview (Öncə görünüş)** düyməsi cari slayda daxil edilmiş animasiya effektlərinə baxmaq üçün nəzərdə tutulur. Yəni bu düymə basıldıqda cari slaydın bütün animasiya effektləri yerləşmə ardıcıllığı ilə işçi oblastda nümayiş etdirilir.

**Animation (Animasiya/Анимация)** qrupunun elementləri cari slaydın seçilmiş obyekti üçün müəyyən bir animasiya effekti tətbiq etməyə imkan verir. Bunun üçün slayd obyekti seçildikdən sonra **Animation Styles (Animasiya stilləri)** düyməsi basılır və bu halda açılan animasiya effektləri siyahısınadan zəruri effekt nümunəsi (şəkil 2.17) seçilir. Məs., nümayiş zamanı slayd başlığı slayd üzərinə uçaraq düşə bilər, fotoşəkil fırlanma

hərəkətilə slayda daxil ola bilər, slaydın hər hansı bir mətn obyekti dalğavari hərəkət trayektoriyası ilə diqqət çəkə bilər və s.

**Animation (Animasiya / Анимация)** qrupunun **Effect Options (Effektlər parametri/ Параметры эффектов)** düyməsi seçilmiş effektlərin parametrlərinə baxmaq və onları quraşdırmaq üçün istifadə edilir. Bunun üçün cari slaydda animasiya effekti tətbiq edilmiş obyekt seçilir və **Effect Options (Effektlər parametri)** düyməsi basılır. Bu halda açılan siyahıdan (şəkil 2.17) effekt üçün müvafiq variant seçilir. Animasiya effektlərinə tez baxmaq üçün mausun göstəricisini onların adı üzərinə gətirmək kifayətdir.

...aq üçün hə




**Şək.2.17. Animasiya effektlərinin siyahısı**

**Расширенная анимация)** qrupunun **Add Animation (Animasiya əlavə etmək / Добавить анимацию)** düyməsindən istifadə etmək olar (şəkil 2.18). Açılan siyahıda animasiya effektləri ekranda görünmə tiplərinə görə dörd qrupda əks olunur (fəsil 4- ə bax):




**Şək. 2.18. Əlavə animasiyalar qrupu**

- **Entrance (Giriş/Вход)** effektləri. Bu effektlər tətbiq edilmiş obyektlər nümayiş zamanı ekranda yavaş-yavaş üzə çıxa bilər, slayd üzərinə "uça" bilər və ya qəfildən görünə bilər.
- **Exit (Çıxış / Выход)** effektləri. Bu effektlərin tətbiq olunduğu obyektlər nümayiş prosesində slayddan "uça" bilər, bir anlığa gözdən itə bilər və ya spiralvari hərəkətlə slayd hüdudlarında yerini dəyişə bilər.
- **Emphasis (Ayrılma / Выделение)** effektləri. Bu effektlər tətbiq olunduqda obyektin ölçüsü azala və ya arta bilir, rəngi dəyişir və ya obyekt öz mərkəzi ətrafında fırlanır.
- **Motion Paths (Yerdəyişmə yolu/ Пути перемещения)** effektləri. Bu effektlər obyektin yerini aşağı, yuxarı, sola, sağa və ya ulduzvari, yaxud dairəvi trayektoriya üzrə dəyişərkən tətbiq edilir.

Bu baxılan qruplardan zəruri olan animasiya effekti tapılmadıqda onların hər hansı birinə aid əlavə effektlər siyahısı açmaq olar. Məsələn, giriş effektləri tipinə aid əlavə siyahı açmaq üçün effektlər siyahısının aşağısında əks olunmuş **More Entrance Effects (Əlavə giriş effektləri/ Дополнительные эффекты входа)** əmri seçilir. Bu halda giriş effektlərinin əlavə siyahısı əks olunmuş dialoq pəncərəsi (şəkil 2.19) açılır. Buradan başqa effekt seçmək olar.

Slaydın hər bir obyekti üçün bir neçə effekt tətbiq edilə bilər. Bu halda obyektin sol sərhədinin kənarında həmin effektin nümayiş ardıcıllığındakı sıra nömrəsini bildirən ədəd işarəsi görünür. Məs,.  işarəsi göstərir ki, cari slayd üzərindəki həmin Effekt əvvəlkindən (birincidən) sonra (ikinci) nümayiş olunacaq.

İstənilən animasiya effektini tək və ya başqa bir effektlə birgə tətbiq etmək olar. Məsələn, giriş effektlərindən “uçuş” və ayrılma effektlərindən “ölçünün dəyişməsi”ni qruplaşdırmaqla elə etmək olar ki, slayd mətninin müəyyən bir sətri ekranda sol tərəfdən üzə çıxaraq, həm də ölçüsü böyüməklə görünməyə başlasın.




**Şək. 2.19. Giriş effektlərinin dəyişdirilməsi**

**Advanced Animation (Əlavə animasiyalar/ Расширенная анимация)** qrupunun **Animation Pane (Animasiya paneli/ Область анимации)** düyməsi PowerPoint pəncərəsinin sağında animasiya panelini əks etdirir (şəkil 2.20) və ya onu oradan yığışdırır.

Animasiya paneli çoxlu sayda effektlərlə işləyərkən əhəmiyyətlidir. Belə ki, animasiya paneli animasiya

effektlərinin tiplərinə, bir neçə animasiya effektlərinin bir-birinə nəzərən nümayiş olunma ardıcıllığına, animasiya effektinin tətbiq olunduğu obyektin adına və effektin nümayiş müddətinə baxmağa imkan verir.



**Şək. 2.20. Animasiya paneli**

Animasiya panelinin yuxarısındakı **Play (Səsləndirmək/ Просмотр)** düyməsi hər bir animasiya effektinin düzgün işləməsinə əmin olmağa imkan verir. Yəni bu düymə basıldıqda cari slayda daxil edilmiş bütün animasiya effektləri ardıcıl olaraq nümayiş olunur.

Animasiya panelinin aşağısında iki əks istiqamətli vertikal oxların (🡅 və 🡇) əks olunduğu düymələr slayda daxil edilmiş animasiya effektlərinin ardıcıllığını dəyişmək üçün istifadə edilir.

Animasiya panelində əks olunan siyahının hər hansı elementi seçildikdə şaquli ox -▼ işarəsilə əks olunan düymə üzə çıxır (şəkil 2.20). Bu ox üzərində mausun sol düyməsi basıldıqda xüsusi menyu açılır (şəkil 2.21). Bu menyu vasitəsilə animasiyanın nümayişə başlanmasını sazlamaq olar:

**- Start On Click (Mausun düyməsilə/Запускат щечком)-** animasiya effekti slaydda mausun sol düyməsilə işə salınır.

**- Start With Previous (Əvvəlkilə birgə işə salmaq/**

**Запускать вместе с предыдущим)**- animasiya effekti əvvəlki effektlə birgə işə düşür. Bu parametr bir neçə effektin nümayişini birləşdirir.

- **Start After Previous (Əvvəlkindən sonra işə salmaq/Запускать после предыдущего)** – animasiya effekti siyahı üzrə əvvəlki effektin nümayişi sona çatdıqdan bilavasitə sonra işə düşür.



**Şək. 2.21. Animasiyanın sazlanma menyusu**

Menyunun (şəkil 2.21) **Effect Options (Effekt parametrləri /Параметры эффектов)** və **Timing (Vaxt/Время)** əmrləri səs, vaxtın ləngidilməsi, mətnin hərflərlə animasiyası və s. kimi bəzi əlavə parametrləri sazlamaq üçün istifadə olunan dialoq pəncərəsini açır (bax: fəsil 4).

**PowerPoint** proqramında müxtəlif animasiya effektləri yaratmaq olar. Bu məqsədlə istifadə edilən vasitələrdən biri ***trigger*** adlanır. Trigger slayd üzərində seçilmiş obyektə icra olunma şərti və ya vaxt təyin etməyə imkan verən animasiya vasitəsidir. Trigger ingilis dilindən tərcümədə tətik, çaxmaq – tüfəngin tətiyi (rus dilində-спусковой крючок) mənasını verir. Trigger vasitəsilə istənilən obyekti icra olunmaq üçün hazırlamaq olar. Belə ki, bu halda icra olunan əməliyyatlar ardıcıllığını istək və situasiyadan asılı olaraq seçmək olur. Bu zaman obyekt üzərində mausun sol düyməsi basıldıqda animasiya işə düşür və əvvəlcədən nəzərdə tutulmuş əməliyyat yerinə yetirilir. Slaydlarda triggerlərin olması təqdimatın interaktivliyini daha da artırır.

Beləliklə, **Advanced Animation (Əlavə animasiyalar /Расширенная анимация)** qrupunun **Trigger (Trigger)**

düyməsi animasiyanın işə salınması üçün xüsusi şərt quraşdırarkən istifadə edilir.

**Advanced Animation (Əlavə animasiyalar)** qrupunun **Animation Painter (Animasiyanı kopyalamaq/ Анимация по образцу**) düyməsi animasiyanı bir obyektdən digərinə kopyalamaq üçün istifadə edilir. Yəni MS 2010 Word proqramında mətnin müəyyən hissəsinin formatının başqa bir hissəyə kopyalanması əməliyyatına analoji olaraq MS PowerPoint 2010 proqramı da animasiya effektlərinin bir obyektdən digərinə kopyalanmasına imkan verir. Odur ki, slaydın bir neçə obyektinin eyni animasiya effektinə malik olması üçün eyni əməliyyatları müxtəlif obyektlər üçün təkrarlamağa ehtiyac yoxdur. Belə ki, müəyyən bir obyektin animasiya effektini bir və ya bir neçə obyektlərə kopyalamaq üçün aşağıdakı addımları icra etmək olar:

- Nümunəvi animasiya effekti olan obyekt seçilir.
- **Advanced Animation (Əlavə animasiyalar)** qrupunun **Animation Painter (Animasiyanı kopyalamaq/Анимация по образцу**) düyməsi basılır. Burada iki hal nəzərədə tutulur. Belə ki, seçilmiş obyektin animasiya effektinin ardıcıl olaraq bir neçə müxtəlif obyektə kopyalanması üçün bu düymə ikiqat, tək bir obyektə kopyalanması üçün isə yalnız bir dəfə basılır.
- Nəzərdə tutulan obyekt (və ya obyektlər ardıcıl) seçilir. **Animation (Animasiyalar)** paneli üzərindəki **Timing (Slaydların nümayiş vaxtı/ Время показа слайдов)** qrupunun (şəkil 2.22) elementləri slayda daxil edilmiş animasiyanın nümayiş müddətinə uyğun zaman intervalı və slaydın nümayiş vaxtının parametrləri, eləcə də animasiyalar ardıcıllığının seçim parametrlərini

quraşdırmağa imkan verir.

Qrupun **Start (Başla/Начало)** sətrində açılan əmrlər siyahısından animasiyalara keçid qaydalarını seçmək olar. Belə ki, animasiyalı slaydlar mausun sol düyməsilə, əvvəlki animasiya ilə və ya ondan sonrakı ilə eyni vaxtda nümayiş etdirilə bilər. Odur ki, bunun üçün zəruri parametrlərdən biri seçilir (şəkil 2.23). Slayda daxil edilmiş animasiya effektinin nümayiş müddətini (nümayişin nə müddət davam edəcəyini) sazlamaq (artırmaq və ya azaltmaq) olar. Bunun üçün **Duration (Müddət/ Длительность)** sətrindən saniyələrlə verilən qiymət daxil edilir. Eyni zamanda **Delay (Ləngimə / Задержка)** sətrindən animasiya effektinin nə nə qədər vaxtdan sonra işə düşəcəyini bildirən vaxt daxil edilir.




**Şək. 2.22. Slaydların nümayiş vaxtı**

**Timing (Slaydların nümayiş vaxtı/ Время показа слайдов)** qrupunun **Move Earlier (Geriyə keçirt/ Переместить назад)** və **Move Later (İrəliyə keçirt /Переместить вперед)** əmrləri slaydlara daxil edilmiş animasiya effektlərinin nümayiş ardıcıllığını müvafiq olaraq geriyə və irəliyə dəyişir. Belə ki, animasiya effektləri ardıcıllığını dəyişmək üçün əvvəlcə slaydların işçi oblastında animasiyanın nömrə işarəsi, sonra isə **Move Earlier (Geriyə keçirt),** yaxud **Move Later (İrəliyə keçirt)** əmri seçilir.




**Şək. 2.23. Nümayiş parametrləri**

# §2.6. Slide Show (Slayd nümayişi) paneli

**Slide Show (Slayd nümayişi)** paneli slaydların nümayişinin təşkili üçün nəzərdə tutulur. Yəni bu panelin elementləri (şəkil 2.24) hazır təqdimatların bütöv ekran




**Şək. 2.24. Slide Show (Slaydların nümayişi) paneli**

rejimində nümayiş etdirilməsi və nümayiş üçün zəruri sazlanma işlərinin aparılmasını təmin edir. Bu panel nümayişə başlamaq üçün müəyyən bir slaydın seçilməsinə, nümayişin səslə müşayiət olunması üçün istifadəçinin şifahi nitqinin yazılmasına və s. hazırlıq işlərinin icrasına imkan verir. Odur ki, bu panel üzərində təqdimatın nümayişdən əvvəl yoxlanış və nümayiş üçün sazlanma əmrləri (düymələr) yerləşir. Burada həmçinin səsin yazılması, iki monitordan istifadə məqsədilə sazlanma və təsvirlərin ekranda əks olunma imkanlarının (ekranın əksetdirmə qabiliyyətinin) sazlanması (dəyişdirilməsi) və s. əməliyyatlar üçün düymələr nəzərdə tutulur.

**Slide Show (Slayd nümayişi)** panelinin elementləri üç müxtəlif qrupda əks olunur: **Start Slide Show (Slayd nümayişinə başlamaq/ Начать показ слайдов), Set Up**

**(Sazlanama/Настройка), Monitors (Monitorlar/ Мониторы).**

Təqdimat hazır olduqdan sonra onun nümayişinə başlamaq olar.

**Slide Show (Slayd nümayişi)** panelinin **Start Slide Show (Slayd nümayişinə başlamaq/ Начать показ слайдов)** düymələr qrupu təqdimatın nümayiş etdirilməsi üçün nəzərdə tutulur (şəkil 2.25). Bununla yanaşı hazır təqdimatı aşağıdakı üsullardan birini seçməklə nümayiş etdirmək olar:

- Klaviaturanın **F5** düyməsi basılır.
- MS PowerPoint 2010 pəncərəsinin vəziyyət sətrindən **Slide Show (Slayd nümayişi/Показ слайдов)** düyməsi  basılır.
- **Start Slide Show (Slayd nümayişinə başlamaq)** qrupundan slaydın nümayiş olunma variantlarından birinə uyğun düymə (şəkil 2.25) seçilir.

Qrupun **From Beginning (Başdan/ С начала)** düyməsi təqdimatın bütünlüklə nümayiş olunması üçün istifadə edilir. Yəni həmin düymə basıldıqda təqdimat birinci slayddan - titul slaydından başlayaraq ardıcıl nümayiş etdirilir. Bununla da təqdimata daxil edilmiş bütün materiala baxaraq onu yoxlamaq, təqdimat haqqında ümumi təsəvvür yaratmaq, səhvləri və qüsurlu tərtibatları aşkar etmək, slaydların düzgün ardıcıllıqla yerləşməsini, eləcə də onların bir-birini məntiqi ardıcıllıqla izləməsini görmək və s. mümkün olur.




**Şək. 2.25. Slayd nümayişinə başlamaq**

Təqdimatın nümayişinə həm də müəyyən seçilmiş slayddan, yəni işçi oblastda açılmış cari slayddan başlamaq olar. Bunun üçün zəruri slayd seçilir və baxılan qrupun **From Current Slide (Cari slayddan/С текущего слайда)** düyməsi basılır. Bu halda təqdimatın bütün slaydları cari slayddan başlayaraq ardıcıl olaraq nümayiş etdirilir.

MS PowerPoint 2010 təqdimatını internet üzərindən uzaq auditoriyalara geniş yayımlı rejimdə (radioverilişi rejimində) nümayiş etdirmək-göstərmək olur. Belə ki, MS PowerPoint 2010 proqramı bu rejimdə insanların harada olmalarına baxmayaraq internet üzərindən təqdimatları onların hər birinə göstərməyə imkan verir. Bu halda mühazirəçinin hazırladığı təqdimata bütün nümayiş müddəti ərzində tamaşaçılar öz veb-brauzerlərində baxırlar. Odur ki, baxılan qrupun **Broadcast Slide Show (Slaydların geniş yayımlı rejimində nümayişi/ Широковещательный показ слайдов)** düyməsi uzaq məkanlarda olan və təqdimatın nümayişində veb-brauzerdən istifadə edən tamaşaçılara slaydların göstərilməsini təşkil etmək – sazlamaq üçün istifadə edilir.

Baxılan qrupun (şəkil 2.25) **Custom Slide Show (İxtiyari nümayiş/ Произвольный показ)** düyməsinin köməyilə slaydların ixtiyari nümayişini yaratmaq və eləcə də onları ixtiyari qaydada nümayiş etdirmək olur. Belə nümayişdə təqdimatın yalnız bəzi seçilmiş slaydları əks olunur. Bu isə bir təqdimat daxilində bir neçə müxtəlif nümayiş variantları seçməyə imkan verir.

Eyni bir təqdimatı ixtiyari nümayişlər yaratmaqla müxtəlif auditoriyalara uyğunlaşdırmaq olar. İxtiyari nümayiş dedikdə ümumi nümayişdən asılı olmadan təqdimatdakı nümayiş etdirilə bilən müəyyən slaydlar qrupu

və ya təqdimat daxilindəki hiperəlaqələr yaradılmış slaydlar qrupu nəzərdə tutulur. Odur ki, ixtiyari nümayişin göstərilməsi bütün təqdimatın əks olunmasına yox, yalnız ixtiyari nümayiş slaydlarının əks olunmasına xidmət edir.

**Set Up (Sazlanma/Настройка)** qrupunun (şəkil 2.26) elementləri slaydların nümayiş parametrlərinin sazlanması üçün istifadə edilir.




**Şək. 2.26. SetUp (Sazlanma) qrupu**

MS PowerPoint təqdimatları üzərində işin mühüm bir hissəsini slaydların nümayişinin sazlanması əməliyyatı təşkil edir. Təcrübə göstərir ki, düzgün və dəqiq sazlanmış təqdimatlar nümayiş zamanı daha səliqəli və dəqiq görünür.

**Set Up (Sazlanma/Настройка)** qrupunda slaydların nümayişinin sazlanması üçün bütün zəruri elementləri tapmaq olar. Bu qrupun **Set Up Slide Show (Nümayişin sazlanması/ Настройка демонстрации**) düyməsi basıldıqda **Set Up Show (Təqdimatın sazlanması/ Настройка презентации)** adlı dialoq pəncərəsi (şəkil 2.27) açılır. Bu pəncərə elementləri təqdimatın bütün əsas sazlanma parametrlərini quraşdırmağa, məs., nümayiş etdiriləcək slaydların görünüş (əks olunma) tipini və slaydların bir-birilə əvəz olunma qaydasını göstərməyə, lazer göstəricisinin rəngini seçməyə və s. imkan verir. Məsələn, dialoq pəncərəsindən istifadə edərək təqdimatın nümayişində slaydların birindən digərinə keçidlərin necə baş verdiyini seçmək olar. Yəni slaydlar nümayiş etdirilərkən onların

birindən digərinə keçidlər mühaziirəçi və ya istifadəçi tərəfindən idarə oluna bilər ya da bu proses avtomatik rejimdə baş verə bilər. Bunun üçün dialoq pəncərəsində əks olunan **Show type (Görünüş tipləri/Показ слайдов)** qrupunun elementlərindən biri seçilir:

➢ **Presented by a speaker (Mühazirəçi idarə edir/ Управляемый докладчиком)** - tam ekran rejimində




**Şək. 2.27. Təqdimatın Sazlanması**

görünüş, slaydlararası keçidlər əl ilə, maus və ya klaviaturadan istifadə etməklə baş verir.

➢ **Browsed by an individual (İstifadəçi idarə edir/ Управляемый пользователем)** – PowerPoint proqramının pəncərəsində görünüş, slaydlararası keçidlər əl ilə, eləcə də maus və ya klaviaturadan istifadə etməklə baş verir.

➢ **Browsed at a kiosk (Avtomatik olaraq/ Автоматический) –** tam ekran görünüşü, slaydlararası keçidlər əvvəlcədən sazlanmış zaman intervallarında avtomatik olaraq baş verir.

Dialoq pəncərəsindəki **Show options (Nümayiş parametrləri/ Параметры показа)** qrupunun elementləri təqdimatın nümayiş parametrlərini quraşdırmağa imkan verir. Belə ki, bu parametrlər vasitəsilə təqdimatı dövrü olaraq (kəsilməz) nümayiş etdirmək, həmçinin nümayişin səslə müşayiətindən və animasiya effektlərindən imtina etmək olar:

➢ **Loop continu-ously until “Esc”( “Esc” düyməsi basılana qədər dövr etmək/Непрерывный цикл до нажатия клавиши “Esc”)** – təqdimatın nümayişi Esc düyməsi basılana qədər dövrü olaraq davam edir.

➢ **Show without narration (Şifahi nitqlə müşayiətsiz /Без речевого сопровождения) –** təqdimatın bütün səs effektlərindən imtina edilir.

➢ **Show without animation (Animasiyasız/Без анимации) –** təqdimatın bütün animasiya effektlərindən imtina edilir.

Bu parametrlərin aşağısında yerləşən **Pen color (Qələmin rəngi /Цвет пера)** və **Laser pointer color (Lazer göstəricisinin rəngi/ Цвет лазерной указки)** parametrləri müvafiq olaraq qələmin və lazer göstəricisinin rəngini təyin etməyə imkan verir.

Dialoq pəncərəsində əks olunan **Show slides (Slaydlar/Слайды)** qrupunun elementləri təqdimatın hansı slaydlarının nümayiş etdiriləcəyi və hansılarının nümayiş etdirilməyəcəyini təyin etməyə imkan verir. Daha doğrusu bu dialoq pəncərəsində sazlanan bütün parametrlərin tətbiq

olunacağı slaydların nömrələri təyin edilir.

Həmçinin slaydların nümayişi prosesində onların bir-birilə əvəz olunma qaydasını seçmək olar. Bu məqsədlə dialoq pəncərəsidə **Advance slides (Slaydların bir-birini əvəz etməsi/Смена слайдов)** qrupunun elementlərindən yalnız biri seçilə bilər: **Manually (Əl ilə/Вручную)** və ya **Using timings, if present (Vaxta görə/По времени).** Birinci halda slaydlararası keçidlər maus və ya klaviatura vasitəsilə, ikincidə isə əvvəlcədən quraşdırılmış zaman intervallarına uyğun olaraq avtomatik şəkildə baş verir.

**Set Up (Sazlanma/Настройка)** qrupunun **Hide Slide (Slaydı gizlətmək/ Скрыть слайд)** düyməsi təqdimatın seçilmiş slaydını gizlədir. Yəni bu düymə mühüm slaydları təqdimatın strukturunda saxlamaqla, onları nümayiş olunan slaydlar siyahısına daxil etmir. Yəni bu slaydlar sadəcə olaraq nümayişdən kənarlaşdırılır.

**Set Up (Sazlanma / Настройка)** qrupunun **Rehearse Timings (Vaxtın sazlanması / Настройка времени)** düyməsi bütün təqdimatın və ya təqdimatın hər bir slaydının nümayişinə sərf olunan vaxtı əvvəlcədən dəqiq təyin etməyə imkan verir. Belə ki, bu düymə kifayət qədər sadə və eləcə də böyük həcmli informasiya ilə yüklənmiş slaydları fərqləndirməklə onların nümayişinə müvafiq vaxt verməyə, eləcə də hər bir slaydın nümayişi üçün vacib olan əlavə izahlara (nümayiş mühazirəçi tərəfindən şərh olunursa) vaxt təyin etməyə kömək edir. Təqdimatın və ya onun bütün slaydlarının nümayişinə sərf olunan vaxt haqqında məlumat yazılır. Bu məlumatdan sonralar təqdimatın avtomatik rejimdə nümayişi zamanı istifadə etmək olar. **Rehearse Timings (Vaxtın sazlanması)** düyməsindən istifadə etməklə təqdimatın yoxlama nümayişi zamanı müəllif öz çıxışını

gələcək üçün daha qədiqliklə planlaşdıra bilər.

**Set Up (Sazlanma/Настройка)** qrupunun **Record Slide Show (Slayd nümayişinin yazılması/Запись показа слайдов)** düyməsi təqdimatın nümayişi zamanı nitqlə müşayiəti, lazer göstəricisinin hərəkətini, slaydın nümayiş vaxtını və ya animasiyanı yazmağa imkan verir. Adətən mühazirəçinin nitqindən istifadə edildikdə təqdimatın məzmunu daha cəlbedici olur. Səslə müşayiətin lazer göstəricisinin yerdəyişmələrilə uyğunlaşdırılması və yazılması təqdimatların video versiyalarını daha da canlandırır.

Nitqlə müşayiəti təqdimatın nümayişindən əvvəl və ya bilavasitə nümayiş zamanı yazmaq olar. İkinci halda yazıya şərhləri və tamaşaçıların suallarını da əlavə etmək olar.

Aşağıdakı qayda ilə səslə - nitqlə müşayiəti yazmaq və lazer göstəricisilə uyğunlaşdırmaq olar:

- **Set Up (Sazlanma/Настройка)** qrupunun **Record Slide Show (Slayd nümayişinin yazılması/Запись показа слайдов)** düyməsi basılır. Bu halda müvafiq dialoq pəncərəsi açılır (şəkil 2.28).




**Şək. 2.28. Slayd nümayişinin yazılması**

- Bu pəncərədə **Narrations and lazer pointer (Səslə müşayiət və lazer göstəricisi /Речевое сопровождение и лазерная указка)** rejimi seçilir.
- **Start Recording (Yazmağa başla/Начать запись)** düyməsi basılır.

**Set Up (Sazlanma/Настройка)** düymələr qrupunda həm də nümayiş prosesilə bağlı üç rejim var:

**1. Play Narration (Nitqlə müşayiət səslənsin - Воспроизвести речевое сопровождение)** rejimi seçildikdə təqdimatın nümayişində slaydların görünüşü nitqlə müşayiət olunur.

**2. Use Timings (Nümayiş vaxtı/Использовать время показа слайдов)** rejimi seçildikdə nümayiş zamanı slaydlar göstərilən müddətdən sonra bir-birini avtomatik əvəz edir. Təqdimatın nümayişində slaydların avtomatik əvəzlənməsindən imtina etmək üçün bu rejim seçilmir.

**3. Show Media Controls (Səsləndiricinin idarəetmə elementlərinin görünüşü/Показ элементы управления проигрователем)** rejimi seçildikdə slaydın nümayişi zamanı mausun göstəricisi audio və ya video - kliplərin üzərinə gətirilərkən müvafiq idarəetmə elementləri ekranda görünür. Belə ki artıq PowerPoint 2010 proqramı slaydların nümayişi rejimində audio və video görüntülər ekranda əks olunarkən onların idarə olunmasına imkan verir. Məsələn, müvafiq idarəetmə elementlərindən istifadə etməklə videonu səsləndirmək, fasilə, əvvələ qayıtmaq, səsi artırıb azaltmaq olur. Odur ki, təqdimat nümayişində video görüntülər əks olunarkən videonun idarəetmə elementləri müvafiq pəncərədə görünmürsə, **Show Media Controls (Səsləndiricinin idarəetmə elementlərinin görünüşü/ Показ элементы управления проигрователем)** rejimi seçilir.




**Şək. 2.29. Monitorlar qrupu**

**Monitors (Monitorlar / Мониторы)** qrupunun (şəkil 2.29) elementləri displey ekranının əksetdirmə qabiliyyətini dəyişmək və həmçinin təqdimatın nümayişində bir neçə

monitordan istifadə etmək üçün nəzərdə tutulur.

Təcrübə göstərir ki, nümayiş prosesində təsvirlərin yüksək keyfiyyətlə əks olunmasının təmin edilməsi üçün təqdim olunan salydların ölçüsü displey ekranının əksetdirmə qabiliyyətinə uyğun olmalıdır. Odur ki, **Monitors (Monitorlar/ Мониторы)** qrupunun **Resolution (Ekran həlli/ Разрешение)** siyahısından (şəkil 2.30) zəruri variant seçərək displey ekranının əksetdirmə qabiliyyətini dəyişmək və bununla da təqdimatın nümayişində slaydların daha mükəmməl şəkildə göstərilməsini təmin etmək olar.

Ekranda əks oluna biləcək verilənlərin həcmi proyektorun (displeyin) əksetdirmə qabiliyyətilə müəyyən edilir. Əksetdirmə qabiliyyəti təsvirlər əks olunarkən proyektorun istifadə etdiyi piksellərin (nöqtələrin) sayını göstərir. Deməli, proyektor nə qədər çox piksellər istifadə edirsə, onun əksetdirmə qabiliyyəti də bir o qədər yüksək olur. Bu isə bir qayda olaraq iki ədədlə müəyyən edilir, məsələn, 1024x768 yazılışında birinci ədəd ekranın horizontalları üzrə, ikinci ədəd isə vertikalları üzrə piksellərin sayını göstərir (şəkil 2.30). Odur ki, nümayiş zamanı slaydların yüksək keyfiyyətli görünüşünün təmin olunması üçün onun ölçüsü displey ekranının əksetdirmə qabiliyyətinə uyğun olmalıdır. Əksər proyektorlar 800 x 600 pikselə uyğun slaydlarla daha yaxşı işləyir. Yeni proyektorlar




**Şək. 2.30. Monitorlar qrupu**

isə 1024 x 768 piksel və onlardan daha yüksək ekran həllinə uyğun slaydları əks etdirə bilir.

**Monitors (Monitorlar/ Мониторы)** qrupuna daxil olan **Use Presenter View (Mühazirəçi rejimi/ Режим докладчика)** təqdimatın nümayişində slaydların əsas görünüş rejimidir. Bu rejim bir neçə monitordan istifadə etməyə imkan verir. Yəni təqdimatın nümayişi zamanı **Use Presenter View (Mühazirəçi rejimi/ Режим докладчика)** rejimində iki monitordan istifadə etmək olur. Belə ki, bu halda mühazirəçinin qeydləri onun kompüterində əks olunur və bu zaman auditoriya təqdimatın nümayişinə baxarkən həmin qeydləri görmür. Yəni iki monitordan istifadə etməklə istifadəçi bu rejimdə başqa proqramlar icra edə bilər, həmçinin öz qeydlərinə baxa bilər ki, bütün bunlar auditoriyaya təqdim olunmur.

**Monitors (Monitorlar/ Мониторы)** qrupunun **Show on (Nümayiş etdir/Показать на)** əmri (şəkil 2.29) slaydın geniş ekran rejimində nümayiş etdirilməsi üçün monitor seçərkən istifadə edilir. Adətən mühazirəçilər slaydların nümayişində eyni vaxtda noutbuk və proyektordan istifadə edirlər. Yəni istifadəçinin əlavə monitoru varsa, təqdimatı nümayiş etdirmək üçün onu seçə bilər. Əgər təqdimatın istifadəçi monitorunda olduğu kimi həm də proyektorda baş tutması vacibdirsə, o halda **Set Up Show (Təqdimatın sazlanması/ Настройка презентации)** dialoq pəncərəsində (şəkil 2.27) **Show Presenter View (Təqdimatı göstər/ Показать представление докладчика)** rejimi seçilir. Lakin kompüterdə yalnız bir monitor istifadə edilirsə və ya xarici monitora qoşulma olmadan yalnız noutbukdan istifadə edilirsə bu əmr aktiv olmur.

## §2.7. Review (Resenziya) paneli

Microsoft PowerPoint 2010 proqramı universal bir proqramdır. Belə ki, bilavasitə bu proqramın özünə aid olan əsas funksiyaları (çox tez və asanlıqla, keyfiyyətli və gözəl təqdimatlarn yaradılmasını təmin edən interfeys elementləri) yanaşı proqramda təqdimatlarla iş zamanı istifadəçiyə yardımçı ola biləcək xeyli sayda çox vacib əlavə funksiyalar var. Məsələn, PowerPoint proqramı avtomatik olaraq düzgün yazılışları yoxlayır. Proqram bir andaca mətni 22 müxtəlif dildən birinə tərcümə etməyə imkan verir. Həmçinin proqramda sənədlərin müqayisəsi və eləcə də bir neçə sənədlə eyni vaxtda işləyə bilmək imkanı var.

**Review (Resenziya/Рецензирование)** paneli üzərində təqdimatların hazırlanması, redaktəsi və nümayişilə bağlı cürbəcür əməliyyatların yerinə yetirilməsi üçün nəzərdə tutulmuş xeyli sayda idarəetmə elementləri (düymələr - əmrlər) yerləşir (şəkil 2.31). Bunlar **Review (Resenziya/Рецензирование)** paneli üzərində dörd müxtəlif qrupda (şəkil 2.31) əks olunur: **Proofing (Düzgün yazılış/ Правописание), Language (Dil/ Язык), Comments (Şərhlər / Примечания), Compare (Tutuşdurmaq /Сравнить).** Bu elementlər, onların adları, işarələri, funksiyaları və istifadə qaydaları Word proqramında olduğu kimidir. Bu elementlərə qısaca nəzər yetirək.

**Düzgün yazılışın yoxlanması. Proofing (Düzgün yazılış)** qrupunun **Spelling (Orfoqrafiya/ Орфография)** düyməsi slayda daxil edilmiş mətnin düzgün yazılışını avtomatik yoxlamaq üçün istifadə edilir. Bu düymə basıldıqda **Spelling (Orfoqrafiya / Орфография)** dialoq

pəncərəsi açılır (şəkil 2.32). Bu pəncərənin yuxarı sətrində proqramın aşkar etdiyi səhv söz, həmin sətrin aşağısında **Suggestions (Variantlar / Варианты)** sahəsində isə onun




**Şək. 2.31. Review (Resenziya) paneli**

mümkün düzgün variantları əks olunur. Elə bu pəncərədən səhvi düzəltmək olar. Bunun üçün düzgün variantlardan biri seçilir və **Chance (Əvəz etmək/ Заменить)** düyməsi basılır. Həmçinin sözün təklif olunmuş düzgün variantlarından biri seçildikdən sonra pəncərənin sağındakı müvafiq düymələr vasitəsilə digər zəruri əməliyyatlar (səhvi bütün sənəddə düzəltmək, səhvi ötürmək və ya bütün sənəddə ötürmək,




**Şək. 2.32. Spelling (Orfoqrafiya) dialoq pəncərəsi**

lüğətə əlavə etmək və s.) icra oluna bilər.

Bir qayda olaraq düzgün yazılışın avtomatik yoxlanma rejimi aktiv olur. Bu rejimdə mətn daxil edildikcə yoxlama prosesi avtomatik olaraq yerinə yetirilir və aşkar olunan orfoqrafik səhvlər isə qırmızı dalğalı xətlərlə qeyd olunur.

Düzgün yazılışın avtomatik yoxlanma rejimi işləmirsə (rejim aktiv deyilsə) onu aşağıdakı qayda ilə işə salmaq olar:

- **File** menyusu açılır və **Options (Parametrlər/ Параметры)** əmri seçilir.
- **PowerPoint Options (PowerPoint parametrləri/ Параметры PowerPoint)** dialoq pəncərəsində **Proofing (Düzgün yazılış)** əmri seçilir.
- Açılan parametrlər siyahısında **Check spelling as you type (Orfoqrafiyanın avtomatik yoxlanması/ Автоматически проверять орфографию)** rejimi seçilir və OK düyməsi basılır. Nəticədə düzgün yazılışın avtomatik yoxlanması rejimi qoşulmuş olur.

Qırmızı dalğalı xətlə qeyd olunan səhvlərə mausun sağ düyməsilə də baxmaq olar. Bu halda açılan kontekst menyunun yuxarısında baxılan sözün düzgün variantları əks olunur. Belə ki, bunların arasından müvafiq variant seçildikdə səhv söz düzgün variantla əvəz olunur. Düzgün variant olmadıqda kontekst menyunun yuxarısında **No suggestions (Variantlar yoxdur, Нет вариантов)** məlumatı əks olunur. Həmin kontekst menyuda həm də yuxarıdakı dialoq pəncərəsində (şəkil 2.32) baxdığımız düymələrin funksiyalarına analoji olaraq **Add to Dictionary (Lüğətə əlavə et/ Добавить в словарь)** və **Ignore All (Hamısını burax/Пропустить все)** əmrləri də əks olunur.

Təqdimat slaydlarında **Thesaurus (Tezarus/ Тезаурус)** lüğətindən istifadə etməklə eyni mənalı müxtəlif sözlərin –

sinonimlərin mətndə daha uyğun olanını seçərək işlətmək olar.

**Mətnin tərcüməsi.** Microsoft PowerPoint 2010 proqramının daha bir mühüm xüsusiyyəti ondan ibarətdir ki, təqdimatın mətn fraqmentlərini bir andaca tərcümə edir. Bu halda istifadəçiyə tərcümə üçün 22 müxtəlif dildən birini seçmək imkanı verilir. Lakin tərcümənin mümkün olması üçün istifadəçinin kompüteri internetə qoşulu olmalıdır.

Əlavə lüğətlər açmadan və ya lüğət xidmətindən istifadə etməklə seçilmiş mətni tərcümə etmək və eləcə də seçilmiş sözün bir andaca üzə çıxan tərcüməsinə baxmaq olar.

Tərcümə prosesi iki rejimdə aparıla bilir:

**a)** *Seçilmiş mətn fraqmentinin tərcüməsi.* Bu halda tərcümənin nəticəsi Microsoft Power-Point proqramının sağında sorğu materialları paneli açılır. Burada müvafiq sətirlərdən giriş və çıxış dilləri seçilir. Nəticədə seçilmiş mətnin tərcüməsi panelin orta hissəsində görünür.

***b)*** *Mini tərcüməçi.* Bu halda isə tərcümənin nəticəsi mausun göstəricisinin yanında kiçik bir pəncərədə üzə çıxır.

Tərcümə rejimlərinin istifadəsi Word proqramında olduğu kimidir.

**Comment (Şərhlər/Примечание)** qrupunun elementləri təqdimat slaydları üzərində şərhlər yaratmaq, yəni slayda yeləşdirilmiş istənilən tip obyektə (başlıq, mətn, şəkil və s.) şərhlər əlavə etmək və şərhləri izləmək üçündür. Proqramın bu funksiyası təqdimatla bir neçə müəllif və ya bir neçə rəyçi eyni vaxtda işləyərkən əhəmiyyətlidir. Belə ki, üzərində resenzentin adının ilk hərfi olan kiçik bir işarə və şərhin sıra nömrəsi obyektin sağında əks olunur. Mausun göstəricisi bu işarə üzərinə gətirilən kimi şərhin mətni və eyni zamanda

rəyçinin tam adı və şərhin yaranma tarixi üzə çıxır.

**Compare (Müqayisə)** qrupunun elementləri təqdimatların müxtəlif versiyalarını tutuşdurmaq və birləşdirmək olar. Birləşdirmə əməliyyatından sonra işçi pəncərənin sağında yoxlama oblastı – *düzəlişlər paneli* əks olunur. Tutuşdurma nəticəsində üzə çıxan bütün fərqliliklər (slaydların, şəkillərin və digər obyektlərin ləğvi və əlavə edilməsi, eləcə də mətndə edilmiş dəyişikliklər) haqqında məlumatlar bu paneldə əks olunur. Buradan isə hər bir dəyişikliyə nəzər yetirərək onu qəbul etmək və ya ondan imtina etmək olar. Bu halda edilən dəyişikliklər "qəbul edilən dəyişiklik" və "qəbul edilməyən dəyişiklik" mənasını bildirən müvafiq işarələrlə müşayiət olunur. *Yoxlamanı sona yetirmək* əmri icra olunan kimi *resenziya əməliyyat*ı başa çatır, yoxlama oblastı bağlanır və bundan sonra bütün təsdiq olunmuş düzəlişlər cari təqdimatda tətbiq olunur.

## §2.8. View (Görünüş) paneli

**View (Görünüş/ Вид)** paneli üzərində (şəkil 2.33) təqdimatın nümayiş rejimlərini dəyişmək, slayd nümunələrini sazlamaq, bir neçə təqdimat faylları ilə eyni vaxtda işləmək və s. üçün nəzərdə tutulmuş düymələr-əmrlər yerləşir. Bu panel üzərindəki idarəetmə elementləri öz funksiyalarına uyğun olaraq müxtəlif qruplarda əks olunur. O cümlədən, **Presentation Views (Təqdimatın görünüş rejimləri/ Режимы просмотра слайдов)** qrupunun elementləri təqdimatın nümayişinə müxtəlif rejimlərdə baxmaq üçündür. Görünüş rejimləri təqdimatın yaradılmasının müxtəlif mərhələlərində slaydlarla daha rahat işləmək üçün nəzərdə tutulur.

PowerPoint 2010 proqramında slaydların dörd müxtəlif görünüş rejimləri (şəkil 2.34) var: **Normal (Adi/ Обычный), Slide Sorter (Slaydların nizamlayıcısı /Сортировщик слайдов), Notes Page (Qeydlər səhifələri/ Страницы заметок), Reading View (Oxu rejimi/Режим чтения).** Bu rejimlərin hər hansı birindən istifadə etmək




**Şək. 2.33. View (Görünüş) paneli**

üçün **Presentation Views (Təqdimatın görünüş rejimləri)** qrupunun müvafiq düyməsi-əmri seçilir. Seçilən rejimdən asılı olaraq təqdimat pəncərəsinin görünüşü dəyişir.

**Normal (Adi/Обычный)** slaydların əsas görünüş rejimdir. Odur ki, təqdimat yaradılarkən və açılarkən slaydlar susmaya görə bu rejimdə əks olunur. Belə ki, təqdimata daxil edilən bütün slaydlar bu rejimdə yaradılır və redaktə olunur (şəkil 2.35). Bu rejimdə istifadəçi hər bir slaydla ayrıca işləyərək onu yaradır, redaktə edir, həmin slayda müxtəlif obyektlər- mətn daxil edir,




**Şək. 2.34. Təqdimatın görünüş rejimləri**

şəkillər, cədvəllər, qrafiklər və s. yerləşdirir. Ekranın mərkəzi hissəsində (slaydlar oblastında) cari slaydın ümumi görünüşü əks olunur və bu hissə miqyası tənzimləməklə slayda bütün detallarilə baxmağa imkan verir. Bu rejimdə həmçinin




**Şək. 2.35. Təqdimat Normal (Adi) rejimdə əks olunur**

slaydlar oblastından solda *naviqasiya paneli - slaydlar paneli* yerləşir. Bu panel isə iki rejimdə -*slaydlar* və *struktur* rejimlərində əks oluna bilir.

*Slaydlar rejimi* adətən susmaya görə əks olunur və slaydların kiçik eskizlər şəklində görünüşünə baxmağa imkan verir. Bundan əlavə slaydların birindən digərinə tez keçməyə imkan verir, onların sırasını dəyişməyə, slaydları əlavə etmək və ləğv etməyə imkan verir.

*Struktur rejimi* təqdimatın strukturunu əks etdirir ki, bu

da nümayiş prosesində təqdim olunan material üçün optimal şərh olunma ardıcıllığı seçməyə imkan verir.

**Slide Sorter (Slaydların nizamlayıcısı)** rejiminin mahiyyəti elə onun adından bəllidir: təqdimat daxilindəki slaydların nizamlanması və onların yerləşmə ardıcıllığının dəyişdirilməsi. Bu rejim təqdimatın ümumi görünüşünü əks etdirir. Bu rejimdə təqdimatın bütün slaydları bir neçə sətirdə bərabər paylanmaqla kiçik eskizlər şəklində əks olunur. Belə ki, **Presentation Views (Təqdimatın görünüş rejimləri)** qrupunun **Slide Sorter (Slaydların nizamlayıcısı)** düyməsi (şəkil 2.34) seçildikdə təqdimata daxil edilmiş bütün slaydlar ekranda görünür (şəkil 2.36). Həm də slaydların ekranda əks olunma




**Şək. 2.36. Təqdimat Slide Sorter (Slaydların nizamlayıcısı) rejimində əks olunur**

ardıcıllığı təqdimatın nümayişində onların ekranda görünəcək ardıcıllığı ilə eyni olur. Bu zaman hər bir slaydın aşağı sağ küncündə onun sıra nömrəsi əks olunur.

**Slide Sorter (Slaydların nizamlayıcısı)** rejimində görünmə oblastına düşən slaydların sayını və həmçinin onların elementlərinin daha aydın görünməsini tənzimləmək üçün pəncərənin aşağı sağ küncündəki miqyas şkalasından istifadə etmək olar. Yəni bu rejimdə slayda daha ətraflı baxmaq üçün onun miqyasını artırmaq və ya pəncərədə daha çox slaydın görünməsi üçün miqyası azaltmaq olar.

Slaydların təqdimatda yerləşmə ardıcıllığını dəyişmək olar. Bunun üçün mausun sol düyməsilə slaydı aşağı və ya yuxarı, eləcə də sola və ya sağa daşımaq lazımdır.

Bu rejimdə həm də slaydların eyni stildə tərtib edilib-edilmədiyini yoxlamaq, slayd bölmələri yaratmaqla slaydları müxtəlif temalara aid qruplarda birləşdirmək, keçid effektləri və animasiyalara (animasiya işarələri slaydların aşağısında əks olunur), eləcə də hər bir slaydın nümayiş vaxtına baxmaq olar. Belə ki, slaydlara keçid effektləri və ya slayd obyektlərinə animasiya effektləri tətbiq edilmiş olarsa, o halda **Slide Sorter (Slaydların nizamlayıcısı)** rejimində onlara baxmaq olar. Yəni slaydların aşağısında əks olunan işarəsi üzərində mausun sol düyməsi basıldıqda slayda əlavə edilmiş animasiya effektləri ardıcıl olaraq nümayiş etdirilir.

**Slide Sorter (Slaydların nizamlayıcısı)** rejimində slaydların redaktəsi və onların məzmununda dəyişiklik etmək mümkün deyildir. Bu yalnız **Normal (Adi)** görünüş rejimində mümkündür. **Slide Sorter** rejimindən **Normal** rejimə tez keçmək üçün redaktə olunacaq slayd üzərində mausun sol düyməsi ikiqat basılır.

**Notes Page (Qeydlər səhifəsi/ Страницы заметок)** rejimi slaydlara müəyyən izahedici mətnlərin (müəllif qeydlərinin) daxil edilməsi, redaktəsi və formatlaşdırılması üçün nəzərdə tutulur. Bu rejim əlavə edilmiş müəllif qeydlərini slaydla birgə əks etdirir (şəkil 2.37). Yəni bu rejimdə **Qeydlər səhifəsi** susmaya görə iki hissədən ibarət olur. Belə ki, səhifənin yuxarı yarısında slaydın eskizi yerləşir, aşağı yarısı isə qeydlər üçün mətn sahəsindən ibarətdir (şəkil 2.37). Qeydlər təqdimatın redaktəsi




**Şək. 2.37. Təqdimat Notes (Qeydlər) rejimində əks olunur**

prosesində slaydlara **Normal (Adi)** rejimdə və ya **Notes Page (Qeydlər səhifəsi)** rejimində əlavə edilə bilər.

Beləliklə, **Presentation Views (Təqdimatın görünüş rejimləri)** qrupunun (şəkil 2.34) **Notes Page (Qeydlər səhifəsi)** düyməsi seçildikdə slayd sahəsinin yuxarı yarısında

slaydın eskiz şəklində görünüşü, aşağı yarısında isə slayda aid qeydlər oblastı əks olunur. Burada müəllifin slayd üçün daxil etdiyi qeydlər yerləşir ki, bu qeydləri yerindəcə redaktə etmək olar.

Qeydlər səhifəsinə mətni klaviaturadan və ya mübadilə buferindən daxil etmək və bir sıra formatlaşdırma əməliyyatını (mətn blokunun rənglə doldurulması, konturların rəngi və qalınlığı, sərhəd xəttinin formatı, standart stillər və mətnin rəngi) tətbiq etmək olar. Bu elementlərdən istifadə etmək üçün qeydlər oblastı seçilir və nəticədə panellər lenti üzərində daha bir panel-**Format** paneli görünür. Bu panelin **Shape Styles (Fiqur stilləri/ Стили фигур)** qrupuna daxil olan əmrlər-düymələr həmin işlərin icrasına imkan verir.

Qeydlər səhifəsi hazırlandıqdan sonra auditoriyaya paylanan və ya təqdimatın nümayişi zamanı istifadə olunan material kimi çap oluna bilər. Beləliklə, qeydlər aşağıdakı qayda ilə çap edilir:

- **File (Fayl)** menyusu açılır.
- **Print (Çap/Печать)** əmri seçilir.
- **Settings (Sazlanma/Настройка)** qrupundan **Full Page Slides (Bütün səhifə ölçüsündə olan slaydlar/ Слайды размером во всю страницу)** siyahısı açılır.
- Açılan siyahıda **Print Layout (Maketin çapı/ Напечатать макет)** qrupundan **Notes Pages (Qeydlər səhifəsi/Страницы заметок)** bəndi seçilir.

**Reading View (Oxu və nümayiş)** rejimində təqdimatın nümayiş prosesi başlayır. Yəni, **Presentation Views (Təqdimatın görünüş rejimləri)** qrupunun **Reading View (Oxu və nümayiş)** düyməsi (şəkil 2.34) seçildikdə təqdimat nümayiş olunur və ekranda yalnız proqramın başlıq

sətri və vəziyyət sətri əks olunur. Bu rejimdə slaydın redaktəsi, təqdimata hər hansı materialın əlavə edilməsi, xarici görünüş parametrlərinin sazlanması və s. əməliyyatların icrası mümkün deyildir. Yəni bu rejim yalnız hazır təqdimatın nümayiş etdirilməsi üçündür.

Oxu rejimində yalnız bəzi idarəetmə elementləri əks olunur. O cümlədən, yuxarı sağ küncdə yerləşən **Collapse (Minimum kiçiltmək/ Свернуть), Expand (Maksimum böyütmək / Развернуть)** və **Close (Bağlamaq /Закрыть)** düymələri, həmçinin, vəziyyət sətrində slaydların birindən digərinə keçid düymələri, əlavə idarəetmə əmrləri menyusunu açan düymə və slayd nömrəsinin göstəricisi bura aiddir. Təqdimat üzərində dəyişiklik etmək üçün hər an müvafiq rejimə keçmək olar. Bunun üçün vəziyyət sətrinin sağında yerləşən düymələrdən biri basılır.

Bu rejimdə slaydlar auditoriyaların böyük ekranlarında nümayiş etdirildiyi kimi bütün ekran boyu açılır. Müəyyən mühazirə üzərində işləyərkən təqdimata bu rejimdə baxmaq səmərəli olur. Belə ki, təqdimatın xarici tərtibatına nəzər yetirmək, animasiya effektləri və slaydlararası keçidlərin, zaman intervalları, video-təsvirlər və səsin yoxlanması üçün bu rejimə dönə-dönə müraciət etmək faydalıdır. Bu rejimdən çıxmaq üçün Esc düyməsi basılır.




**Şək. 2.38. Nümunə rejimləri**

**Master Views (Nümunə rejimləri/ Режимы образцов)** qrupuna daxil olan düymələr (əmrlər) nümunəvi tərtibat rejimlərindən – *nümunə rejimlərindən* (şəkil 2.38) istifadə etmək üçün nəzərdə tutulur. Bu qrupda üç rejim təqdim olunur: **Slide Master (Slayd nümunəsi / Образец**

**слайдов), Handout Master (Çıxış nümunəsi /Образец выдач)** və **Notes Master (Qeyd nümunəsi / Образец заметок).** Bu rejimlər slaydların dizayn elementləri və maketində, çıxış slaydlarının (auditoriya üçün paylanmış materialların) dizayn elementləri və maketində, həmçinin müəllif qeydləri səhifələrinin dizayn elementləri və maketində dəyişiklik etmək üçün nəzərdə tutulur. Belə ki, nümunələrin (slayd nümunələri maketlərinin) sazlanması və istifadəsi təqdimatın bütün slaydlarına vahid tərtibat stili (tema, rənglər, şriftlər, effektlər) tətbiq etməyə imkan verir. Həmçinin, bütün slaydlar üçün səhifələrin oriyentasiyası, parametrlərin sazlanması və müəyyən elementlərin slaydlara yerləşdirilməsində tərtibat eyni olur.

**Qrupun Slide Master (Slayd nümunəsi / Образец слайдов)** düyməsi basıldıqda nümunəvi slayd rejimi PowerPoint proqramı pəncərəsində əks olunur (şəkil 2.39). Bu pəncərənin solundakı slayd eskizləri panelinin ən yuxarı səviyyəsində - birinci səviyyədə slayd nümunəsi yerləşir. Həm də bu slayd panel üzərində 1 nömrəsilə əks olunduğu halda digər eskizlər nömrəsiz görünür (şəkil 2.39):

①- Slayd nümunəsi, ②- Slayd nümunəsilə əlaqəli olan slayd maketləri. Bu isə o deməkdir ki, panel üzərindəki nümunə slaydı (siyahıda birinci slayd) ilə digər slaydlar arasında sanki bir "valideyn-övlad" əlaqəsi var. Yəni nümunə slaydı (birinci slayd) xüsusi tip slayddır və təqdimatın bütün slaydlarının xarakteristikalarını müəyyən edir. Odur ki, nümunə slaydilə işləyərkən ümumi stil dəyişikliyini təqdimatın bütün slaydlarına, hətta sonralar əlavə ediləcək slaydlara bir andaca tətbiq etmək olar. Deməli, təkrarlanan verilənləri yalnız bir slayda daxil etmək kifayət edir.

Baxılan pəncərənin işçi sahəsində - slaydlar oblastında (şəkil 2.39) başlığın və əsas mətnin daxil edilməsi üçün nəzərdə tutulmuş düzbucaqlı sahələr - doldurucular əks olunur. Slayd nümunəsində həmçinin daha üç obyekt üçün düzbucaqlı sahələr - doldurucular yerləşir. Bunlar tarix, səhifə altlığı (Footer) və nömrənin daxil edilməsi üçündür və




**Şək. 2.39. Nümunəvi slayd rejimi**

bütün slaydların aşağısında əks olunur (şəkil 2.39). Slayd nümunəsi rejimi çoxlu sayda slaydları olan təqdimatlar yaradarkən əlverişlidir.

Beləliklə, **Master Views (Nümunə rejimləri)** qrupunun (şəkil 2.38) **Slide Master (Slayd nümunəsi/Образец слайдов)** düyməsi nümunə slaydlarının dizaynı və maketində zəruri dəyişikliklər etmək üçün istifadə edilir. **Slide Master (Slayd nümunəsi)** düyməsi seçildikdə açılan eyni adlı panelin (şəkil 2.40) elementləri bir sıra

əməliyyatların icrasına imkan verir: O cümlədən:

- Bu panel üzərindəki **Edit Theme (Temanı redaktə etmək / Изменить тему)** qrupunun elementləri vasitəsilə bütün slaydlara vahid tərtibat vermək olar. Yəni slayd nümunəsi üzərində icra olunan hər hans ı dəyişiklik bütün digər maketlərdə də özünü büruzə verir. Məsələn, qrupun **Themes (Temalar)** düyməsi basıldıqda açılan siyahıdan




**Şək. 2.40. Slayd nümunələri paneli**

müəyyən bir variant seçildikdə bütün maketlərin hamısına seçimə uyğun olaraq eyni fon verilir (şəkil 2.41). Və ya bütün slaydlarda başlıqların kursivlə əks olunması üçün slayd




**Şək. 2.41. Bütün slaydlara vahid fon verilir**

nümunəsindəki başlıq seçilir və Home (Ev) panelindən kursiv düyməsi (və ya Ctrl+I qrupu) basılır. Nəticədə bütün maketlərdəki başlıq mətnləri kursivlə əks olunur. Həmçinin, **Insert Slide Master (Nümunə slayd yerləşdirmək/ Вставить образец слайдов)** düyməsindən istifadə etməklə slayd eskizləri siyahısına əlavə slayd nümunələri yerləşdirmək olar.

- **Insert Layout (Maket yerləşdirmək / Вставить макет)** düyməsilə mövcud maketlər sırasına cari slayd nümunəsinə uyğun maketlər əlavə etmək olar.

Slayd maketlərinin strukturuna müxtəlif tipli doldurucular - düzbucaqlı sahələr əlavə etmək olar. Bunun üçün aşağıdakı addımlar icra olunur:

**1.View (Görünüş/ Вид)** panelinin **Master Views (Nümunə rejimləri / Режимы образцов)** düyməsi basılır.

**2.** Açılan pəncərənin solundakı maketlərdən (şəkil 2.41) biri seçilir.




**Şək. 2.42. Doldurucu tipləri**

**3. Slide Master (Slayd nümunəsi)** panelinin **Insert Placeholder (Doldurucu yerləşdir /Вставить заполнитель)** düyməsinin adı və ya aşağısındakı ox üzərində mausun sol düyməsi basılır.

**4.** Açılan siyahıdan (şəkil 2.42) zəruri doldurucu seçilir.

**5.** Mausu maket üzərində sürüşdürməklə (sol düymə basılı saxlanılmaqla) müvafiq doldurucu yaradılır.

Başqa tip doldurucular da eyni qayda ilə maketə daxil edilir. Lazımsız doldurucuları maketdən ləğv etmək olar:

**1. View (Görünüş / Вид)** panelinin **Master Views**

**(Nümunə rejimləri / Режимы образцов)** düyməsi basılır.

**2.** Açılan pəncərənin (şəkil 2.41) solunda görünən maket nümunələrindən biri seçilir.

**3.** Maket üzərində doldurucu-düzbucaqlı sahə seçilir və klaviaturadan **Delete** düyməsi basılır.

**View (Görünüş)** panelinin **Master Views (Nümunə rejimləri)** qrupundakı **Handout Master (Çap nümunəsi/ Образец выдач)** düyməsi auditoriyaya paylanan çap materialının dizayn və maketini dəyişdirmək üçün istifadə edilir. Yəni **Handout Master (Çap nümunəsi)** düyməsi nümayiş prosesinin gedişini izləməyə imkan verən və təqdimatın qısa məzmunundan ibarət olan materialın auditoriya üçün paylanan çap kopiyalarının dizaynı və maketinin dəyişdirilməsində istifadə edilir. Belə ki, bu dəyişikliklər **Handout Master (Çap nümunəsi)** düyməsi basıldıqda açılan eyni adlı panelin (şəkil 2.43) bəzi




**Şək. 2.43. Çıxış nümunələri paneli**

elementlərindən istifadə etməklə yerinə yetirilir. O cümlədən:

**- Handout Orientation (Çap nümunəsi oriyentasiyası /Ориентация выдач)** siyahısından seçim edilir – *şəkil* və ya *albom*.

**- Slide Per Page (Səhifədəki slaydlar sayı / Число слайдов на странице)** siyahısından zəruri parametr seçilir və bununla da səhifədəki slaydların sayı təyin edilir.

**- Background Styles (Fon stilləri / Стили фона)**

siyahısından fon üçün variant seçilir və s.

**Master Views (Nümunələr rejimləri)** qrupunun **Notes Master (Qeyd nümunələri/Образец заметок)** düyməsi seçildikdə eyni adlı alətlər paneli açılır (şəkil 2.44). Bu panelin elementləri müəllif qeydlərinin dizaynı və maketinin dəyişdirilməsi üçün nəzərdə tutulur. O cümlədən:

- **Page Setup (Səhifə parametrləri / Параметры страницы)** qrupunun (şəkil 2.44) eyni adlı düyməsilə eyni adlı dialoq pəncərəsi açılır və bu pəncərədə slaydların ölçüsü, səhifənin eni və hündürlüyü, nömrələri, eyni zamanda slaydın və qeydlər səhifəsinin oriyentasiyası təyin edilir.




**Şək. 2.44. Qeyd nümunələri paneli**

- Müvafiq oriyentasiyalar həm də bu qrupun müvafiq düymələrilə təyin edilə bilər (şəkil 2.44).
- **Placeholders (Doldurucular/Заполнители)** qrupunun elementləri vasitəsilə müvafiq obyektlərin qeydlər səhifəsində əks olunması təmin edilir. Bunun üçün qrupda əks olunmuş zəruri rejimlər (tarix, səhifə başlıqları, slaydın surəti, səhifə nömrəsi, əsas mətn) seçilir (şəkil 2.44).
- **Fonts (Şriftlər/Шрифты)** düyməsindən istifadə edərək açılan siyahıdan müvafiq variant seçməklə mətnin şriftini dəyişmək olar və s.

Mətn sahəsinin və slayd nümunəsinin ölçülərini dəyişmək olar. Bunun üçün sərhəd xətlərinin orta və uc nöqtələri mausun sol düyməsilə zəruri istiqamətdə sürüşdürülür.

Təqdimat slaydlarında obyektlərin düzləndirilməsi üçün

PowerPoint pəncərəsində bəzi əlavə elementlər əks olunmalıdır. Bunun üçün **Show (Göstərmək)** qrupundan müvafiq rejimlər (şaquli və üfüqi xətkeşlər-**Ruler**, tor-**Gridlines**, yönəldicilər-**Guides**) seçilir (şəkil 2.45).

Təqdimat slaydının normal əks olunması üçün əlverişli miqyas seçilməlidir. Bunun üçün **Zoom (Miqyas Масштаб) /** və **Fit to Window (Pəncərəyə yerləşdirmək/ Вписать в окно)** əmrlərindən istifadə edilir (şəkil 2.45). Slaydların həm də rəng çeşidlərini quraşdırmaq olar. Bunun üçün **Color/ Grayscale (Rəng/Boz çalarlar)** qrupunun **Color (Rəng/ Цвет), Grayscale (Boz çalarlar/Оттенки серого)** və **Black and White (Qara və ağ/Черно-белый)** düymələri (şəkil 2.45) vasitəsilə müəyyən variant seçmək olar. Bu da rəngli təqdimatı ağ-qara printerdə çap etmək zərurəti yarandıqda səmərəlidir.




**Şək. 2.45. Show, Zoom, Color/Grayscale qrupları**

**Window (Pəncərə/Окно)** qrupunun elementləri bir neçə açıq PowerPoint faylları ilə işləyərkən istifadə edilir. Yəni bu əmrlər eyni vaxtda bir neçə təqdimat pəncərələrinin nizamlanması üçün istifadə edilir.

**Makros** düyməsi (şəkil 2.33) eyni adlı dialoq pəncərəsini açır. Bu pəncərədə makrosların siyahısına baxmaq, onları seçərək icra etmək, yeni makros yaratmaq, makrosları ləğv etmək, redaktə etmək və s. əməliyyatların icrası mümkündür. **Makros** bir əmrlə icra olunan əvvəlcədən hazırlanmış əmrlər ardıcıllığıdır və müəyyən əməliyyatlar ardıcıllığının avtomatik icrası üçün istifadə edilir.

# Fəsil 3. Təqdimatın yaradılması və saxlanılması

## §3.1. Təqdimatın yaradılması

MS PowerPoint 2010 proqramında yaradılan təqdimatların üç əsas elementini qeyd etmək olar: *Slaydlar*, *qeydlər* və *paylanan materiallar (çap materialları)*.

*Slaydlar* təqdimatın ən əsas elementləridir. Belə ki, bir faylda birləşən slaydlar təqdimatı əmələ gətirir. Yəni təqdimatın hər bir səhifəsi slayd adlanır. Deməli, bütün material təqdimatın slaydlar adlanan ayrı-ayrı səhifələrində yerləşir. Slaydlarda isə bir-birindən fərqli obyektlər-mətn obyektləri, cədvəllər, diaqramlar, şəkillər, rəsmlər, qrafiki obyektlər, audio-video fayllar birləşərək bir ahəng yaradır. Yəni slaydlar sadəcə olaraq nümayiş üçün hazırlanmış illüstrasiya materialıdır.

*Qeydlər* mühazirəçinin daxil etdiyi şərhlərdir. Hər bir slayd səhifəsində həmin slaydın kiçildilmiş kopyası və onun aşağısında mühazirəçinin şərhini yerləşdirmək üçün qeydlər səhifəsi yerləşir. Buradan qeydləri daxil etmək və onun üzərində müxtəlif redaktə əməliyyatları aparmaq olar.

*Paylanan materiallar* təqdimatın bir səhifədə çap olunan qısa məzmunundan ibarətdir. Əvvəlcədən auditoriyaya paylanan bu çap materialı nümayişin gedişini izləməyə kömək edir.

Beləliklə, hər bir təqdimat bir PowerPoint faylında saxlanan slaydlar toplusundan ibarətdir. Odur ki, təqdimatın yaradılması prosesi ilk növbədə mətn və obyektlərin slaydlara yerləşdirilməsindən ibarətdir.

MS PowerPoint 2010 proqramı istifadəçiyə müxtəlif temalara aid çoxlu sayda təqdimat şablonları təklif edir. Bu şablonlar müəyyən qayda ilə tərtib edilmiş slaydlardır. Belə slaydlar üzərindəki sahələrdə düzbucaqlı şəklində çərçivələr əks olunur. Həmin çərçivələrə müəyyən mətn, qrafik, cədvəl və ya diaqram yerləşdirmək olar. Bundan əlavə istifadəçi öz zövqünə uyğun dizayn elementləri seçməklə istənilən təqdimat şablonunun bədii tərtibatında dəyişikliklər edə bilər. Bu halda təqdimatın məzmunu dəyişməz qalır. Bütün bunlarla bərabər istifadəçi həm də boş yerdən (sıfırdan) təqdimat yarada bilər. Bunun üçün tələb olunan bütün vasitələr MS PowerPoint 2010 proqramında var.

Beləliklə, MS PowerPoint 2010 proqramında təqdimat yaratmaq üçün müxtəlif üsullardan istifadə etmək olar:

- ***Boş səhifədə (sıfırdan) təqdimat yaratmaq.*** Bu halda istifadəçi təqdimata daxil ediləcək hər bir slaydın strukturu və dizaynını özü fikirləşir. Odur ki, bu halda istifadəçidən böyük zəhmət və mövzuya yaradıcı yanaşma tələb edilir. Belə ki, heç bir hazır təqdimatdan, heç bir təqdimat şablonundan istifadə etmədən istifadəçi boş səhifədə - ağ vərəqdə öz zövqünə uyğun stil yaradır. Lakin ağ səhifə təqdimat kadrları üçün heç də cəlbedici fon deyil. Odur ki, bu səhifələr üzərində iş aparılır - fon rəsmi yerləşdirilir, mətn qutuları və digər obyektlər daxil edilir, yazıların görkəmi dəyişdirilir və s.
- ***Şablonlar əsasında təqdimat yaratmaq***. Bu halda PowerPoint 2010 proqramının təklif etdiyi şablonlardan istifadə edilir. Belə ki, istifadəçi şablonlar kimi saxlanılan hazır təqdimatların müəyyən birini əsas kimi seçir və

slaydların dizayn tərtibatı və strukturuna toxunmadan ora yalnız öz məlumatlarını daxil edərək asanlıqla istədiyi təqdimatı yaratmış olur.

- ***Mövcud sənəd əsasında təqdimat yaratmaq***. Bu halda MS PowerPoint 2010 proqramında yaradılmış hər hansı təqdimat sənədi əsas kimi götürülür. Yəni hazır təqdimat faylı açılır və onun üzərində zəruri əlavələr, dəyişiklik və düzəlişlər icra edilir, müəyyən tamamlama işləri aparılır. Nəticədə nəzərdə tutulan təqdimat alınır.
- ***Temalar və slayd nümunələri əsasında təqdimat yaratmaq***. Bu üsul tətbiq edildikdə təqdimatın bütün slaydlarında stillərə ümumi dəyişiklik tətbiq etmək mümkündür.

Bu üsulların hər birində birinci addım eynidir: File menyusu açılır və **New (Yeni, Создать)** əmri seçilir.

## §3.2. Boş səhifədə (sıfırdan) təqdimatın yaradılması

Bu üsulla təqdimat yaratmaq üçün aşağıdakı addımlar icra olunur:

- PowerPoint 2010 proqramı pəncərəsində **File** menyusu açılır və **New (Yeni, Создать)** əmri seçilir.
- Açılan pəncərə əlavəsində (şəkil 3.1) **Available Templates and Themes (Mümkün şablonlar və temalar/Доступные шаблоны и темы)** bölməsindəki siyahıdan **Blank presentation (Yeni təqdimat/ Новая презентация)** variantı seçilir. MS PowerPoint 2010 proqramı icra olunarkən yeni təqdimat avtomatik yaradılır.

Proqramın başlıq sətrində yeni yaradılan təqdimat faylının adı ”Presentation N” şəklində əks olunur. Burada N ardıcıl açılmış, lakin hələ saxlanmamış faylların sıra nömrəsini göstərir.




**Şək.3.1.Mümkün şablonlar və temalar**

Bu addımlardan sonra MS PowerPoint 2010 proqramı pəncərəsinin ortasında “titul slaydı” adlanan sadə bir slayd əks olunur (şəkil 3.1a). Yəni yeni yaradılan təqdimat hələlik yalnız bir slayddan ibarət olur. Bu slaydın yalnız iki elementi var: *slaydın başlığı* və *alt başlığının* əlavə edilməsi üçün nəzərdə tutulmuş düzbucaqlı şəklində sahələr (mətn qutuları). Bunlara *doldurucular* da deyilir. Bunların aşağısında isə *qeydlər sahəsi* (şəkil 3.1a) yerləşir. Növbəti addımda titul slaydına zəruri




**Şək. 3.1a. Titul slaydı**

məlumatlar daxil edilir. Yəni auditoriyaya təqdim olunacaq mövzu ilə bağlı başlıq və eləcə də alt başlıq müvafiq sətirlərdən daxil edilir. Bundan sonra növbəti *slaydları təqdimata əlavə etmək* olar.

**Təqdimata slayd əlavə etmək.** Göründüyü kimi yeni təqdimat əvvəlcə yalnız bir slayddan - titul slaydından ibarət olur. Təqdimata əlavə slayd daxil etmək üçün iki üsuldan istifadə etmək olar:

**a) Home (Ev/ Главная)** paneli üzərindəki **New Slide (Yeni slayd/ Создать слайд)** düyməsindən istifadə edilir. Burada iki hal nəzərdə tutulur. *Birinci:* Həmin düymə basıldıqda susmaya görə yeni slayd,yəni titul slaydı yaradılır. *İkinci:* Bu düymənin adı (və ya aşağı yönəlmiş ox üzərində) mausun sol düyməsi basıldıqda isə MS PowerPoint 2010 proqramında mövcud olan standart maketlər siyahısı və onların aşağısında əlavə əmrlər açılır. Həmin maketlər üzərində (şəkil 3.2) cari slayd üçün zəruri ola biləcək müxtəlif elementlər var. O cümlədən, bu elementlər arasında istifadəçiyə əsas mətn, cədvəllər, diaqramlar, qrafiki obyektlər, səs, filmlər, şəkillər və s. kimi obyektlər təklif olunur. Odur ki, bu maketlərdən müvafiq birini seçmək olar (şəkil 3.2).

**b)** MS PowerPoint 2010 pəncərəsinin solunda əks olunan slaydlar panelində yeni slaydın yerləşəcəyi yerdə mausun sağ düyməsi basılır və açılan kontekst menyunun **New Slide (Yeni slayd/Создать слайд)** əmri seçilir.

Slayd yaradıldıqdan sonra da onun maketini dəyişmək olar. O cümlədən, aşağıdakı qaydalardan biri ilə cari slaydda düzəliş etmək mümkündür:

➢ **Home (Ev / Главная)** paneli üzərindəki **Layout (Макет)** düyməsi basılır və açılan siyahıdan zəruri maket seçilir.

➢ Və ya slaydlar paneli üzərindəki slaydlardan zəruri olanın kontekst menyusundan **Layout (Макет)** əmri seçilir və açılan maketlər siyahısından müvafiq maket təyin edilir.




**Şək. 3.2. Yeni slayd üçün maketlər**

Nəhayət, *slayda obyektlər yerləşdirmək* olar. Belə ki, artıq yeni yaradılmış təqdimatda bir neçə slayd varsa, o halda

həmin slaydlara zəruri obyektləri daxil etmək olar. Bu əməliyyatı həm panellər lentinin düymələri (əmrləri) və həm də slaydların maketlərində mövcud olan doldurucularla reallaşdırmaq olar. Belə ki, slayd maketlərində bir sıra mətn və obyekt doldurucuları - mətn, şəkillər, SmartArt obyektləri, ekran şəkili, diaqramlar, cədvəllər, sxemlər, multimediya klipləri, filmlər, rəsmlər, səslər ola bilər. MS PowerPoint 2010 proqramında **Blank (Boş blank)** maketi istisna olmaqla bütün maketlərdə *slayd doldurucuları* var.

*Mətn doldurucuları* adətən daxilində başlıq elementləri və slayd mətni yerləşən düzbucaqlı şəklində əks olunur. Bu düzbucaqlı sahə daxilindəki mətn üzərində mausun sol düyməsi basıldıqda həmin sahə verilənləri daxil etmək üçün aktivləşir. Belə ki, bundan sonra zəruri mətn birbaşa klaviaturadan və ya mübadilə buferindən daxil edilə bilər.

*Obyekt doldurucuları* isə daxilində müxtəlif obyekt işarələri (cədvəl, diaqram, SmartArt qrafiki obyektləri, faylda saxlanan pəsm, şəkil, klip, multimediya) olan punktirli (nöqtələrlə verilmiş) düzbucaqlı şəklində əks olunur. Bu obyektlərdən hər hansı biri, məs., **Insert Picture from File (Fayldan rəsm yerləşdir/Вставить рисунок из файла)** işarəsi üzərində mausun sol düyməsi basıldıqda tələb olunan faylın seçilməsi üçün müvafiq dialoq pəncərəsi açılır. Buradan zəruri fayl seçilir və **Insert (Yerləşdirmək/ Вставить)** düyməsilə müvafiq şəkil slayda daxil edilir. Və ya slayda **ClipArt** obyekti əlavə etmək üçün **ClipArt (ClipArt şəkili/Картинка ClipArt)** işarəsi üzərində mausun sol düyməsi basılır. Nəticədə kliplər kitabxanasında saxlanan təsvirlərin axtarışı üçün pəncərənin sağında xüsusi

panel açılır. Bu panel üzərində **Search for (Axtar / Искать)** sətrindən açar söz və ya ifadə daxil edilir və **Go (Başla/Начать)** düyməsi basılır. Nəticədə həmin açar sözə uyğun şəkillər üzə çıxır. Buradan isə tələb olunan şəkil üzərində mausun sol düyməsi basıldıqda həmin şəkil slayda yerləşdirilir.

Panellər lentinin elementləri vasitəsilə də obyektləri slayda yerləşdirmək olar. Bunun üçün aşağıdakı addımlar icra olunur:

- Slaydlar paneli üzərində obyekt əlavə etmək üçün slayd seçilir.
- Zəruri obyekti slayda yerləşdirmək **Insert (Yerləşdirmək/ Вставка)** paneli üzərindəki müvafiq düymə (əmr) seçilir. Məsələn, slayda mətn sahəsi yerləşdirmək üçün **Text Box (Mətn qutusu/Надпись)** düyməsi Basılır. Bundan sonra slayd üzərində onun yeri və sərhədləri mausun sol düyməsilə daşınmaqla təyin edilir. Bunun ardınca zəruri mətn birbaşa klaviaturadan daxil edilir və ya Paste əmrilə mübadilə buferindən yerləşdirilir (şəkil 3.3).




**Şək. 3.3. Mətn sahəsinin slayda yerləşdirilməsi**

Slayd üzərində istənilən obyektin ölçülərini dəyişmək mümkündür. Bunun üçün əvvəlcə obyekt seçilir. Bundan sonra mausun göstəricisi obyekt

çərçivəsi üzərindəki işarələrdən biri üzərində qalmaqla sol düymə basılı saxlanılır və kursor iki istiqamətli ox üzrə sürüşdürülür. Nəticədə obyektin ölçüsü dəyişir - böyüyür və ya kiçilir.

Yaşıl dairəvi işarə üzərində mausun sol düyməsi basılı saxlanılmaqla dairəvi hərəkət etdikdə slayd obyekti məzmunu ilə birlikdə öz yerində fırlanır.

Slayd üzərində obyektin yerini dəyişmək olar. Bunun üçün Mausun göstəricisi obyekt üzərinə gətirilir və sol düymə basılı saxlanılmaqla zəruri istiqamətdə sürüşdürülür.

Slayda bir neçə obyekt yerləşdirmək olar. Belə hallarda onların bir-birini örtməsini tənzimləmək mümkündür. Məs., hər hansı bir obyekti digər obyektlərdən ön planda (onların üzərində) yerləşdirmək üçün həmin obyektin kontekst menyusundan **Bring to Front ⇒ Bring Forward (Ön plana ⇒ Önə yerini dəyiş/На передний план ⇒ Переместить вперед)** əmri icra olunur.

Nəhayət, slaydlara müəyyən gözəllik vermək, yəni fon rəngi və ya fon rəsmi yerləşdirmək, mətnin görünüşünü və şəkilləri formatlaşdırmaq işinə başlamaq olar. Bunun üçün **Design (Dizayn)** panelinin elementlərindən istifadə edilir. Bu panelin elementlərilə artıq tanışıq (Fəsil 2, şəkil 2.8).

Belə ki, **Design (Dizayn)** panelinin **Themes (Temalar)** qrupundakı elementlər bir andaca slaydların görkəmini dəyişməyə imkan verir. Lakin hazır temalar istifadəçini təmin etməzsə, o halda temanı dəyişmək və ya **Themes (Temalar)** qrupunun **Colors (Rənglər), Fonts (Şriftlər), Effects (Effektlər)** düymələri vasitəsilə yenisini yaratmaq olar.

Eyni zamanda **Design (Dizayn)** panelinin **Background (Fon)** qrupundakı **Background Styles (Fon stili)** düyməsilə açılan siyahıdan (şəkil 3.4) müstəqil olaraq fon stili seçmək olar. Bundan əlavə stillər siyahısının (şəkil 3.4) aşağısında yerləşən **Format Background (Fon formatı)** əmrilə açılan eyni adlı dialoq pəncərəsinin (şəkil 2.10) elementləri fonu




**Şək. 3.4. Fon stilləri**

formatlaşdırmaq üçün nəzərdə tutulur. Belə ki, həmin elementlər fonun müxtəlif doldurulma variantlarını tətbiq etməyə imkan verir: **Sold fill (Bütöv doldurulma), Gradiyent fill (Fərqli rənglərin ahəngi), Picture or texture fill (Şəkil və ya tekstura ilə doldurulma)** və nəhayət, **Pattern fill (Naxışla doldurulma).** Məsələn, slayd fonunu doldurmaq üçün istifadəçi **Picture or texture fill (Şəkil və ya tekstura)** variantını seçmiş olarsa, bu halda slayda daxil etdiyi şəkili həmin dialoq pəncərəsində sazlaya

bilər, yəni onun parlaqlığını, kontrastını, zənginliyini dəyişə bilər, hətta onu rəngləyə bilər.

## §3.3. Mövcud sənəd əsasında təqdimatın yaradılması

Yeni təqdimat mövcud variantlardan birinin üzərində zəruri əlavələr və düzəlişlər edilməklə də yaradıla bilər. Yəni müəyyən sənəd əsasında təqdimat yaratmaq üçün aşağıdakı addımlar icra olunur:

- PowerPoint proqramı pəncərəsində **File** menyusu açılır və **New (Yeni, Создать)** əmri seçilir.
- Açılan pəncərə əlavəsində **Available Templates and Themes (Mümkün şablonlar və temalar/Доступные шаблоны и темы)** bölməsindəki siyahıdan (şəkil 3.1) **New From Existing Presentation (Mövcud təqdimatlardan yaratmaq/ Создание из имеющейся презентации)** bəndi




**Şək. 3.5. Mövcud sənəd əsasında təqdimat yaratmaq**

seçilir.

- Bu halda açılan eyni adlı dialoq pəncərəsindən (şəkil 3.5) zəruri təqdimat faylı seçilir. Nəticədə PowerPoint 2010 pəncərəsində həmin faylda saxlanılan təqdimatın kopyası adi redaktə rejimində açılır. Burada isə zəruri dəyişiklik və düzəlişlər edildikdən sonra həmin fayl yeni adla saxlanılır.

## §3.4.Temalar və slayd nümunələri əsasında təqdimatın yaradılması

MS PowerPoint 2010 proqramında təqdimatlar həm də temalardan istifadə etməklə yaradıla bilər. Belə ki, yeni təqdimat yaratmaq üçün elə ilk addımda mövcud temalardan birini seçmək olar. Çünki tema sənədin xarici görünüşünü təyin edir. Daha doğrusu temalar fon, rəng çalarları, şriftlər və qrafiki obyektlərin effektləri vasitəsilə sənədin xarici görkəmini müəyyən edir. Yəni bu elementlərin hamısı hər bir temada var. Temalardan istifadə etməklə təqdimat yaratmaq üçün aşağıdakı addımlar icra olunur:

- File menyusu açılır və **New (Yeni, Создать)** əmri seçilir.
- Bu halda açılan pəncərə əlavəsində **Available Templates and Themes (Mümkün şablonlar və temalar/Доступные шаблоны и темы)** sahəsindəki siyahıdan (şəkil 3.1) **Themes (Temalar/Темы)** bəndi seçilir.
- Təklif olunan temalardan müvafiq biri seçilir və **Create (Yaratmaq/Создать)** düyməsi basılır. Nəticədə seçilmiş şablona uyğun tərtibatı olan titul slaydı MS PowerPoint 2010

proqramı pəncərəsində əks olunur. Belə ki, iş prosesində yaradılacaq bütün slaydlara bu ümumi stil tətbiq ediləcək. Lakin təqdimat üzərində aparılan işin istənilən mərhələsində tərtibat temasını dəyişmək mümkündür. Bunun üçün sadəcə olaraq **Design (Dizayn/Дизайн)** paneli üzərində yerləşən **Themes (Temalar/Темы)** qrupundan istifadə edilir. Bununla yanaşı iş prosesində konkret rənglər, şriftlər və effektlər parametrlərini sazlamaq və onları yeni tema şəklində temalar kolleksiyasında saxlamaq olar.

PowerPoint 2010 təqdimatı yaratmaq üçün həm də ***slayd nümunələri rejimindən*** istifadə etmək olar. Bu rejim təqdimatın sxematik eskizini yaratmağa imkan verir. Yəni bu halda hər bir slayd üçün ayrılıqda müvafiq tərtibat teması seçmək, eyni zamanda hər bir slayda ayrılıqda zəruri elementlər və onların effektlərini yerləşdirmək mümkündür. Odur ki, bu prosesə slayd nümunələrinin sazlanması kimi də baxmaq olar.

***Slayd nümunələri rejimindən*** aşağıdakı qayda ilə istifadə edilir:

**1.** File menyusu açılır və **New (Yeni)** əmri seçilir.

**2.** Açılan pəncərə əlavəsində **Available Templates and Themes (Mümkün şablonlar və temalar/Доступные шаблоны и темы)** bölməsindəki siyahıdan (şəkil 3.1) **Blank presentation (Yeni təqdimat/ Новая презентация)** variantı seçilir və **Create (Yaratmaq/ Создать)** düyməsi baslıır.

**3. View (Görünüş/ Вид)** panelinin **Master Views (Nümunə rejimləri/Режимы образцов)** qrupundan (şəkil 2.33 və şəkil 2.38) **Slide Master (Slayd nümunələri**

**/Образец слайдов)** düyməsi basılır. Nəticədə PowerPoint 2010 pəncərəsi yeni məzmunda açılır (şəkil 3.6). Bu pəncərənin yeni rejimə uyğun açılmış **Slide Master (Slayd nümunələri / Образец слайдов)** paneli üzərindəki elementlər təqdimatın xarici görünüşü və maketini sazlamağa imkan verir (şəkil 3.6).

Buradan **Themes (Temalar)** düyməsi basılır və açılan temalar kolleksiyasından zəruri tərtibat seçilir (şəkil 3.6). Belə ki, mausun göstəricisi temalar üzrə yerini dəyişdikcə slaydın xarici görünüşü də müvafiq olaraq dəyişir. Hər hansı variantı tətbiq etmək üçün onun üzərində mausun sol




**Şək. 3.6. Slayd nümunəsinin sazlanması**

düyməsi basılır.

Pəncərənin solunda əks olunan (şəkil 3.6) slaydlar paneli üzərində nümunə slaydı 1 nömrəsilə görünür. Ondan aşağıda isə birinci yerdəki bu nümunə ilə əlaqəli olan slaydların maketləri əks olunur. Bütün maketlərin bir-birindən fərqli strukturu və fərqli elementləri olsalar da onların hamısı üçün nümunə slaydına tətbiq edilmiş eyni bir tema tətbiq edilir (şəkil 3.7). Bununla yanaşı, zərurət yarandıqda istifadəçi slayd elementlərinin yerləşməsinə yenidən baxaraq, slayda fon rəsmləri, emblemlər, diqqət çəkən fiqurlar və s. əlavə edə bilər.

Nəhayət, **Close Master View (Nümunə rejimini**




**Şək. 3.7. Bütün slaydlara vahid tema tətbiq edilir**

**bağla/Закрыть режим образца)** düyməsi basılır və bundan sonra adi rejimdə təqdimat üzərində işləri davam etdirmək olar. O cümlədən, maketlər vasitəsilə əlavə slayd yerləşdirmək, işarələnmiş düzbucaqlı sahələri obyektlərlə doldurmaq, onları formatlaşdırmaq, standart stillər tətbiq etmək, animasiya və keçid effektləri əlavə etmək olar.

## §3.5. Şablonlar əsasında təqdimatın yaradılması

Təqdimatların yaradılmasında istifadə olunan daha bir üsul PowerPoint 2010 proqramının təklif etdiyi hazır şablonlardan istifadə etməkdir. Belə ki, PowerPoint şablonları əslində müəyyən dizayn elementləri tətbiq edilmiş, müvafiq şriftlər, fon, animasiya effektləri və digər parametrlər nəzərə alınmış hazır slaydlardır. Belə şablonlar vasitəsilə slaydların yaradılmasında elə də çox vaxt sərf edilmir. Yəni slayd yaratmaq üçün seçilmiş şablonun bütün bloklarının istifadəçi tərəfindən hazırlanmış materialla əvəz edilməsi kifayət edir.

Təqdimatın hazır PowerPoint şablonlarından istifadə etməklə yaradılması aşağıdakı addımlardan ibarət ola bilər:

1. **File (Fayl)** menyusuna müraciət olunur.

- File menyusu açılır və **New (Yeni, Создать)** əmri seçilir. Bu halda açılan pəncərə əlavəsində **Available Templates and Themes (Mümkün şablonlar və temalar / Доступные шаблоны и темы)** bölməsindən, eləcə də **Office.com Teplates** bölməsindən seçim üçün çoxlu sayda tərtibat şablonları (şəkil 3.1) tapmaq olar.

- Pəncərə əlavəsində **Sample Templates (Şablon nümunələri/ Образцы шаблонов)** siyahısında əks olunan variantlardan müəyyən bir şablon, məsələn, **Classic Photo Album (Klassik fotoalbom / Классический фотоальбом)** şablonu seçilir. Nəticədə slaydın təsviri pəncərənin sağında yerləşən ilkin görünüş oblastında əks olunur (şəkil 3.8).
- **Create (Yaratmaq/ Создать)** düyməsi basılır.




**Şək. 3.8. Təqdimat yaratmaq üçün şablon seçilir**

Nəticədə seçilmiş şablonla təyin edilən slayd PowerPoint 2010 pəncərəsində açılır. Odur ki, slaydın redaktəsinə

başlamaq olar. Lakin MS PowerPoint 2010 proqramında mövcud olan şablonlardan heç biri istifadəçini qane etməzsə, o halda Office.com saytından əlavə şablonlar yükləmək olar. Bunun üçün yuxarıda açılmış pəncərə əlavəsinin **Office.com Teplates** bölməsində (şəkil 3.1) əks olunan şablonlara nəzər yetirmək kifayətdir.

Təqdimat hazır şablon əsasında yaradıldıqda yeni materialın daxil edilməsi prosesi sadələşir. Belə ki, bu halda şriftlərin sazlanması və rəngilə bağlı yeni dizayn yaratmaq tələb edilmir, eləcə də qrafiki obyektlərin və mətn bloklarının ölçüləri haqqında fikirləşəməyə ehtiyac qalmır. Redaktə prosesində yalnız slaydda mövcud olan şəkillər istifadəçinin öz rəsmlərilə əvəzlənə bilər, doldurucu sahələrə müəyyən yazılar və başlıqlar əlavə edilə bilər, zəruri diaqramlar, sxemlər, video yerləşdirilə bilər, habelə animasiya effektləri sazlana bilər.

## 2. Mətn və şəkillər redaktə olunur.

Beləliklə, hazır şablon əsasında yaradılan təqdimatlarda ***mətn və şəkillər vaxt itirmədən tez redaktə*** oluna bilər. Məsələn, “Klassik fotoalbom” şablonu əsasında yaradılmış təqdimatda (şəkil 3.8) fotoalbomun titul slaydını istifadəçi öz temasına uyğun olaraq aşağıdakı kimi sazlaya bilər:

- Başlıq sahəsindəki mətn silinir və yeni başlıq mətni daxil edilir.
- Alt başlıq sahəsindəki mətn silinir və ora zəruri mətn, məs., istifadəçinin adı, ünvanı, tarix, müəyyən qeyd və s. məlumat daxil edilir.
- Şəkil seçilir və onun kontekst menyusundan **Change Picture (Şəkili dəyiş/Изменить рисунок)** əmri (şəkil 3.9)

icra olunur.

- Açılan **Insert Picture (Şəkil yerləşdirmək / Вставка рисунка)** pəncərəsindən zəruri şəkil tapılaraq seçilir **və Insert (Yerləşdirmək/Вставить)** düyməsi basılır. Nəticədə titul slaydındakı şəkil dəyişir.

Yeni şəkil yerləşdirilərkən ilkin ölçüsünə baxmayaraq müvafiq şəkil oblastına uyğunlaşdırılır və bundan sonra zövqə uyğun redaktə edilir.




**Şək. 3.9. Titul slaydına şəkil yerləşdirmək**

**3. Şablondan slayd maketi seçilir.** Bu addımda ikinci ***slayd üçün maket seçmək olar***:

- **Home (Ev, Главная)** paneli üzərində **New (Yenisini yarat/ Создать)** düyməsinin adı üzərində mausun sol düyməsi basılır. Bu halda bilavasitə yuxarıda seçilmiş şablon üçün yaradılmış maketlər kolleksiyası açılır (şəkil 3.10). Bu

kolleksiyadakı maketlər boş səhifədə (sıfırdan) yaradılan standart təqdimatlar üçün nəzərdə tutulmuş maketlərlə müqayisədə daha cəlbedici görünür.

- Həmin maketlərdən müvafiq biri seçilir və qeyd olunmuş sahələr zəruri mətn və ya rəsmlərlə doldurulur.

Analoji qayda ilə daha bir neçə slayd şəkillərlə birgə təqdimata yerləşdirilə bilər. Və ya bunun üçün hazır slaydlardan onların məzmununu dəyişdirməklə istifadə etmək olar.

**4. Şəkil üçün ümumi stil tətbiq edilir.** Adətən konkret temaya uyğun olan qrafiki təsvirlər düzgün seçildikdə və ətraflı düşünülmüş şərhlərlə müşayiət olunduqda təqdimat daha effektli və cəlbedici olur. Odur ki, şəkilləri tez və həm də asan formatlaşdırmaq, onların xassələrini, rəngini, parlaqlığını dəyişmək, onlar üçün üçölçülü effektlər tətbiq etmək, habelə onları gözəl çərçivələrə yerləşdirmək olar. Başqa sözlə desək




**Şək. 3.10. Klassik fotoalbom şablonu üçün nəzərdə tutulmuş maketlər**

slaydlara yerləşdirilmiş ***şəkillərə cəld şəkildə ümumi stil tətbiq etmək*** olar. Məsələn, tutaq ki, istifadəçi iki şəkil əks olunmuş maket seçərək yeni slayd yaratmış və doldurucu (düzbucaqlı) sahələrə zəruri təsvirlər yerləşdirmişdir. Odur ki, bundan sonra həmin şəkillərə eyni stil seçərək tətbiq etmək olar. Bunun üçün aşağıdakı addımlar icra olunur:

- Slayd üzərindəki şəkillər seçilir. Bu halda Power Point pəncərəsində əlavə bir panel- **Format** paneli görünür.
- **Format** paneli açılır. Bu panel üzərindəki **Picture Styles (Şəkil stilləri/ Стили рисунков)** qrupunda hazır stillər əks olunur. Bunlara həm də şəkillərin standart stilləri və ya ekspres stillər deyilir. Bu stillərin hər birində bir sıra stil elementləri – kölgə effekti, hamarlanma, dönmə, parlaqlıq, çərçivə tərtibatı və s. öz əksini tapmışdır. Təqdim olunan stillər üzərində mausun göstəricisi hərəkət etdikcə slayd üzərində seçilmiş şəkilin görünüşü avtomatik olaraq dəyişir. Yəni bu stillərdən zəruri olanını seçməklə vaxt itirmədən bir andaca həmin şəklə yeni stil tətbiq etmək olar (şəkil 3.11).

### 5. Obyektlərə animasiya effektləri tətbiq edilir.

Təqdimat nümayiş olunarkən slaydlara daxil edilmiş müxtəlif obyektlərin diqqəti daha tez cəlb etməsi üçün onlara cürbəcür animasiya effektləri tətbiq edilir. Məsələn, nümayiş zamanı slayd başlığı slayd üzərinə uçaraq düşə bilər, ayrı-ayrı obyektlər qəfildən bir-birinin ardınca üzə çıxa bilər və ya qeyri adi hərəkət trayektoriyasi üzrə öz yerini tutar və s.

Aşağıdakı qayda ilə slayd obyektlərinə animasiya effektləri tətbiq etmək olar:

- Slaydın animasiya effekti vermək istədiyimiz birinci

obyekti seçilir.

- **Animations (Animasiyalar)** paneli üzərində yerləşən **Animation (Animasiya)** qrupundan **Animation Styles (Animasiya stilləri/ Стили анимации)** düyməsi




**Şək. 3.11. Şəkillər üçün standart stil seçilir**

basılır. Nəticədə eyni adlı siyahı - animasiya effektləri siyahısı açılır (şəkil 2.17, fəsil 2). Animasiya effektlərinin siyahısı dörd qrupda əks olunur.

- Mausun göstəricisi effektlərin birindən digərinə keçdikcə seçilmiş slayd obyekti müvafiq şəkildə nümayiş etdirilir. Məsələn, **Exit (Çıxış / Выход)** qrupundakı effektlər slayd obyektinin bir anlıq ekrandan yoxa çıxmasilə

bağlıdır. Belə ki, obyektlər slayddan "uça" bilər, bir anlıq gözdən itər və ya spiralvari hərəkətlə tədricən yox olar və nəhayət, slaydda öz yerini tutar (fəsil 2-yə bax). Odur ki, effektlərdən biri üzərində mausun sol düyməsi basılır və həmin effekt təyin edilir. Nəticədə obyektin yuxarı sol küncündə «1» rəqəmi əks olunur. Bu rəqəm göstərir ki, nümayiş zamanı həmin obyekt slayd üzərində birinci görünəcək.

- Bu göstərilən addımlar slaydın digər obyektləri üçün təkrar edilir. Yəni obyektlərin nümayiş ardıcıllığını gözləməklə onlara animasiya effektləri tətbiq edilir.

**6. Slaydların keçid effektləri sazlanır.** Adətən auditoriyada nümayiş etdirilən təqdimatların maraqlı və cəlbedici olması həm də slaydlararası keçidlərdən asılıdır (fəsil 2-yə bax). Hər bir slayd üçün ayrılıqda keçid effektlərini sazlamaq, həmçinin keçid effektlərini slaydların hamısına eyni vaxtda, eləcə də yalnız slaydlar panelində seçilmiş slaydlara tətbiq etmək olar. Məsələn, müəyyən bir slaydın keçid effektini aşağıdakı kimi dəyişmək olar:

- Keçid effektini dəyişmək üçün nəzərdə tutulan slayd seçilir. Belə ki, nümayiş zamanı həmin slayd rəvan şəkildə özündən əvvəlki slaydı onun sağından üzə çıxmaqla əvəz etməlidir.
- **Transitions (Keçidlər/ Переходы)** panelinin **Transition to This Slide (Bu slayda keçid/ Переход к этому слайду)** qrupundan **Wipe (Üzə çıxma/ Появление)** effekti seçilir.

Təqdimatın bütün slaydlarına eyni keçid effektləri tətbiq etmək üçün yuxarıdakı addımlar təkrar edilir və

**Apply To All (Hamısına tətbiq et /Применить ко всем)** düyməsi basılır.

Eyni keçid effektlərini müəyyən qrup slaydlara tətbiq etmək üçün slaydlar panelindən həmin slaydlar seçilir və yuxarıdakı addımlar təkrar olunur.

## §3.6. Slaydların nümayiş vaxtının sazlanması

Təqdimat yaradıldıqdan sonra ona baxmaq, onu redaktə etmək və nəhayət, slaydların nümayiş vaxtını sazlamaq lazımdır. Slaydların nümayişi üçün aşağıdakı addımlardan biri icra oluna bilər:

- F5 düyməsi basılır.
- MS PowerPoint pəncərəsinin aşağı sağ küncündəki **Slayd nümayişi -**  düyməsi basılır.
- **Slide Show (Slayd nümayişi/ Показ слайдов)** panelinin **Start Slide Show (Slayd nümayişinə başlamaq/ Начать показ слайдов)** qrupundan (şəkil 2.25) nümayiş variantı seçilir.




**Şək. 3.12. Slaydlar seçilir**

Nümayiş prosesində slaydların davamlı şəkildə göstərilməsi üçün müvafiq sazlanma işləri aparılmalıdır:

➢ **Slide Show (Slayd nümayişi)** panelinin **Set Up (Sazlanma /Настройка)** qrupundan **Set Up Slide Show (Nümayişin sazlanması)** əmri seçilir (şəkil 2.26). Bu halda müvafiq dialoq pəncərəsi açılır (şəkil 2.27).

➢ Dialoq **Loop continu-ously until “Esc”(“Esc” düyməsi basılana qədər dövr etmək/Непрерывный цикл до нажатия клавиши “Esc”)** parametri seçilir.

➢ Təqdimatın avtomatik nümayişi üçün **Browsed at a kiosk (Avtomatik/Автоматический)** -tam ekran parametri seçilir. Bu rejimdə təqdimatın nümayişi dövrü olaraq təkrarlanır.

Adətən mühazirəçi öz çıxışını vaxta görə qurur. Odur ki, slaydların nümayişində interval vaxtlarını təyin etmək üçün aşağıdakı addımlar icra edilir:

➢ Slayd paneli üzərində və ya **Slide Sorter (Slayd nizamlayıcısı)** rejimində Ctrl düyməsinin köməyilə zəruri slaydlar seçilir (şəkil 3. 12).

➢ **Slide Show (Slayd nümayişi)** panelinin **Set Up Slide (Sazlanma / Настройка)** qrupundan **Rehearse Timings (Vaxtın sazlanması / Настройка времени)** əmri seçilir. Bunun ardınca hər bir slaydın nümayişi arzu




**Şək. 3.13. Slaydların ardıcıl nümayişi izlənir**

olunan vaxt ərzində izlənilir və növbəti slayda keçmək üçün düyməsi basılır (şəkil 3.13). Eyni zamanda bütün

slaydların nümayişinə sərf olunan ümumi vaxt müvafiq sorğuda əks olunur (şəkil 3.14). Belə ki, nümayişdən sonra ekrana çıxan həmin sorğuya, göstərilən ümumi nümayiş




**Şək. 3.14. Slaydların yoxlama rejimində nümayişi başa çatdı. Bütün slaydların nümayişinə sərf olunan vaxt müəyyən edildi.**

vaxtını saxlamaq üçün Yes (Hə, Да), həmin prosesi yenidən təkrarlamaq üçün isə No (Yox, Нет) düyməsi ilə cavab verilir.

## §3.7. Təqdimatın saxlanılması

**Təqdimatın saxlanması.** Təqdimat yaradıldıqdan sonra onu saxlamaq lazımdır. Yəni yeni yaradılan təqdimata ad vermək və onu saxlamaq lazımdır. Sonralar isə iş prosesində düzəlişlərin nəticələri dəfələrlə saxlanıla bilər. Yeni yaradılmış təqdimatı aşağıdakı qayda ilə saxlamaq olar:

- **File (Fayl)** menyusu açılır.
- **Save as (Necə saxlamaq)** əmri seçilir. Bu halda eyni adlı dialoq pəncərəsi açılır.
- Təqdimatın saxlanması üçün müəyyən bir qovluq və ya başqa yer təyin edilir.
- **File name (Faylın adı/Имя файла)** sətrindən təqdimat üçün ad daxil edilir.
- **Save as type (Fayl tipi/Тип файла)** sətrindən zəruri

saxlanma tipi seçilir. Burada müxtəlif variantlar təklif edilir:

- Yalnız PowerPoint 2007 və ya PowerPoint 2010 təqdimatları üçün **PowerPoint Presentation** variantı seçilir.

- PowerPoint 2010 və daha əvvəlki PowerPoint versiyaları üçün **PowerPoint 97-2003** variantı seçilir.

- Təqdimatın nümayiş rejimində saxlanması üçün **PowerPoint Show (PowerPoint nümayişi/Демонстрация PowerPoint)** variantı seçilir. Bu rejimlə saxlanan PowerPoint faylı açılan kimi təqdimatın nümayişi başlanır. Yəni təqdimat nümayiş rejimində açılır.

- Təqdimatın hər bir slaydı ayrıca təsvir (şəkil) kimi saxlanıla bilər. Bunun üçün **Fayl** tipi siyahısında açılan mümkün variantlardan **- *.gif, *.jpeg, *.png, *.tiff*** biri seçilir.

- Təqdimatın ***.pdf** formatında saxlanması üçün həmin siyahıdan PDF variantı seçilir və s.

Nəhayət, sonda **Save (Saxlamaq/ Сохранить)** düyməsi basılır.

Bu addımdan sonra təqdimatla iş zamanı düzəlişlərdən sonra hər an cəld giriş panelindən və ya **CTRL+S** düymələr qrupundan istifadə etməklə təqdimatı cəld şəkildə öz yerində, öz formatında saxlamaq olar.

**Təqdimatın video şəklində saxlanılması.** PowerPoint 2010 proqramı təqdimatın həm də video formatında saxlanmasına imkan verir. Bu halda təqdimata PowerPoint proqramından istifadə etmədən də baxmaq olar. Bunun üçün aşağıdakı addımlar icra olunur:

- **File (Fayl)** menyusu açılır və **Save & Send (Saxla və göndər/ Сохранить и отправить)** əmri seçilir.

- Açılan pəncərə əlavəsində **File Types (Fayl tipləri/Типы файлов)** bölməsindən **Create a Video (Video yarat/ Создать видео)** bəndi seçilir.
- Təqdimatın harada nümayiş etdiriləcəyi müəyyən edilir. Belə ki, vedeo-faylın ölçüsü və keyfiyyəti bundan asılıdır. Odur ki, sağ tərəfdə əks olunana rejimlərdən **Compüter & HD Displays (Kompüter və yüksək əksetdirmə qabiliyyətli monitorlar/ Компьютерные мониторы и мониторы с высоким разрешением)** variantı seçilir.
- Burada həmçinin səslə müşayiəti nəzərə almaq və slaydın nümayiş vaxtını sazlamaq olar. Bunun üçün **Don't Use Recorded Timmings and Narrations (Səslə müşayiət və slaydların nümayiş vaxtından istifadə etmək/ Использовать записанные речевое сопровождение и время показа слайда)** siyahısından müvafiq rejim seçilir.
- **Create Video (Video yaratmaq/ Создать видео)** düyməsi basılır.
- **File name (Faylın adı)** sətrindən video fayl üçün ad daxil edilir.
- Video faylın saxlanması üçün müəyyən bir yer seçilir.
- Nəhayət, **Save (Saxlamaq)** düyməsi basılır.

# §3.8. Təqdimatın çapı

Təqdimat çap edilərkən onun adi mətn faylından fərqli olduğu nəzərə alınmalıdır. Belə ki, çap prosesində təqdimat müəyyən qədər dəyişə bilər. Həm də təbiidir ki, audio- və video-faylların çap olunması mümkün deyildir. Həm də bir çox rəsmlər çap prosesində xeyli dərəcədə dəyişir.



**Şək. 3.15. Çap parametrləri**

Bütövlükdə təqdimatın və ya yalnız bəzi zəruri slaydların çapı üçün aşağıdakı addımlar icra olunur:

**1.File (Fayl)** menyusu açılır.

**2. Print (Çap/Печать)** əmri icra olunur. Bu halda ekranın mərkəzi hissəsində *çap parametrləri* (şəkil 3.15) və sağda isə sənədin çapdan əvvəlki görünüşü əks olunur.

**3.** Parametrlər siyahısından zəruri olanlar seçilir. Məsələn:

- **Copies (Kopyalar/ Копии)** sətrindən sənəd nüsxələrinin sayı daxil edilir.
- **Printer (Printer/Принтер)** sətrində açılan siyahıdan çap qurğusu- printer seçilir.

- **Print All Slides (Bütün slaydların çapı)** sətrində açılan siyahıdan sənədin hansı hissəsinin çap olunacağı təyin edilir (bütün slaydlar və ya yalnız lazım olanlar). O cümlədən, **Print Selection (Seçilmiş hissənin çapı), Print All Slides (Bütün slaydların çapı), Print Current Slide (Cari slaydın çapı)** və ya **Print Custom Range (Sazlanmış diapazonun çapı)** seçilir.
- **Slides(Slaydlar/Слайды)** sətrindən çap olunacaq slaydların nömrələri göstərilir. Məs.,1;5;7-14 və s.
- **Full Page Slides (Bütöv səhifə ölçüdə slaydlar)** sətrində açılan Siyahıda slaydların səhifədə necə yerləşəcəyi və qeydlərin çap olunub-olunmayacağı müəyyən edilir. Odur ki, **Print Layout (Maketin çapı / Напечатать макет)** qrupundan slaydın bütün səhifə boyu çapı üçün **Full Page Slides(Bütöv səhifə ölçülü slaydlar)**, yalnız qeyd səhifəsinin çapı üçün **Notes Pages (Qeyd səhifələri)** və ya yalnız təqdimatın strukturunun çapı üçün **Outline (Struktur)** variantı seçilir (şəkil 3.16).




**Şək. 3.16. Təqdimat maketinin çapı**

**Handouts (Çap materialı / Выдачи)** siyahısındakı

elementlər çap zamanı bir səhifədəki slaydların sayı və onların səhifədə yerləşmə vəziyyətini təyin edir. Həm də bir səhifədə yalnız 1-dən 9-a qədər slayd çap oluna bilər. Bir səhifədə 3 slayd variantı diqqəti daha tez çəkir. Belə ki, digər hallardan fərqli olaraq bu halda çap materialının sağında əlavə qeydlər üçün xətlənmiş sətirlər (şəkil 3.17) yerləşir.




**Şək. 3.17. Bir səhifədə 3 slayd çap olunur**

- **Print One Sided (Birüzlü çap/ Односторонняя печать)** sətrindən bir üzlü və ya iki üzlü çap variantı seçilir.

- Çap prosesində çoxsaylı nüsxələrin avtomatik kopyalara ayrılması üçün **Collated (Kopyalara ayırmaq/ Разобрать по копиям),** əks halda isə **Uncollated (Kopyalara ayırmamaq)** variantı seçilir.

- Təqdimatın rəngli, boz və ya ağ qara çap edilməsi üçün **Color (Rəng / Цвет), Grayscale (Boz/Оттенки серого)** və ya **Pure Black and White (Qara və ağ/Черно-белый)** variantlarından biri seçilir.

Zəruri parametrlər təyin edildikdən sonra **Print (Çap/Печать)** düyməsi basılır.

# Fəsil 4. Səs və videoların tətbiqi

MS PowerPoint 2010 proqramı vasitəsilə yaradılan təqdimatlarda slaydlara mətn və şəkillərlə yanaşı həm də *multimediya effektləri* - səs və video-kliplər yerləşdirmək olar. Multimediya effektlərindən düşünülmüş şəkildə istifadə edilməsi təqdimatı daha maraqlı və əyləncəli edir.

## §4.1. Səs faylının təqdimat slaydına əlavə edilməsi

Adətən təqdimat nümayişinin səslə müşayiət olunması üçün seçilmiş slaydlara səs faylları yerləşdirirlər. Səsin slaydlara yerləşdirilməsində müxtəlif üsullardan istifadə edilir. O cümlədən, MS Office kitabxanasından və istifadəçinin şəxsi səs faylları kolleksiyasından zəruri faylları slaydlara yerləşdirmək və ya səsi bilavasitə mikrofondan yazmaq olar. Eyni zamanda PowerPoint proqramı internet saytlarından da səs fayllarını slaydlara əlavə etməyə imkan verir.

Fərdi kompüterlə iş zamanı ***.wav**, ***.mp3** və ***.mid** formatlı səs fayllarından geniş istifadə edilir.

**wav** formatlı fayllarda bir sıra sadə standart səs yazıları saxlanılır: alqışlar, şüşə cingiltisi, maşın əyləcinin səsi və s. Belə formatlı fayllarda saxlanılan verilənlər sıxlaşdırılmır və buna görə də disk yaddaşında digər səs faylları ilə müqayisədə maksimum yer tutur. Bu tip faylların adının genişlənməsi **.wav** olur.

**mp3** formatı **wav** formatından fərqli olaraq musiqi fayllarını 10-12 dəfə sıxmağa imkan verir. Həm də bu halda səslənmənin keyfiyyəti aşağı düşmür. Odur ki, slayda böyük

həcmli səs faylı yerləşdirmək lazımdırsa, o zaman **mp3** formatından istifadə etmək daha səmərəlidir. Bu tip faylların adının genişlənməsi **.mp3** olur.

**mid** formatlı fayllarda **(MIDI**-fayllarda) **(MIDI**-Musical Instrument Digital Interface) səs yox, cürbəcür not yazıları saxlanır. **MIDI**-fayllar disklərdə minimum yaddaş sahəsi tutur. Bu tipli faylların adının genişlənməsi **.mid** olur.

Səs fayllarını təqdimat slaydına yerləşdirmək üçün **Insert (Yerləşdirmək)** paneli üzərindəki **Media (Media)** qrupunun **Audio (Audio)** düyməsindən istifadə edilir. Yəni bu məqsədlə əvvəlcə səs faylı yerləşdirmək üçün nəzərdə tutulan slayd **Normal (Adi)** görünüş rejimində seçilir. Bundan sonra **Insert (Yerləşdirmək)** panelinin **Media (Media)** qrupundakı **Audio (Səs)** düyməsi üzərində əks olunan kiçik ox - ▼ işarəsi basılır. Nəticədə səs faylının slayda mümkün yerləşdirilmə üsulları açılır (şəkil 4.1):




**Şək. 4.1. Səsin slayda yerləşdirilmə üsulları**

- *Audio from File (Fayldan səs / Звук из файла)* variantı səs faylını kompüterin bərk diskindən slaydlara yerləşdirməyə imkan verir;
- *ClipArt Audio (Şəkillər kolleksiyasından səs/ Звук из коллекции картинок)* variantı MS Microsoft Office kitabxanasında saxlanılan səs fayllarından slayda yerləşdirməyə imkan verir;
- *Record Audio (Səsi yazmaq/Записать звук)* variantı istifadəçinin öz səsini yazmağa və bununla da səs qeydləri yaradaraq onu slayda yerləşdirməyə imkan verir.

**Səs faylının bərk diskdən slayda yerləşdirilməsi.**

Bu əməliyyat aşağıdakı addımlardan keçir:

- Səs faylı yerləşdirmək üçün nəzərdə tutulan slayd seçilir.
- **Insert (Yerləşdirmək)** panelinin **Media (Media)** qrupundakı **Audio (Səs)** düyməsi üzərində əks olunan kiçik ox - ▼ işarəsi üzərində mausun sol düyməsi basılır. Nəticədə səs faylının slayda mümkün yerləşdirilmə üsullarının siyahısı açılır (şəkil 4.1).
- Açılmış siyahıdan **Audio from File (Fayldan səs/Звук из файла)** variantı seçilir. Bu halda müvafiq dialoq pəncərəsi açılır (şəkil 4.2).




**Şək. 4.2. Səs yerləşdirmək dialoq pəncərəsi**

- Açılmış dialoq pəncərəsində zəruri fayl tapılaraq seçilir və **Insert (Yerləşdirmək)** düyməsi basılır. Nəticədə slayd üzərində səs faylının piktoqramı səsucaldan şəklində əks olunur (şəkil 4.3). Bu piktoqramın aşağısında üzə çıxan müvafiq idarəetmə panelinin uyğun düymələrilə səsi

nizamlamaq olar. Həmin panel görünmürsə piktoqram üzərində mausun sol düyməsi basılır.



**Şək.4.3. Səs yerləşdirilmiş təqdimat slaydı**

**Səs faylının Office kitabxanasından slayda yerləşdirilməsi.**

Bu əməliyyat aşağıdakı addımlarla icra olunur:

- ➢ Səs faylı daxil etmək üçün slayd seçilir.
- ➢ **Insert (Yerləşdirmək)** panelinin **Media (Media)** qrupundakı **Audio (Səs)** düyməsi üzərində əks olunan kiçik ox - ▾ işarəsi üzərində mausun sol düyməsi basılır. Nəticədə səs faylının slayda yerləşdirilmə üsullarının siyahısı (şəkil 4.1) açılır.
- ➢ Bu siyahıdan **ClipArt Audio (ClipArt şəkillərindən səs/Звук из коллекции картинок)** variantı seçilir. Nəticədə PowerPoint pəncərənin sağında **ClipArt (ClipArt /Картинка)** paneli



**Şək. 4.4. Səslə işləyərkən ClipArt panelinin görünüşü**

açılır. Bu panel üzərində səs fayllarının eskizləri (şəkil 4.4) əks olunur.

➢ Səs fayllarından biri seçilir və eskizin sağında üzə çıxan ox - ▼ işarəsi üzərində mausun sol düyməsi basılır. Bu halda açılan menyunun **Preview/Properties (Öncə baxmaq və Xüsusiyyətlər/ Просмотр и свойства)** əmri seçilir. Nəticədə eyni adlı dialoq pəncərəsi açılır (şəkil 4.5).




**Şək. 4.5. Öncə baxmaq və xüsusiyyətlər dialoq pəncərəsi**

➢ Açılmış pəncərədə **Previous (Öncə baxmaq/ Просмотр)** düyməsi basılır və seçilmiş səsə qulaq asılır.

➢ Səs dinlənildikdən sonra dialoq pəncərəsinin **Close (Bağla)** düyməsi basılır və baxılan səs qaneedicidirsə, ClipArt panelində müvafiq eskiz üzərində mausun sol düyməsi basılır. Nəticədə seçilmiş səs faylının piktoqramı

slayd üzərində (səsgücləndirici formasında) əks olunur. Bundan sonra həmin piktoqramı mausla sürüşdürməklə slayd üzərində yerini dəyişdirmək olar. Eləcə də piktoqram üzərində mausun sol düyməsi basıldıqda üzə çıxan panel elementlərilə (şəkil 4.3) səsi idarə etmək- sazlamaq olar.

**Slaydlara səs qeydlərinin əlavə edilməsi.** MS PowerPoint 2010 proqramı təqdimatın nümayişinin səslə müşayiət olunması üçün istifadəçiyə öz səsini yazmaq və sonra həmin yazıdan istifadə etmək imkanı verir. Bu cür yazılar *səs qeydləri* adlanır. Səslə müşayiət həm təqdimatın nümayişindən əvvəl və həm də birbaşa nümayiş prosesində yazıla bilər. Təqdimat slaydlarına əlavə edilən səs qeydləri yazılma prosesi başa çatan kimi slayd üzərində səs yüksəldici şəklində görünən piktoqram kimi əks olunur.

Aşağıdakı qayda ilə ayrı-ayrı slaydlara səs qeydləri daxil etmək olar:

- Səs faylı yerləşdirmək üçün slayd seçilir;
- **Insert (Yerləşdirmək)** panelinin **Media (Media)** qrupundakı **Audio (Səs)** düyməsi üzərində əks olunan kiçik ox - ▾ işarəsi üzərində mausun sol düyməsi basılır. Nəticədə səs faylının slayda mümkün yerləşdirilmə üsullarının siyahısı açılır (şəkil 4.1);
- Açılmış siyahıdan **Record Audio (Səs yazmaq/ Записать звук)** variantı seçilir. Nəticədə **Record Sound (Səs yazmaq/ Звукозапись)** pəncərəsi (şəkil 4.6) açılır;




**Şək. 4.6. Səs yazmaq dialoq pəncərəsi**

- Slayd nümayişinin nitqlə müşayiətinin yazılmasına başlamaq üçün ● düyməsi basılır. Dialoq

pəncərəsinin **Total sound length (Müddət/ Продолжительность)** sətrində səs faylının saniyələrlə verilən uzunluğu (səslənmə müddəti) əks olunacaq. Dialoq pəncərəsində  düyməsi yazma prosesini dayandırmaq və  düyməsi yazılmış fayla qulaq asmaq üçün istifadə edilir (şəkil 4.6);

➢ Səslənmə qaneedici olmadıqda yazmaq düyməsi təkrarən basılır. Əks halda isə **Name (Ad /Название)** sətrindən fayl üçün ad daxil edilir;

➢ Nəhayət, yazılmış faylın seçilmiş slayda daxil edilməsi üçün OK düyməsi basılır. Nəticədə slayd üzərində səs faylının səsgücləndirici şəklində əks olunan piktoqramı görünür.

**Bütün təqdimata səslə müşayiətin əlavə edilməsi.**

Aşağıdakı qayda ilə bütün təqdimatın səslə müşayiətini yazmaq olar:

➢ Nəzərdə tutulan təqdimat faylı açılır və **Normal (Adi)** görünüş rejimi seçilir;

➢ PowerPoint 2010 pəncərəsində **Slide Show (Slayd nümayişi)** paneli açılır (şəkil 2.24);

➢ **Set Up (Sazlanma/ Настройка) qrupundan Record Slide Show (Slayd nümayişinin yazılması/ Запись показа слайдов)** düyməsi basılır. Nəticədə eyni adlı dialoq pəncərəsi açılır (fəsil 2, şəkil 2.28);

➢ Bu pəncərədən **Narrations and laser pointer (Səslə müşayiət və lazer göstəricisi/Речевое сопровождение и лазерная указка)** rejimi seçilir (fəsil 2, şəkil 2.28);

➢ **Start Recording (Yazmağa başlamaq/Начать запись)** düyməsi basılır. Nəticədə PowerPoint proqramı avtomatik olaraq təqdimatın nümayişi rejiminə keçir və cari slaydın yuxarı sol küncündə müvafiq idarəetmə paneli

görünür. Bundan sonra bu panel elementləri vasitəsilə yazma prosesini idarə etmək olar.

Panel üzərindəki **Next(Növbəti/Далее)** düyməsi basılır və istifadəçi nəzərdə tutulan mətni mikrofona oxuyur.

Panel üzərindəki **Pause Recording (Fasilə/Пауза)** düyməsinin köməyilə hər an yazma əməliyyatını dayandırmaq olar.

Səslə müşayiəti təkrarən yazmaq üçün **Repeat (Təkrar et/Повторить)** düyməsi basılır.

İdarəetmə panelinin **Next (Növbəti / Далее)** düyməsi basıldıqda növbəti slayd üçün yazma əməliyyatına başlanır.

Səslə müşayiətin yazılması zamanı idarəetmə paneli üzərində vaxt hesablanması üçün iki xüsusi sahə əks olunur. Bunlardan biri cari slayda yazılan səslə müşayiət müddətini (nə müddət davam etdiyini), ikincisi isə təqdimatın ümumilikdə səslə müşayiət vaxtını (bu müşayiətin nə müddət davam etdiyini) göstərir.

Səslə müşayiət yazıldıqdan sonra yoxlamaq üçün bütün yazıya qulaq asmaq məsləhətdir. Bunun üçün təqdimata **Reading View (Slayd nümayişi/ Показ слайдов)** rejimində baxmaq lazımdır.

Ayrı-ayrı slaydların səslə müşayiət olunmasına baxmaq üçün isə **Normal (Adi)** görünüş rejiminə keçərək səslə müşayiət piktoqramı üzərində mausun sol düyməsi basılır.

**Səs faylının sazlanması və redaktəsi.** Səs faylını sazlamaqla onun səslənmə qaydasını idarə etmək olar. Yəni səs faylını elə sazlamaq olar ki, slaydın nümayişi zamanı avtomatik olaraq və ya yalnız mausun düyməsi vasitəsilə səslənə bilər, slayd üzərində görünməyə bilər, nümayiş prosesində fasiləsiz səslənə bilər və ya gizlədilmiş ola bilər.

Beləliklə, səs faylı göstərilən üsullardan birilə slayda yerləşdirilir və aşağıdakı qayda ilə sazlanır:

➢ Səs faylının piktoqramı üzərində mausun sol düyməsi basılır və **Playback (Səsləndirmək / Воспроизведение)** paneli açılır. Bu panelin **Edit (Redaktə)** və **Audio Options (Səs parametrləri)** qrupunun elementlərindən istifadə edilir (şəkil 4.7).




**Şək. 4.7. Playback (Səsləndirmək) panelinin Editing (Redaktə) və Audio Options (Səs parametrləri) qrupları**

Səs faylının icra olunma qaydasını təyin etmək üçün **Audio Options (Səs parametrləri /Параметры звука)** qrupunda **Start (Başlanğıc/ Начало)** siyahısından **On Click (Mausla / По щелчку)** və ya **Automatically (Avtomatik / Автоматически)** variantı seçilir (şəkil 4.7).

➢ Səsin nizamlanması üçün həmin qrupda **Volume (Səs yüksəkliyi/ Громкость)** düyməsilə açılan siyahıdan **Low (Sakit/Тихо), Medium (Orta/Средне), High (Hündür/ Громко)** və ya **Mute (Söndürmək/ Приглушить)** parametri seçilir.

Burada əlavə parametrlərdən də istifadə etmək olar:

**- Hide During Show (Nümayiş zamanı gizlətmək/ Скрыть при показе)** parametri seçildikdə təqdimat nümayiş olunarkən səs faylı slayd üzərində əks olunmur.

**- Loop Until Stopped (Fasiləsiz / Непрерывно)** parametri seçildikdə slayd nümayiş olunduğu müddətdə səs faylı fasiləsiz nümayiş olunur.

**- Rewind after Playing (Səslənmədən sonra əvvələ**

**qayıtmaq / Перемотать после воспроизведения)** parametri seçildikdə səslənmədən sonra əvvələ qayıdılır.

Bundan əlavə elə sazlama işi aparmaq olar ki, zəruri musiqi bir slaydın deyil, bir neçə slaydın nümayişi zamanı səslənsin. Bunun üçün səs faylının piktoqramı seçilir və **Animations (Animasiyalar)** paneli üzərində yerləşən **Animation (Animasiya)** qrupunun aşağı sağ küncündəki ox üzərində mausun sol düyməsi basılır. Bu halda **Play Audio (Audio səslənmə/ Звук: воспроизведение)** dialoq pəncərəsi açılır (şəkil 4.8).




**Şək.4.8. Play Audio (Səslənmə) dialoq pəncərəsi**

Bu dialoq pəncərəsinin Start playling (Səslənməyə başlamaq) bölməsində səs faylının səslənməyə başlanma yerini (From beginning-birinci slayddan), onun səslənmə

“növbəsində” yerini (From last position- axırıncıdan), həmçinin müəyyən zamanla (From time ... seconds - ... saniyədən sonra) avtomatik səslənməsini təyin etmək olar.

Həmçinin, bu dialoq pəncərəsinin **Stop playling (Səslənmənin dayanması/Закончить)** bölməsində üç variant təklif edilir. O cümlədən, **On click (Mausun düyməsilə / По щелчку)** variantı seçildikdə səslənmə mausun düyməsilə dayandırılır. **After current slide (Cari slayddan sonra/После текущего слайда)** variantı seçildikdə səslənmə cari slaydın nümayişindən sonra dayanır. Nəhayət, **After ... slides (... slayddan sonra/После ... слайда)** variantı seçildikdə isə əvvəlcədən təyin edilmiş saydın nümayişindən sonra səslənmə dayanır. Yəni nöqtələrin yerinə məsələn, 5 yazılarsa, o halda 5-ci slaydın nümayişindən sonra səslənmə dayanır.

Bu göstərilən sazlanma işlərilə yanaşı MS PowerPoint proqramı səs faylını istifadəçinin istədiyi kimi montaj etməyə də imkan verir. Belə ki, **Playback (Səsləndirmək)** panelinin **Editing (Redaktə)** qrupundakı **Trim Audio (Səsin montajı/ Монтаж звука)** düyməsi (şəkil 4.7) basıldıqda açılan eyni adlı dialoq pəncərəsi zərurət yaranan zaman səs faylından müəyyən hissəni kəsməyə imkan verir. Yəni həmin dialoq pəncərəsində əks olunan yaşıl sürüngəci mausun sol düyməsilə soldan sağa sürüşdürməklə səs faylının əvvəlini və eləcə də qırmızı sürürngəci sağdan sola sürüşdürməklə səs faylının axırını kəsmək olur (şəkil 4.9). Həmçinin həmin pəncərədə **Start Time (Başlanma vaxtı/ Время начала)** və **End Time (Qurtarma vaxtı/ Время окончания)** parametrlərinin qiymətini təyin etməklə səs cığırından zəruri fraqmenti kəsmək olar.

Slaydların nümayişi zamanı müəyyən məqamların

səslənmə effektini gücləndirmək üçün **Editing (Redaktə)** qrupunun **Fade In (Üzə çıxma/ Появление)** və **Fade Out (Yoxa çıxma / Исчезание)** parametrləri vasitəsilə səsin




**Şək.4.9. Trim Audio (Səsin montajı) dialoq pəncərəsi**

sönmə müddətini, yəni üzə çıxma və yoxa çıxma vaxtını vermək olar (şəkil 4.7). Bu halda səs yavaş-yavaş qalxır və eyni templə də enərək "dalğavari yayılma" təəssüratı yaradır.

## §4.2. Video-faylın təqdimat slaydına əlavə edilməsi

PowerPoint 2010 təqdimatlarında Word proqramından bizə məlum olan mətnlər, cədvəllər, diaqramlar, şəkillər və s. elementlərlə yanaşı həm də video-fayllardan istifadə edilir. Belə ki, təqdimatın daha məzmunlu, daha dolğun və daha diqqət çəkən olması üçün slaydlara müəyyən video-fayllar (video-fraqmentlər və ya video-kliplər) yerləşdirirlər.

Video-fraqment əslində ASF, AVI, MPG (MPEG) və ya WMV formatlı video-fayldır. Adətən slayda yerləşdirilmiş video-fraqment əlavə görüntülərlə eyni vaxtda səslə müşayiəti də işə salır.

Video-kliplər (Clip Art video) isə MS Office 2010 paketi kitabxanasında mövcud olan *gif genişlənməli

animasiya fayllarıdır. GIF formatlı animasiya təsvirləri (Clip Art videolar) videofilm deyildir, onlar bir-birini əvəz edərək animasiya effekti yaradan bir neçə təsvirdən ibarətdir.

PowerPoint təqdimatına video-fayllar (video-fraqment və ya video-kliplər) daxil etmək üçün onları sadəcə olaraq təqdimatın ayrı-ayrı slaydlarına yerləşdirmək lazımdır.

Video-fraqmentlər və video-kliplər (GIF formatlı animasiya təsvirləri) təqdimat slaydlarına müxtəlif üsullarla yerləşdirilə bilər:

- Bərk diskdən video-fayllar yerləşdirməklə;
- İnternet saytlarından video-fayllar yerləşdirməklə;
- MS Office 2010 paketi kitabxanasından video-kliplər yerləşdirməklə.

**Video-faylın diskdən slayda yerləşdirilməsi.** Bu əməliyyat aşağıdakı addımlarla icra olunur:

- Video-fayl yerləşdirmək üçün slayd seçilir;
- **Insert (Yerləşdirmək / Вставка)** panelinin **Media (Media/Мультимедиа)** qrupundan **Video (Video)** düyməsi basılır. Nəticədə video-faylı slayda yerləşdirilməsi üçün mümkün üsullar siyahısı açılır (şəkil 4.10):




**Şək.4.10. Video-faylın slayda yerləşdirilmə üsulları**

**Video from File (Fayldan video / Видео из файла)** bərk diskdə saxlanan video-faylı təqdimat slaydlarına daxil etmək üçün nəzərdə tutulur;

**Video from Web Site (Veb saytdan video / Видео с видеосайта)** internet saytlarından video-faylı təqdimat slaydlarına daxil etmək üçün istifadə edilir;

**Clip Art Video (Şəkillər kolleksiyasından video/**

**Видео из коллекции картинок)** MS Office kitabxanasından video-faylı slaydlara daxil etmək üçündür.

- Bu siyahıdan (şəki 4.10) **Video from File (Fayldan Video/ Видео из файла)** variantı seçilir. Bu halda **Insert Video (Videoyazı yerləşdirmək/ Вставка видеозаписи)** dialoq pəncərəsi açılır;
- Həmin dialoq pəncərəsindən zəruri video-fayl seçilir və **Insert (Yerləşdirmək/ Вставить)** düyməsi basılır. Nəticədə təqdimat slaydında video-fayl pəncərəsi açılır.




**Şək. 4.11. Video-fayl pəncərəsi slayd üzərində əks olunur**

Slayda yerləşdirilmiş video-pəncərənin yerini dəyişmək və ya video-fraqmentə baxmaq olar. Odur ki, video-fayl pəncərəsində mausun sol düyməsi basılır. Bu zaman pəncərənin aşağısında müvafiq idarəetmə paneli üzə çıxır (şəkil 4.11). Bu panelin elementləri video-faylın idarə olunmasında istifadə edilir:

- Panelin ▶ **Play / Pause (Səsləndirmək / Fasilə - Воспроизведение / пауза)** düyməsilə (Alt+P) videofaylı səsləndirmək, həmçinin fasilə vermək olar (şəkil 4.12).




**Şək. 4.12. Video-fayl nümayiş etdirilir**

- Video-fayl pəncərəsini mausun sol düyməsilə slayd üzərində başqa yerə daşımaq, onun ölçülərini dəyişmək olar.

**Video-faylın Veb-saytdan yerləşdirilməsi.** Təqdimat slaydlarına internet saytından yalnız o halda video-fayl yerləşdirmək mümkündür ki, saytda seçilmiş video-faylın tətbiq kodu olsun. Bu kod təqdimat slaydından videoya keçid üçün əlaqə yaratmağa imkan verir. Odur ki, video-faylın veb-saytdan təqdimat slaydına yerləşdirilməsi dedikdə slaydda həmin videoya keçid əlaqəsinin yerləşdirilməsi nəzərdə tutulur. Lakin heç də bütün saytlarda videonun kodu MS PowerPoint 2010 proqramına lazım olan formada verilmir. Həmçinin, bəzi saytlarda bir sıra video-fraqmentlər üçün belə kod ümumiyyətlə təqdim edilmir və ona görə də onlar üçün keçid əlaqəsi yaratmaq mümkün deyildir.

Beləliklə, veb-saytdan seçilmiş video-fraqment aşağıdakı qayda ilə təqdimat slaydına yerləşdirilə bilər:

- Veb-sayt açılır və slayda yerləşdirmək üçün video

seçilir;

- Seçilmiş video üçün tətbiq kodu tapılaraq seçilir;
- Təqdimat açılır və videofraqment yerləşdirmək üçün slayd seçilir;
- **Insert (Yerləşdirmək / Вставка)** panelinin **Media (Media/Мультимедиа)** qrupundan **Video (Video)** düyməsi basılır və açılan siyahıdan **Video from Web Site (Veb-saytdan video/ Видео с веб-сайта)** variantı seçilir. Nəticədə **Insert Video from Web Site (Veb-saytdan video yerləşdirmək / Вставка видео с веб-сайта)** dialoq pəncərəsi açılır (şəkil 4.13).




**Şək. 4.13. Insert Video from Web Site (Veb-saytdan video yerləşdirmək) dialoq pəncərəsi**

- Kopyalanmış tətbiq kodu bu dialoq pəncərəsinə yerləşdirilir (şəkil 4.13).
- Dialoq pəncərəsində **Insert (Yerləşdirmək)** düyməsi basılır və nəticədə slayd üzərində videofraqmentin pəncərəsi əks olunur (şəkil 4.11).

Yuxarıda qeyd edildiyi kimi əslində slayda videofraqmentin özü yox, bu fraqmentə keçid üçün internet əlaqəsi yerləşdirilir. Odur ki, təqdimatın nümayişindən əvvəl internet açıq olmalıdır.

**Videofaylın Microsoft Office 2010 kitabxanasından slayda yerləşdirilməsi.** Microsoft Office 2010 paketi istənilən temaya aid videokliplərin slayda yerləşdirilməsi üçün geniş seçim imkanı verir. Təqdimat slaydına videoklip yerləşdirmək üçün aşağıdakı addımlar icra olunur:

- Video-fayl yerləşdirmək üçün slayd seçilir;
- **Insert (Yerləşdirmək / Вставка)** panelinin **Media (Media/Мультимедиа)** qrupundan **Video (Video)** düyməsi basılır. Nəticədə video-faylın slayda yerləşdirilməsi üçün mümkün üsullar siyahısı açılır (şəkil 4.10).
- Həmin siyahıdan **Clip Art Video (Clip Art Video/ Видео из организатора клипов)** variantı seçilir. Bu halda MS PowerPoint pəncərəsinin sağ hissəsində **Clip Art (Clip Art/ Картинка)** paneli açılır (şəkil 4.14).
- Bu panel üzərində əks olunan eskizlərə nəzər yetirilir və uyğun video-fayl seçilir. O cümlədən, panel üzərində **Search for (Axtarış/ Искать)** sətrindən zəruri açar sözü daxil etməklə müxtəlif temalara aid video-fayllar tapmaq olar. Buradan zəruri klip seçilir və onun üzərində mausun sol düyməsi basılır. Bununla da video-klip slayda yerləşdirilir.



**Şək. 4.14. Video-kliplə iş zamanı ClipArt panelinin görünüşü**

Video-klipi slayda yerləşdirməzdən əvvəl ona baxmaq olar. Bunun üçün mausun göstəricisi eskiz üzərinə gətirilir, bu halda görünən ox işarəsi üzərində mausun sol düyməsi

basılır və açılan menyunun **Preview/ Properties (Öncə görünüş və xüsusiyyətlər/ Просмотр и свойства)** əmri seçilir. Nəticədə eyni adlı dialoq pəncərəsi açılır (şəkil 4.15).




**Şək. 4.15. Öncə görünüş və xüsusiyyətlər pəncərəsi**

Bu pəncərədə əks olunan açar sözlərdən seçmək, **Next (Növbəti/Далее)** düyməsinin köməyilə kliplərə baxmaq və seçim etmək olar.

# Fəsil 5. Animasiyalarla iş

## §5.1. PowerPoint 2010 proqramında animasiyalar

Animasiya dedikdə təqdimat slaydlarına xüsusi video- və ya səs effektlərinin əlavə edilməsi nəzərdə tutulur. Animasiyalardan istifadə etmək auditoriyanın diqqətini təqdimatın mühüm məqamlarına yönəltməyə və eləcə də onun nümayişini daha əyləncəli etməyə imkan verir. Auditoriyanın diqqətini cəlb etmək üçün müxtəlif animasiya effektləri tətbiq edilir. Animasiyalar həm slaydlara və həm də istənilən slayd obyektlərinə - mətnə, cədvələ, rəsmə, video-klipə, diaqrama, fotoşəkilə və s. tətbiq edilə bilər.

PowerPoint 2010 proqramında tətbiq olunan obyektlərdən asılı olaraq bir neçə növ animasiya effektləri var:

- ***Slaydlararası keçidlər.*** Bu animasiya effekti slaydlara tətbiq edilir. Belə ki, bu keçidlər təqdimatın nümayişində slaydların bir-birini necə əvəz edəcəyini seçməyə imkan verir. Bunun üçün MS PowerPoint 2010 proqramında 50 müxtəlif variant təklif edilir. Bunlardan istənilən biri seçilə bilər. Bu halda məs., slaydlar ekrandan yox olarkən hissələrə parçalana bilər, yça bilər, bir-birinin üstündə əriyə bilər və s. Slaydlararası keçidlərin tətbiqi fəsil 2-də verilir.
- ***Animasiya stilləri.*** Animasiya stillərinin istifadəsi slayd üzərində istənilən obyektə standart animasiya effekti tətbiq etməyə imkan verir. Məsələn, bu zaman mətn böyüyə bilər və ya onun rəngi dəyişər, yaxud diaqram sütunlarının ölçüləri dəyişə bilər və ya bir-birinin ardınca yavaş-yavaş üzə çıxar və s. Bu cür animasiya effektləri auditoriyanın diqqətinin slayd üzərində konkret bir obyektlər üzərində cəmləşməsinə səbəb olur.

- ***Qeyri standart (şəxsi) animasiyalar.*** Bu variantın tətbiq olunması istifadəçiyə PowerPoint 2010 proqramının standart animasiya effektləri əsasında şəxsi animasiya effektləri yaratmağa imkan verir. Belə ki, bu halda əlavə animasiya parametrlərinin sazlanmasından istifadə edilir.
- ***Əməliyyat düymələri (idarəedici düymələr).*** Əslində bu əlaqə tipli animasiyadır. Əməliyyat düymələri təqdimatın nümayişinin idarə olunması üçün yaradılır. Belə düymələrin olması imkan verir ki, təqdimatın nümayişi, bir slayddan digərinə keçid, səs və video-effektlərin icrası tamaşaçılar tərəfindən yerinə yetirilsin. Əməliyyat düymələri fəsil 2-də verilir.
- ***Hiperəlaqələr.*** Bu üsul vasitəsilə animasiyanı slayd üzərindəki istənilən obyektin hiperəlaqəsinə çevirmək olar. Bu isə slaydlar üzrə yerdəyişmələri və xarici sənədlərə girişi sadələşdirir.

## §5.2. Animasiyaların tətbiqi

Animasiyaların tətbiqində ən sadə və tez icra olunan üsul seçilmiş slayd obyektlərinə standart animasiya effektlərinin tətbiq edilməsindən ibarətdir.

Standart animasiya effektlərinin tətbiqinə başlamazdan əvvəl mövcud animasiya effektləri siyahısına baxaq. PowerPoint 2010 proqramında mümkün animasiyalar dörd qrupda verilir (fəsil 2-də şəkil 2.17):

**Entrance (Giriş/ Вход).** Bu qrupa daxil olan effektlərin köməyilə obyektin ekranda üzə çıxma qaydasını seçmək olar. Məsələn, slayd obyekti təqdimatın nümayişi zamanı ekranda yavaş-yavaş və ya qəfildən görünə bilər, slayd üzərinə “uça” bilər və s. PowerPoint 2010 proqramında

30-dan çox cürbəcür effektlərdən (şəkil 2.17) istifadə etmək olar: *üzə çıxma, solma, uçuş, rəvan şəkildə yaxınlaşma* və s.;

**Emphasis (Ayrılma/Выделение).** Bu qrupdakı effektlər auditoriyanın diqqətinin bir obyektə yönəlməsinə imkan verir. Belə ki, bunların köməyilə slayd obyektlərinə *fırlanma, yellənmə, ölçünün dəyişməsi* və s. kimi effektlər tətbiq etmək olar. PowerPoint 2010 proqramı 20-dən çox bu cür effektlərdən istifadə etməyə imkan verir;

**Exit (Çıxış/Выход).** Bu qrupa daxil olan effektlər vasitəsilə nümayiş zamanı obyektlərin ekrandan yox olma üsullarını seçmək olar. Belə ki, bu effektlərin tətbiq edildiyi obyektlər nümayiş prosesində qəfildən itə bilər, tədricən solaraq tutqunlaşa bilər, slayd üzərindən "uça" bilər və s.

PowerPoint 2010 proqramında 30-dan çox belə effektlər təklif edilir: *yox olmaq, solmaq, vərəqin kənarına uçmaq, rəvanlıqla ləğv olunmaq* və s.;

**Motion Paths (Yerdəyişmə yolu/ Пути перемещения).** Bu qrupa daxil olan animasiya effektləri nüamyiş prosesində obyektin yerdəyişmə trayektoriyasını təyin etməyə imkan verir. Məsələn, bu effektlərin tətbiq edildiyi obyekt nümayiş zamanı slayd üzərində yuxarı, aşağı, sola, sağa istiqamətdə və ya ulduz, dairə və s. fiqurlar şəklində cürbəcür əyrixətli trayektoriyalarla öz yerini dəyişə bilər. PowerPoint 2010 proqramında 60-dan çox belə effektlər təklif edilir: *xətlər, qövslər, dönmələr, fiqurlar, ilgəklər və s.*

Qeyd etmək lazımdır ki, nümayiş zamanı obyektin yerdəyişmə yolu slaydın kənarından başlayaraq slayd üzərində bitirsə, o halda həmin effekt **Entrance (Giriş)** effektinə oxşardır. Və əksinə, yerdəyişmə yolu slayd üzərindən başlamaqla ondan kənarda sona yetirsə, o halda bu

effekt **Exit (Çıxış)** effektinə oxşardır. Eləcə də yerdəyişmə yolu slaydın sərhədindən başlayaraq sərhədində də sona yetirsə, o zaman bu effekt **Emphasis (Ayrılma/Выделение)** effekti kimi icra olunur. Əgər yerdəyişmə yolunun həm başlanğıcı, həm sonu slayd sərhədindən kənardadırsa, o zaman nümayiş prosesində obyekt slayddan kənarda üzə çıxır, göstərilən yolu keçir və nəhayət, slayd hüdudlarından kənarda yox olur.

Yuxarıda göstərilən animasiya effektləri slayd obyektlərinə tək-tək və ya onların bir-biri ilə kombinasiyası tətbiq edilə bilər. Belə ki, bir slayd obyektinə birbaşa bir neçə animasiya effektini tətbiq etmək olar. Məsələn, slayd üzərində seçilmiş müəyyən bir obyektə eyni vaxtda iki animasiya effekti - giriş effekti - **Swivel (Fırlanma/ Вращение)** və çıxış effekti- **Fade (Solmaq/ Выцветание)** tətbiq edilə bilər. Bu halda nümayiş zamanı slaydın həmin seçilmiş obyekti əvvəlcə fırlana-fırlana ekranda üzə çıxır və təyin edilmiş saniyələrdən sonra rəvan şəkildə ekrandan yox olur.

Bəzi animasiya effektləri yalnız müəyyən tip obyektlərə tətbiq edilir. O cümlədən, **Font Color (Mətnin rəngi/Цвет текста)** effekti (mətn rənginin seçilməsi effekti) yalnız slayd üzərində seçilmiş mətn obyektinə tətbiq edilə bilər.

Göstərilən qrupların hər birində animasiya effektləri müəyyən alt qruplardan ibarətdir: *ümumi, sadə, orta və mürəkkəb.* Bu göstərilən alt qruplardan istənilən animasiya effektini seçib tətbiq etmək olar. Hər hansı animasiya effekti aşağıdakı qayda ilə slayd obyektinə tətbiq edilir:

- Zəruri təqdimat faylı açılır.
- **Normal (Adi/ Обычный)** görünüş rejimi seçilir.
- **Animations (Animasiyalar)** paneli açılır.

- Slaydlardan müəyyən biri seçilir.
- Seçilmiş slaydın nəzərdə tutulan obyekti seçilir.
- **Animations (Animasiyalar)** qrupunun sağındakı oxlar vasitəsilə standart animasiya effektlərinin siyahısı açılır və buradan zəruri effekt seçilir. Və ya **Advanced Animations (Əlavə animasiyalar/ Расширенная анимация)** qrupundan (şəkil 2.16) **Add Animations (Anaimasiya əlavə etmək/ Добавить анимацию)** düyməsi basılır və açılan standart effektlər siyahısından zəruri effekt (şəkil 2.17) seçilir. Bununla da PowerPoint proqramı həmin effekti seçilmiş obyektə tətbiq edir və nəticəni ekranda nümayiş etdirir. Yadda saxlamaq lazımdır ki, slayd üzərində heç bir obyekt seçilmədikdə **Animasiyalar qrupu** və **Animasiya əlavə etmək** düyməsi aktiv olmur.

Slaydın animasiya effekti tətbiq edilmiş obyektinə daha bir effekt tətbiq etmək olar:

- İkinci animasiya effekti tətbiq etmək üçün obyekt seçilir.
- **Advanced Animations (Əlavə animasiyalar)** qrupunun **Add Animations (Anaimasiyalar əlavə etmək)** düyməsilə standart animasiya effektlərinin siyahısı açılır.
- Açılmış siyahıdan obyektə əlavə ediləcək animasiya effekti seçilir.

Slayda animasiya effektləri əlavə edildikdən sonra onların nə dərəcədə qaneedici olduğunu müəyyən etmək üçün bütün təqdimata baxmaq lazımdır. Bunun üçün aşağıdakı addımlardan biri icra oluna bilər:

- PowerPoint proqramı pəncərəsinin vəziyyət sətrindən **Slide Show (Slayd nümayişi -** ) düyməsi basılır. İstifadə olunan animasiya effektlərinə baxmaq üçün mausun sol düyməsi və ya Enter düyməsindən istifadə edilir.

- PowerPoint proqramı pəncərəsinin vəziyyət sətrindən **Reading View (Oxu rejimi- )** düyməsi düyməsi basılır. Animasiya effektlərinin nümayişi üçün mausun sol düyməsi və ya Enter düyməsindən istifadə edilir.
- PowerPoint proqramı pəncərəsinin vəziyyət sətrindən **Slide Sorter (Slayd nizamlayıcısı- )** düyməsi basılır. Bu rejimdə tətbiq olunan animasiya effektlərinə baxmaq üçün slaydların aşağısında əks olunan kiçik ulduz işarəsindən istifadə edilir.

Uğursuz alınmış animasiya effektini aşağıdakı üsulla ləğv etmək olar. Bunun üçün **Normal (Adi)** görünüş rejiminə keçmək və aşağıdakı addımlardan birini icra etmək lazımdır:

- Animasiya effekti tətbiq edilmiş obyektin solundakı kiçik nömrə üzərində mausun sol düyməsi və sonra klaviaturadan Delete düyməsi basılır.
- Animasiya effekti tətbiq edilmiş obyekt seçilir və **Animations (Animasiyalar)** qrupundan **None (Animasiyasız/ Без анимации)** variantı seçilir. Bu halda seçilmiş obyektə tətbiq edilmiş bütün animasiya effektləri ləğv edilir.

Slayd üzərindəki obyektlər üçün tətbiq edilmiş bütün animasiya effektlərinin hamısına pəncərənin sağında əks olunan animasiya oblastı panelində (**Animation Pane - Animasiya paneli)** baxmaq olar (şəkil 2.20).

## §5.3. Animasiyaların sazlanması

Adətən bir neçə slayd obyekti üçün yaradılmış animasiya effektləri yaradılma ardıcıllığı üzrə növbə ilə göstərilir. Lakin animasiya effektlərinin nümayiş ardıcıllığı aşağıdakı üsullardan biri ilə dəyişdirilə bilər:

- Animasiya oblastı panelində (şəkil 2.19) zəruri animasiya effekti mausla aşağı və ya yuxarı sürüşdürülərək lazım olan yerdə saxlanılır.
- **Animations (Animasiyalar)** panelinin **Timing (Slaydların nümayiş vaxtı)** qrupundakı **Reorder Animation (Animasiya ardıcıllığını dəyişmək /Изменить порядок анимации)** bölməsinin **Move Earlier (Arxaya keçirt/Переместить назад)** və **Move Later (Qabağa keçirt/Переместить вперед)** əmrlərindən istifadə edilir (fəsil 2-yə bax).

Animasiya effektlərinin parametrləri iki üsulla sazlanır:

**a)** Animasiya oblastı panelindən açılan dialoq pəncərəsi vasitəsilə.

**b)** **Animations (Animasiyalar)** panelinin **Animation (Animasiya)** qrupundakı **Effect Options (Effekt parametrləri)** düyməsindən istifadə etməklə.

**Animasiya effektləri parametrlərinin sazlanması.** Müxtəlif animasiya effektləri parametrlərinin sazlanması üçün açılan dialoq pəncərələrinin əlavələri müxtəlif ola bilər. O cümlədən, bütün effektlərin sazlanması üçün istifadə edilən dialoq pəncərələrində **Effect (Effekt / Эффект)** və **Timing (Zaman/Время)** əlavəsi həmişə olur. Lakin mətn obyektlərinin animasiya effektləri sazlanarkən açılan dialoq pəncərəsində həm də **Text Animation (Mətn animasiyası)** əlavəsi olur (şəkil 5.1 və 5.2).

Dialoq pəncərələrinin **Effect (Effekt)** əlavəsində aşağıdakı parametrlər var:

**1. Sound (Səs/Звук) parametri.** Bu parametr animasiya effektinə səs əlavə etməyə, həmçinin səsin yüksəkliyini seçməyə imkan verir (şəkil 5.5).

**2.After animation (Animasiyadan sonra / После анимации) parametri.** Bu parametrin köməyilə animasiyanın başa çatma qaydası təyin edilir. Məsələn, elə seçim etmək olar ki, effektin nümayişindən sonra obyekt ekrandan yox olsun və müəyyən saniyələrdən sonra yenidən üzə çıxsın, mətn isə öz rəngini müvəqqəti olaraq dəyişsin.




**Şək. 5.1. Animasiya effektinin Timing (Zaman) parametrləri**

**3.Animate text (Mətn animasiyası) parametri.** Bu parametr vasitəsilə animasiya effektinin mətn obyektinə tətbiq edilmə qaydası seçilir. Animasiya effektləri parametrləri aşağıdakı qayda ilə sazlanır:




**Şək. 5.2. Animasiya effektinin Text Animation (Animasiya mətni) parametrləri**

- Animaisya effekti tətbiq edilmiş obyekt üzərində mausun sol düyməsi basılır. Məsələn, bizim misalda slayd obyektinə **Bounce (Sıçrayış/ Выскакивание)** effekti tətbiq edilir.

➢ **Animations (Animasiyalar)** panelinin **Advanced Animation (Əlavə animasiyalar/Расширенная анимация)** qrupundan **Animation Pane (Animasiya paneli)** düyməsi basılır. Bu halda pəncərənin sağında animasiya oblastı paneli - **Animation Pane (Animasiya paneli)** açılır (şəkil 5.3).




**Şək. 5.3. Animasiya oblastı paneli**

➢ Seçilmiş animasiya effekti animasiya paneli üzərində çərçivəyə alınmış şəkildə görünür (şəkil 5.3). Həmin çərçivədə görünən ox işarəsi üzərində mausun sol düyməsi və ya çərçivə üzərində sağ düymə basılır. Bu halda xüsusi əmrlər menyusu açılır (şəkil 5.4).




**Şək. 5.4. Animasiyaların sazlanma menyusu**

➢ Açılan menyudan **Effect Options (Effekt parametrləri/ Параметры эффектов)** əmri seçilir. Nəticədə sazlanacaq animasiya effektinin adı ilə adlanan dialoq pəncərəsi açılır. Bizim misalda **Bounce (Sıçrayış/ Выскакивание)** effekti seçildiyi üçün eyni adlı dialoq pəncərəsi (şəkil 5.5) açılmışdır. Bu pəncərə həm də PowerPoint pəncərəsində **Animations (Animasiyalar)** panelinin **Animation (Animasiya)** qrupundakı kiçik ox düyməsilə açıla bilər.

➢ Seçilmiş animasiya effektinin səslə müşayiət edilməsi üçün **Sound (Səs)** sətrində açılan siyahıdan zəruri səs effekti seçilir. Təqdimatın nümayişində səs effektindən imtina etmək üçün siyahıdan **No sound (Səssiz/Нет звука)** variantı seçilir.

➢ Səs effekti təyin edilən kimi parametrin yanında düyməsi aktivləşir. Odur ki, bu düymə basılır və səs




**Şək. 5.5. Bounce (Sıçrayış/ Выскакивание) dialoq pəncərəsi**

yüksəkliyi təyin edilir.

Baxılan dialoq pəncərəsində (şəkil 5.5) **After animation (Animasiyadan sonra / После анимации)** sətrindən animasiyanın başa çatma qaydası müəyyən edilir.

Nəhayət, sonda göstərilən parametrlərin sazlanması ya təsdiq edilməli, ya da təxirə salınmalıdır. Bunun üçün müvafiq olaraq OK və ya **Cancel (İmtina)** düyməsi basılır.

**<u>Animasiya effektinin nümayiş vaxtının sazlanması.</u>** Əksər animasiya effektlərinin nümayişi susmaya görə mausla idarə olunur. Bununla yanaşı animasiya effektlərini elə sazlamaq olar ki, onlar mausla müdaxilə etmədən müəyyən

zaman intervalı ilə eyni vaxtda və ya bir-birinin ardınca növbələşərək avtomatik nümayiş olunsun. Animasiya effektlərinin bəzi zaman parametrləri yuxarıda baxdığımız dialoq pəncərəsinin (şəkil 5.1 və ya şəkil 5.6) **Timing (Zaman/ Время)** əlavəsindən sazlanır. Yəni bu pəncərə əlavəsinin elementləri animasiya effektlərinin zaman parametrlərini sazlayarkən istifadə edilir. Bu parametrlər aşağıdakı qayda ilə sazlana bilər.




**Şək. 5.6. Animasiya effektinin Timing (Zaman) parametrləri**

- Animasiya effektini redaktə etmək üçün slayd obyekti üzərində mausun sol düyməsi basılır. Bizim misalda bu **Swivel (Fırlanma /Вращение)** effektidir.
- **Animations (Animasiyalar)** panelinin **Advanced Animation (Əlavə animasiyalar / Расширенная анимация)** qrupundan **Animation Pane (Animasiya paneli)** düyməsi basılır. Bu halda pəncərənin sağında animasiya oblastı paneli - **Animation Pane (Animasiya paneli)** açılır (şəkil 5.3). Seçilmiş animasiya effekti bu panel üzərində düzbucaqlı çərçivədə əks olunur.
- Həmin çərçivədə və ya çərçivənin sağındakı kiçik ox işarəsi üzərində mausun sağ düyməsi basılır. Bu halda xüsusi əmrlər menysu açılır (şəkil 5.4).

➢ Menyunun **Timing (Zaman/ Время)** əmri seçilir. Nəticədə bizim misalda **Swivel (Fırlanma)** effekti seçilmiş olduğundan eyni adlı dialoq pəncərəsi (şəkil 5.7) açılır. Bu pəncərə menyunun **Effect Options (Effekt parametrləri)** əmrilə də (şəkil 5.4) açıla bilər.

➢ Bu pəncərədə əks olunan **Start (Başlamaq/ Начало)** parametrilə animasiya effektinin işə düşmə qaydası təyin edilir. Yəni **Start (Başlamaq)** sətrində açılan siyahıda əks olunan **On Click (Mausla /По щелчку), With Previous (Əvvəlkilərlə /С предыдущим)** və **After Previous (Əvvəlkindən sonra/ После предыдущего)** variantlarından biri seçilir. Eyni zamanda bu siyahıdan **On Click (Mausla)** variantı seçildikdə animasiya effekti slayd üzərində mausun sol düyməsi və ya klaviaturadan Enter düyməsi basılarkən icra olunur. Həmçinin **With Previous (Əvvəlkilərlə)** variantı animasiya effektini slaydın digər obyektlərinin animasiya effektlərilə birgə nümayiş etdirir. Yəni bu parametr bir neçə animasiya effektinin icrasını birləşdirməyə imkan verir. Eləcə də **After Previous (Əvvəlkindən sonra)** variantı göstərir ki, animasiya effekti yalnız əvvəlki effektin icrası başa çatdıqdan sonra icra olunur.




**Şək. 5.7. Swivel (Fırlanma) pəncərəsinin Timing (Zaman) əlavəsi**

➢ **Delay (Ləngimə / Задержка)** parametri animasiya

effektləri arasındakı vaxtı sazlamağa imkan verir. Belə ki, bu parametr əvvəlki animasiya effektinin icrası başa çatdıqdan sonra nə qədər ləngimə ilə (saniyələrlə) animasiya effektinin icra olunacağını təyin edir. Yəni animasiya effektinin müəyyən ləngimə ilə icra olunması üçün **Delay (Ləngimə /Задержка)** sətrindən müəyyən ədədi qiymət daxil edilir. Məsələn, 5 qiyməti daxil edildikdə baxılan animasiya effekti masun sol düyməsi və ya Enter düyməsi basıldıqdan 5 saniyə sonra nümayiş olunur.

- **Duration (Müddət/ Продолжительность)** parametri animasiya effektinin nümayiş sürətini sazlamağa imkan verir. Bunun üçün təklif olunan müxtəlif variantlardan birini seçmək olar: **Very Slow (Çox yavaş/Очень медленно), Slow (Yavaş/Медленно), Medium (Orta/ Средне), Fast (Tez/Быстро)** və **Very Fast (Çox tez/ Очень быстро)** (şəkil 5.7).
- **Repeat (Təkrar/ Повторение)** parametri seçilmiş animasiya effektinin icrasının təkrarlanması üçün istifadə edilir. Belə ki, bu parametr animasiya effektinin icrasının təkrarlanma sayını göstərməyə imkan verir. Bunun üçün müxtəlif variantlar təklif olunur: **2, 3, 4, 5, 10, Until Next Click ("Növbəti" düyməsi basılana qədər/До щелчка по кнопке «Далее»)** və **Until End of Slide (Slaydın sonuna qədər / До окончания слайда)**. Bu siyahıdan müvafiq qiymət, yəni təkrarlanma sayı seçilir (şəkil 5.7). Təkrarlanma lazım delilsə, **None (Heç biri/ Нет)** variantı seçilir.
- Dialoq pəncərəsində əks olunan **Rewind when done playing (Nümayişdən sonra əvvələ qayıtmaq/Перемотать по завершении воспроизведения)** rejimi (şəkil 5.7) seçildikdə animasiya effektinin icrasından sonra obyekt başlanğıc vəziyyətinə düşür. Yəni animasiya effektinin

icrasından sonra obyektin vəziyyəti dəyişdiyi zaman bu rejim əlverişlidir. Məsələn, animasiya effekti tətbiq edilmiş obyekt nümayiş zamanı öz ölçüsü və ya rəngini, eləcə də slayd üzərində yerini dəyişə bilər. Lakin **Rewind when done playing (Nümayişdən sonra əvvələ qayıtmaq /Перемотать по завершении воспроизведения)** rejimi aktiv olduqda animasiya effektinin nümayişindən sonra həmin obyekt həmişə öz başlanğıc vəziyyətinə qayıdır.

Sonda parametrlərin qəbul edilmiş qiymətlərinin saxlanması üçün OK, əks halda isə Cancel düyməsi basılır.

Zaman parametrləri həm də Power-Point proqramı pəncərəsində **Animations (Animasiyalar)** panelinin **Timing (Slaydların nümayiş vaxtı/Время показа слайдов)** qrupunda əks olunur (bax: fəsil 2).

**Mətn animasiyasının sazlanması**. Təqdimatın nümayişi zamanı auditoriyanın diqqətini ayrı-ayrı abzaslara cəlb etmək üçün mətn animasiyasından istifadə edilir. Odur ki, nümayiş prosesində abzasların bir-birinin ardınca ekranda görünməsi üçün mətn obyektinə **Entrance (Giriş/ Вход)** qrupuna daxil olan effektlərdən tətbiq etmək olar. Bu halda mausun düyməsi basılan kimi əvvəlcə slayd üzərində başlıqdan savayı heç bir mətn görünmür. Bundan sonra mausun düyməsi ikinci dəfə basıldıqda ikinci, üçüncü dəfədə üçüncü və s. abzaslar ekranda görünür.Odur ki, auditoriyanın diqqəti həmin abzaslara yönəlir.

Bununla yanaşı **Emphasis (Ayrılma/Выделение)** qrupuna daxil olan effektlərdən də istifadə etmək olar. Bu effektlərin tətbiqi zamanı ekranda mətnin bütün abzasları eyni vaxtda əks olunur. Ayrılma prosesi isə rəngin dəyişməsi, şriftin ölçüsü, sayrışma, fırlanma və s. vasitəsilə baş verir. Hər dəfə mausun sol düyməsi basıldıqda ayrılma

effektləri növbəti abzasa tətbiq edilir.

Bəzi animasiya effektləri yalniz slaydin mətn obyektlərinə tətbiq edilir. Ona görə də mətn obyektləri üçün animasiya effektləri parametrlərinin sazlanma pəncərəsinin üç əlavəsi var: **Effect (Effekt/ Эффект), Timing (Zaman /Время)** və **Text Animation (Mətn animasiyası/ Анимация текста)**. Bu isə mətn üçün animasiya effektinin sazlanmasında **Effect (Effekt/ Эффект)** əlavəsində əks olunan əlavə bir parametrdən - **Animate text (Mətn animasiyası/Анимация текста)** parametrindən də istifadə etməyə imkan verir.

**Effect (Effekt/ Эффект)** pəncərə əlavəsindən istifadə etməklə **Text Animation (Mətn animasiyası/ Анимация текста)** əlavə parametri aşağıdakı qayda ilə sazlanır:

- Slaydın mətn obyekti seçilir.
- **Animations (Animasiyalar)** panelinin **Advanced Animation (Əlavə animasiyalar/Расширенная анимация)** qrupundan **Animation Pane (Animasiya paneli)** düyməsi basılır. Bu halda pəncərənin sağında animasiya oblastı paneli - **Animation Pane (Animasiya paneli)** açılır (şəkil 5.3). Seçilmiş effekt bu panel üzərində digər effektlərdən fərqli olaraq düzbucaqlı çərçivədə əks olunur.
- Animasiya effekti və ya onun sağındakı kiçik ox işarəsi üzərində mausun sağ düyməsi basılır və açılan menyudan (şəkil 5.4) **Effect Options (Effekt parametrləri)** əmri seçilir. Nəticədə biz **Swivel (Fırlanma)** effekti seçdiyimizdən eyni adlı dialoq pəncərəsi açılır (şəkil 5.8).
- Bu dialoq pəncərəsində **Animate text (Mətn animasiyası)** sətrində açılan siyahıdan animasiyanın tətbiqi

üçün müvafiq üsul seçilir. Burada susmaya görə **All at once (Hamısı birlikdə / Все вместе)** variantı nəzərdə tutulur. Bu isə o deməkdir ki, bu animasiya effekti bütün mətnə tətbiq olunacaq.

Burada həmçinin animasiya effektinin ayrı-ayrı sözlərə və hətta hərflərə tətbiq olunması mümkündür. Bunun üçün müvafiq olaraq **By word (Sözlər/По словам)** və ya **By letter (Hərflər / По буквам)** variantı seçilir.

Eləcə də hərflərarası ləngimələrdən istifadə etmək üçün **(% delay between letters (hərflərarası ləngimə faizi/ % задержки между буквами)** sətrindən zəruri qiymət daxil edilir. Bu halda daxil edilən ədədi qiymət növbəti sözün (hərfin) görünməsi üçün cari sözün (hərfin) neçə faizinin ekranda əks olunmasını göstərir. Məsələn, 50% göstərir ki, yalnız birinci sözün yarısı ekranda göründükdən sonra növbəti söz görünməyə başlayacaq.




**Şək. 5.8. Swivel (Fırlanma) dialoq pəncərəsi**

- Nəhayət, parametrlərin qəbul edilmiş qiymətlərini saxlamaq üçün OK, əks halda isə Cancel düyməsi basılır.

<u>**Mətn obyektlərinin qruplaşdırılması**</u>. **Swivel (Fırlanma)** dialoq pəncərəsinin **Text Animation (Mətn animasiyası/Анимация текста)** əlavəsi (şəkil 5.9) mətn obyektlərinin qruplaşdırılmasına imkan verir. Bu pəncərədən təyin olunan **Group text (Mətnin qruplaşdırılması/**

**Группировка текста)** parametri vasitəsilə təqdimatın nümayişi prosesində mətnin üzə çıxma qaydası seçilir. Susmaya görə **As One Object (Bir obyekt kimi/ Как один объект)** variantı tətbiq edilir. Bu o deməkdir ki, animasiya effekti bütün mətnə eyni vaxtda tətbiq edilir. Əgər animasiya effekti tətbiq edilən mətn bir neçə abzasdan ibarətdirsə, o halda **Group text (Mətnin qruplaşdırılması)** parametrinin qiymətlərini abzaslar üzrə beş səviyyədə vermək olar. Bu qiymətlər təqdimatın nümayişi zamanı mətnin üzə çıxmasını aralarında müəyyən zaman intervalı olmaqla ayrı-ayrı abzaslar üzrə və ya abzasların üzə çıxmasını əks ardıcıllıqla təyin etməyə imkan verir.




**Şək. 5.9. Swivel (Fırlanma) dialoq pəncərəsinin Mətn animasiyası əlavəsi**

**Group text (Mətnin qruplaşdırılması/ Группировка текста)** parametri sazlanarkən konkret qiymətlərdən biri qəbul edilir. Məsələn, baxılan dialoq pəncərəsinin (şəkil 5.9) **Group text (Mətnin qruplaşdırılması/ Группировка текста)** sətrində açılan siyahıdan müvafiq qruplaşma variantı seçilir. Bu siyahıdan **As One Object (Bir obyekt kimi/ Как один объект)** variantı seçildikdə təqdimat nümayiş olunarkən birdən üzə çıxır. Mətnin abzas-abzas üzə çıxması üçün **Automatically After (Sonra avtomatik /Автоматически после)** rejimi seçilir. Bu rejim aktiv olduqda müvafiq sətirdən abzaslararası zaman intervalı

(saniyələr) daxil edilir.

Nəhayət, **Swivel (Fırlanma)** dialoq pəncərəsində (şəkil 5.9) müvafiq qiymətlər təyin edildikdən sonra OK düyməsi və ya bu seçimdən imtina etmək üçün Cancel düyməsi basılır.

## Ədəbiyyat

1. Молочков В.П. Microsoft PowerPoint 2010.- НОУ Интуит, 2016
2. Леонов В.С. PowerPoint 2010 с нуля.-М.: Эксмо, 2010.
3. Леонтьев В.П. Новейший самоучитель Office 2010.-М.: ОЛМА Медиа Групп, 2010
4. Джойс Кокс, Джоан Ламберт. Microsoft PowerPoint 2010 Шаг за шагом, Русская версия.- ЭКОМ Паблишерз, 210